# İmam Hüseyn

**Müəllif:**

**Əlixan Musayev**

*Bu kitab insan əməyinin bəhrəsidir. Demək, burada xətaların olması labüddür. Odur ki, öz qeyd və mülahizələrini aşağıdakı elektron ünvana göndərəcək oxucularımıza əvvəlcədən təşəkkür edirik. Sizin dəyərli məsləhətləriniz bu kitabın gələcək nəşrlərində mütləq nəzərə alınacaqdır.*

**burhan_az@hotmail.com**

**Bu kitab Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin icazəsi ilə çap edilmişdir.**
**(DK-263/B 09.09.2009)**

# Ön söz

Həqiqətən, şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edir, Onu köməyə çağırır, Ondan bağışlanma və bizi doğru yola yönəltməyi diləyir, nəfsimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət verərsə, o, doğru yolda olar, kimi azdırarsa, onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

**"Ey iman gətirənlər! Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!"**[1]

**"Ey insanlar! Sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın *törədib yer üzünə* yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən *cürbəcür şeylər* istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir".**[2]

---

[1] "Ali-İmran" surəsi, 102.
[2] "ən-Nisa" surəsi, 1.

**“Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz danışın ki, O, sizin əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun Elçisinə itaət etsə, böyük bir uğur qazanar”.**[1]

Hörmətli oxucu, dəyərli müsəlman bacı və qardaşlarım! Biz müsəlmanlar digər etiqad sahiblərindən Uca Allaha heç bir kəsi şərik qoşmadan şükrü və həmd sənanı yalnız Ona aid etdiyimizə görə fərqlənirik. Bu xüsusiyyəti daşımağımızın özünün xüsusi bir şükrə ehtiyacı var. Biz, nemət gələndə şükr edir, müsibət üz verəndə də səbir edən toplumuq. Bizi belə Yaradan Allaha Həmd olsun! Bu risaləni də İslam tarixində baş vermiş ən böyük müsibətlərdən birinin mərkəzində dayanan, bu müsibətin bütün ağırlığını öz çiyinlərinə alan, amma, bir an olsun belə Allaha təvəkkülünü itirməyən və səbir edən, özündən sonra gələcək yeni nəsil üçün bir örnək olan müsəlman qardaşımız İmam Hüseynə həsr etmişik. İmam Hüseyn o dərəcədə böyük şəxsiyyət olub ki, onun həyat və qəhrəmanlığını bu kiçik risaləyə yerləşdirməyin özü ciddilikdən kənardır. Lakin, Peyğəmbər ﷺ ailəsinin bu qəhrəman nümayəndəsinə olan sevgi və hörmətimizi kiçik risalə vasitəsi ilə də ifadə etməyimizi özümüzə şərəf və borc

---

[1] “əl-Əhzab” surəsi, 70-71.

bilirik deyə səhih mənbələrdə bəzi araşdırmalar apardıq. İnsanlıq xislətimizdən irəli gələrək bu risalədə edə biləcəyimiz səbəbsiz şişirtməyə və başqa xətalara görə Uca Allahdan qabaqcadan bağışlanma diləyir və bu risaləni yetişən nəslin tərbiyəsində onlara aşılanması vacib olan təvəkkül, səbir və Allah yolunda hətta canını belə verməyə hər an hazır olma kimi keyfiyyətlərin formalaşmasında bir vasitə olmasını arzu edirik. İmam Hüseyn bu sadalanan keyfiyyətləri həm qəlbində olan imanı, həm də konkret əməli ilə sübut etmiş bir qardaşımız olduğundan düşünürük ki, inşallah ona aid edilən bu risalə də gənclərimizin dəyanətli, səbirli və imanlı bir müsəlman kimi yetişməsinə az da olsa öz töhfəsini verəcəkdir.

Əziz oxucu! Kitabın tərtibatı ilə bağlı bəzi məsələləri diqqətinizə çatdırmaq istərdik. Bilirik ki, peyğəmbərlərin, səhabələrin adlarını çəkərkən onlara hörmət əlaməti olaraq bəzi dualar edirik. Bunları onların adlarına bitişik şəkildə yerləşdirdik. Bunlardan, məsələn:

ﷺ işarəsinin oxunuşu “salləllahu aleyhi və səlləm”, mənası “ona Allahın salavatı və salamı olsun” bildirir.

رضي الله عنه işarəsi “radıyallahu anhu” kimi oxunur və “Allah ondan razı olsun” mənasını verir, kişi cinsinə aid edilir.

رضي الله عنها işarəsi "radıyallahu anhə" kimi oxunur və "Allah ondan razı olsun" mənasını verir, qadın cinsinə aid edilir.

رضي الله عنهما işarəsi "radıyallahu anhumə" kimi oxunur və "Allah onların ikisindən də razı olsun" mənasını verir.

Uca Allahdan başına müsibət gəlmiş bütün müsəlman qardaşlarımız üçün səbir diləyir və onlara üz verən bu sıxıntıya səbir etmələrinin əcrini həm bu dünyada, həm də axirətdə verməsini arzu edirik.

*Ə.Musayev*

*09.09.2009*

# Giriş

Əziz oxucu, dəyərli müsəlman bacı və qardaşlarım! Ağıl və düşüncə sahibi olduğumuzdan irəli gələrək hamımız Uca Allah tərəfindən yaradıldığımızın fərqindəyik. Bunun fərqində olmağın özü böyük bir nemətdir. Çünki, heç də hər kəs özünün Allah tərəfindən yaradıldığına inanmır və inanmamağı səbəbindən də nəfsinin istəklərinin tələbi ilə hər zaman özünə müxalif, çox zaman da onu həlak edəcək, onu tədricən həlaka sürükləyəcək yollara baş vurur və bu yaşamaq uğrunda mübarizə meydanında özünü tam nəzarətsiz hiss edir. Fitnə-fəsadlar da məhz bu cür insanlar tərəfindən ortaya çıxır. Bundan əlavə diqqət yetirsək görərik ki, bu cür insanlar nə edirlərsə etsələr də, öz nəfslərinin istəkləri ilə yaşasalar da, bu cür yaşayışı özləri özlərinə münasib bilsələr də, nədənsə daim qəlblərinin rahatsızlığından şikayətlənir və ya nə üçün yaşadıqlarından və bu yaşanan həyatın mənasız olduğundan gileylənirlər. Beləcə onlara verilən vaxt boşuna, dünyanım aldadıcı və oyun-oyuncaq olan maddiyyatına sərf edilir və insan ona verilən sınaq müddətini çox dəyərsiz şəkildə israf edərək bu dünyanı tərk edir. Yoxdan var

edilmənin və nə üçün yaradılmanın hikmətini dərk edənlər bu xüsusda çox rahatdırlar deyə bu dərketməni böyük bir nemət hesab edirlər. Onlara vəd edilən günün nemətlərinə olan möhkəm iman onlara bir əminlik və rahatlıq gətirir. Bu cür ağıl sahiblərinin Allahın yeganə və şəriksiz Yaradan olmasını və yaratdıqlarına də yalnız faydalı olanları tövsiyə etməsinin dərki onlar üçün bir xilas yolu olur. Bununla yanaşı bu xilas yolunda onların mütləq bir yol göstərən elçiyə olan ehtiyac duyğuları da Allah tərəfindən cavabsız qalmır və onlar daim ümmətlərə rəhbər olan elçilərlə bu böyük və ağır bir imtahan meydanında tək buraxılmırlar. Hər ümmətə göndərilən elçi mütləq olaraq o ümmət üçün bir nümunə olduğundan bu elçilərə itaət də vacib buyurulur. Uca Allahın yaratdığı insanlara olan bu əvəzsiz köməyi – onlara içərilərindən bir yol göstərən elçi göndərməsi son olaraq bütün bəşəriyyətin xilaskarı Muhamməd ﷺ vasitəsi ilə tamamlanmışdır. Peyğəmbərimiz ﷺ böyük bir əxlaq sahibi olduğu üçün Uca Allah tərəfindən qiyamətədək bütün insanlara bir nümunə elan edilmişdir. Bu xüsusda Quranda belə buyurulur:

**“Həqiqətən də, sən böyük əxlaq sahibisən!”**[1]

---

[1] “əl-Qələm” surəsi, 4.

**“Allahın Elçisi sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir.”[1]**

Peyğəmbərimizin ﷺ gəlişi zamanı özündən əvvəlki peyğəmbərlər kimi bütün insanları tağutu[2] inkar edərək Tək olan Allaha ibadətə çağırmış və bu müdhiş missiyani yerinə yetirdiyi üçün olmazın əzablara, müsibətlərə dözməli olmuşdur. O, insanları bu ağır, amma şərəfli, həm də sonu səadət olan yola dəvət etmiş və bu dəvəti qəbul edənlərin də mütləq imtahan olunacaqları, bəzilərinin isə çox böyük müsibətlərlə üzləşəcəyi barəsində onları xəbərdar etmişdir. Ona görə də Peyğəmbərimizin ﷺ yolunu gedən hər bir müsəlman mütləq bir çətinlik, sıxıntı və ola bilsin də böyük müsibətlərə ilə üzləşəcəyinə, kədər və qəm görəcəklərinə nəfsini hazırlamalıdır. Bu, həqiqi möminlərin və Allaha verdikləri vədə sadiq olanların imtahanıdır. Allah sevdiklərini beləcə imtahan edir.

Allahın izni və rəhməti ilə sizə təqdim etdiyim bu kiçik risalədə məhz belə bir insana, görkəmli şəxsiyyətə -

---

[1] “əl-Əhzab” surəsi, 21.

[2] Tağut sözü aşağıdakı kimi izah olunur:

(a) Uca Allahla yanaşı ilahiləşdirilən və ibadət olunan hər hansı bir məxluq; (b) Allahın haram buyurduqlarına məhəl qoymayan günahkar; (c) şeytan və iblis; (ç) cadugərlər və baxıcılar; (d) insanları aldadan və Allahın şəriətinə zidd olan qanunlar qəbul edən kafirlər; (e) büt yerləşdirilən məbəd.

Allaha verdiyi vədə və peyğəmbərimizin ﷺ yoluna sadiq olmuş, bu yola malı və canı ilə xidmət emiş, Uca Allahın sevdiyi üçün böyük bir sınağa çəkdiyi, amma bu sınaqdan alnıaçıq və qəhrəman kimi çıxdığı, hamımızın həm fəxri, həm də kədəri İmam Hüseynə عليه السلام həsr edilmişdir. Bu gün dünya həyatımız daha çox maddi olan nemətlərə sevgi üzərinə kökləndikcə və bu formada dünyaya bağlılıq tərbiyəsi millətimizin gənclərinin düşüncə və həyat tərzinə hakim kəsildikcə, tarixdə Allaha verdiyi vədə və Peyğəmbər ﷺ yoluna sadiq qalan insanların misalının gənclərə aşılanması daha çox əhəmiyyət kəsb etməyə başlayır. Bu mənada İmam Hüseynin عليه السلام həyatı və mücadiləsi, onun qəhrəman və əsl dəyanətli kişi xarakteri bugünkü gənclərimizin tərbiyəsində çox mühüm bir nümunə olmalıdır. İmam Hüseyn adı dilimizə gələr-gəlməz ilk olaraq içimizdə yaşadığımız hiss öz mənbəyini qəlbimizin sızıltısından alıb gözlərimizə yol tapan və yanaqlarımızla süzülən göz yaşlarına qədər bizi təsirləndirir. Qəribədir ki, bu kədərli hiss dərhal öz yerini bu insanın məğrurluğu, çətinlik və sınaqlarda dözümlülüyü və Peyğəmbərin ﷺ yoluna sadiqliyi ilə yüksəldiyi şəhidlik məqamının sevinci ilə əvəz olunur. Qəlbimizi bürüyən sevinc hissi hər bir mömin insanın ən böyük arzusu olan və İmam Hüseynin

də yüksəldiyi şəhidlik zirvəsi ilə bağlıdırsa, kədər hissi və qəlbimizin hələ də sızlaması, canımızdan artıq sevdiyimiz Peyğəmbərimizə ﷺ ən çox oxşayan, onu görərkən ona olan sevgisindən hətta xütbəsinə belə fasilə verən Peyğəmbər ﷺ nəvəsinin üzləşdiyi faciəvi bir haqsızlıqla bağlıdır. Bu adi haqsızlıq idimi?... Xeyr! Bu, namazda ikən kürəyinə çıxdıqda onu incitməmək üçün bilərəkdən namaz səcdəsini uzadan, qucağına götürdükdə isə onun gələcəkdə üzləşəcəyi böyük bir sınağı Allahın izni ilə qabaqcadan bildiyindən zalımların əli ilə vurulacaq boynuna göz yaşları içində mübarək dodaqlarını toxunduran peyğəmbərin ﷺ nəvəsinə qarşı olan bir haqsızlıq idi. On dörd əsrdir məhz sevgili Peyğəmbərimizin ﷺ mübarək dodaqları dəydiyi üçün milyonlarla müsəlmanın Kəbə evində olan qara daşa öz dodaqları ilə toxunmaq istəyi uğrunda etdiyi cəhdlərə və çoxlarının da bu arzuya nail olmadan ziyarətini başa vurub geri qayıtdığı müdhiş bir görüntüyə hər bir həcc zəvvarı şahid olmuşdur. Dediyimiz kədər həm də Peyğəmbər ﷺ dodaqlarının mübarək öpüşləri ilə hər gün şərəflənən boyunun vurulmasına uzanan, özünə müsəlman deyən zalımın buna necə əlinin gəlməsinin doğurduğu hisslərdir. Orda, Kəbə evində Peyğəmbərin ﷺ bir dəfə öpdüyü və mübarək dodaqlarının

bircə dəfə toxunduğu yerə milyonlarla insanın dodaqlarını toxundurmaq istəyi, burda isə o doqaqların hər gün toxunduğu bir boynun vurulması – kədər deyilmi? Sözsüz ki, böyük dərddir. Özü də bu müsibəti onun başına gətirənlər nə kafirlər, nə də müşriklər deyil, öz ümmətinin insanları olmuşdur. Bəlkə də məhz bu faktın özü faciənin dərinliyini daha da artırır. Öz ümməti tərəfindən ən çox əziyyət çəkən insanlara baxdıqda görərik ki, onların çoxusu tarixdə Allaha lap yaxın insanlar olmuşdular. Bu barədə görkəmli şairimiz Nizami Gəncəvidən gözəl bir misala diqqət yetirək:

Kim ki, ad qoymuşdur qoca dünyada,
Onu öz dostları vermişdir bada.
Ay üzlü Yusifi yad edin barı,
Ona quyu qazdı öz qardaşları.
İsa ki, insanlıq elmində təkdi,
Hər bir yəhudidən cəfalar çəkdi.
Əhməd ki, rəhbəri oldu ərəbin
Gördü cəfasını Əbu Ləhəbin.
Əzəldən dünyanın bir qaydası var:
Bal tutan barmağı arılar sancar.[1]

---

[1] "Leyli və Məcnun", səh: 63.

Seçilən insanların başına gələnlər barəsində görkəmli şairimiz necə də gözəl bir xatırlatma etmişdir: "Bal tutan barmağı arılar sancar" Allah Nizami Gəncəviyə rəhmət eləsin!

İmam Hüseynin başına gələn müsibətlər İslam tarixinin ən kədərli hadisələrindən biridir. Bu hadisələr həm də gələcək nəsillər üçün bir məktəbdir ki, İslama bağlanmaq və bu dində sıx birləşmək zərurətini bildirir. İmam Hüseyn ﷺ da məhz belə düşünüb və belə yaşayan insanlardan olub. Onu sevən insanlar da onun kimi dinə layiqincə xidmət edib müsəlmanların birliyinə çalışmalıdırlar.

Bu risalə həmçinin bu hadisədən irəli gələrək parçalanan ümmətin, elmsizliyi ucbatından bir-birinə düşmən kəsilən tərəflərin birliyinə bir səslənişdir. Sözü gedən və buna oxşar tarixi hadisələr biz müsəlmanların birliyinə, isti münasibətlərinə, mehribançılığına təsir göstərməməlidir. Anlamalıyıq ki, güc birlikdədir. İxtilaf isə birliyi sarsıdır və deməli gücümüzü də tükəndirir. Keçmişi xatırlayaraq müsəlmanların arasına ikitirəlik salan, onların arasında fitnə-fəsad yayan münafiqlərin isə vay halına! Onlar barəsində Quranda belə buyrulur:

**"Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar. Halbuki yalnız özlərini aldadır və *bunu* anlamır-**

**lar. Onların qəlblərində xəstəlik vardır və Allah da onların xəstəliyini artırmışdır. Yalan söylədiklərinə görə ağrılı-acılı bir əzab çəkəcəklər. Onlara: "Yer üzündə fəsad törətməyin!"– deyildiyi zaman: "Biz ki, ancaq xeyirxahlıq edənlərik!"– deyirlər. Sözsüz ki, onlar fəsad törədənlərdir, amma *bunu* başa düşmürlər."**[1]

Bu məsələnin bir tərəfidirsə, problemin digər tərəfi də bu məsələni lüzümsuz olaraq və bəzən də məqsədyönlü şəkildə müsəlmanlar arasında olan narazılıqları dərinləşdirmək üçün ortaya atılmasının bir dini etiqad tələbi olaraq insanlara çatdırılmasıdır. Bu problem elə pərdələndirilir ki, sanki bu tədbirlərə qatılmayanlar buna görə bir sorğu-suala tutulacaqlar. İslam dininin mövqeyi isə fərqlidir. Əvvəlki nəsillərin buraxdıqları səhvlərə, habelə etdikləri günahlara görə biz sorğu-sual olunmayacağıq. Bu məsələlər ibrət üçün ümmətə misal göstərilməli, amma ixtilafa səbəb olacaq səviyyəyə gətirilib çıxarılmamalıdır. Zalım, Allahın vəd etdiyi Cəhənnəmə sakin olacaqdır. Bu belədirsə, keçmiş hadisələrdən yalnız ibrət almalı və bu hadisələr insanları bir-birindən ayırmamalıdır. Xüsusən də, deyildiyi kimi bu hadisələri törədənlərin əməlləri

---

[1] "əl-Bəqərə" surəsi, 9-12.

barəsində biz sorumlu deyilik. Quran bunu bizə belə izah edir:

**“Onlar bir ümmət idi ki, gəlib getdilər. Onların qazandıqları özlərinə, sizin qazandığınız isə sizə aiddir. Siz onların etdikləri barədə sorğu-suala tutulmayacaqsınız.”**[1]

Ümmətin birliyindən danışarkən bir məsələni də yaddan çıxarmamalıyıq ki, Uca Allah bizi müsəlman adlandırıb. Odur ki, “mən filan məzhəbdənəm”, “mən filan firqədənəm”, “mən filan təriqətdənəm” və başqa bu kimi ayrı-seçkilik salan ifadələrdən istifadə etmək, səhabələrin, imamların və onların ardıcıllarının demədiyini demək, beləliklə də, digər müsəlmanlardan seçilmək bizlərə yaraşmaz. Heç eşitmisiniz ki, səhabələrdən və ya əhli-beytdən kimsə “mən Muhəmmədiyəm” (yəni Muhəmməd Peyğəmbərin ﷺ yolundayam) desin?! Xeyr, Allah təalə Qurani Kərimdə müsəlmanlara məhz Onun yolunu tutub getməyi buyurur[2] və elə həmin Kitab da onları firqə-firqə

---

[1] “əl-Bəqərə” surəsi, 134 və 141.

[2] **“Bu, Mənim doğru yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Çünki, *o yollar* sizi Allahın yolundan uzaqlaşdırar. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə *pis əməllərdən* çəkinəsiniz”.** əl-Ənam surəsi, 153; **“De: “Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir”.** Ali-İmran” surəsi, 31.

olmaqdan çəkindirir[1] deyə onlar həmişə özlərini sadəcə müsəlman saymışlar. Hədislərin birində deyilir ki, bir dəfə iki səhabə – biri mühacir olduğu üçün, digəri isə ənsar olduğu üçün – fəxr edirmiş. Peyğəmbər ﷺ də onları görüb belə demişdir: **"Mən sizin aranızda ola-ola siz cahiliyyə dövründəki kimi fəxr edirsiniz?"** Diqqətli olun, baxmayaraq ki, "mühacir" və "ənsar" sözlərinə Quranda tez-tez rast gəlinir və bu ifadələr şəriətdə də varid olmuşdur, hətta Quranda Allah mühacir və ənsarı tərifləsə də,[2] lakin bu adlarla fəxr etmək ədavətə gətirib çıxardıqda artıq bu adlardan belə istifadə etmək qadağan edilmişdir. Peyğəmbərimizin ﷺ onları qınayıb belə deməsi də buna görə idi. Digər bir hədisdə də Peyğəmbər ﷺ buyurmuşdur: **"Hər kim başqasını cahiliyyə dövründəki kimi çağırsa, əlbəttə, o, Cəhənnəm əhlindən olar."** Səhabələr dedilər: "(Ya Rəsulullah!) Namaz qılıb oruc tutsa da belə?" Peyğəmbər ﷺ dedi: **"Namaz qılıb oruc tutsa da**

---

[1] **"Doğru din budur, lakin insanların çoxu *bunu* bilmir. Tövbə edib Allaha üz tutun, Ondan qorxun, namaz qılın və müşriklərdən olmayın! O kəslər ki, öz dinini bölüb firqələrə ayrıldılar. Hər firqə öz təriqətini *üstün bilib* sevinir".** ər-Rum surəsi, 30-32.

[2] **"Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. *Allah* onlar üçün *ağacları* altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları hazırlamışdır. Bu, böyük uğurdur".** ət-Tovbə surəsi, 100.

**belə. Odur ki, Allahın çağırdığı kimi, Rəbbinizin sizi müsəlman, mömin, Allahın qulları adlandırdığı kimi (siz də bir-birinizi) çağırın!"**

Belə olduğu halda biz hansı əsasa görə özümüzə ad götürə bilərik?! Əksinə, biz özümüzə Allahın bizə verdiyi gözəl addan başqa bir ad götürməməliyik. Uca Allah buyurur:

**"Peyğəmbər sizə, siz də insanlara şahid olasınız deyə, Allah həm əvvəl** ***nazil etdiyi kitablarda*****, həm də bu** ***Kitabda*** **sizi müsəlman adlandırdı."**[1]

Dəyərli oxucu, bu kiçik risalə həm məlumat, həm də ibrət xarakterli olduğu üçün bu iki məqsədi birləşdirməyə çalışmışıq. Kərbala hadisələrinə dair olan məlumatlar ətrafında aparılan söhbətlərə nəzər yetirdikdə bu məsələdə orta yol tutanların sayının çox az olduğunu görürük. Bu məsələ ya həddən artıq şişirdilir və o dərəcəyə çatdırılır ki, artıq cəmiyyətdə müsəlmanlardan bir-birinə kin və düşmənçilik hissləri bəsləyən iki qrup üz-üzə gəlir (çox vaxt da buna İslamın düşmənləri yardım edir). Yaxud da digər bir qrup cahillər isə bu hadisənin mahiyyətini o qədər kiçildir ki, sonda zalımların əməlləri haqq işi səviy-

---

[1] "əl-Həcc" surəsi, 78.

yəsinə qalxmış olur. Həqiqət isə bunların ikisinin ortasındadır. Biz də bu risalədə yalnız səhih mənbələrdə bizə qədər gəlib çatan dəqiq məlumatları toplamışıq ki, ədalətdən uzaq olmayaq.

Risalənin ibrət xarakterli olmasını təmin etmək üçün isə İmam Hüseyn müsibəti ilə yanaşı İslam tarixində Allah tərəfindən imtahan olunan, Allah tərəfindən mal, can, doğru yolu tapmaq naminə iztirablara və çətinliklərə sinə gərməkdə sınağa çəkilən tanınmış insanların həyatlarındakı məqamları da risaləyə daxil etmişik. Bunu etməkdə məqsədimiz bu idi ki, soydaşlarımız, xüsusən də gənclərimiz bilsinlər ki, Allaha iman gətirmiş, Peyğəmbərin ﷺ yolunu özünə yol etmiş hər bir kəsi müəyyən sınaqlar gözləyir. Əlbəttə, bu insanların həyatdakı sınaqlarına dair olan bəzi misalları öz həcminə və ağırlığına görə İmam Hüseynin başına gəlmiş müsibətlə bir sıraya qoymaq olmaz. Çünki Hüseyn ibn Əlinin üzləşdiyi imtahan tarixdə bəlkə də misli bərabəri olmayandır. Amma yenə də məqsədimizin tərkibi olaraq bu risaləni bəzi misallarla zənginləşdirməklə sizləri – Allah və Rəsulunun ﷺ istədiyi şəkildə olmaq istəyən bacı və qardaşlarımı da müəyyən sınaqlara hazır olmağa çağırmaqdır. Allahın bu ayəsini tez-tez xatırlamaq gərəkdir. Uca Allah buyurur:

**“İnsanlar elə güman edirlər ki, təkcə: “İman gətirdik!”– demələri ilə onlardan əl çəkiləcək və onlar sınağa çəkilməyəcəklər?! Biz onlardan öncəkiləri də sınağa çəkmişdik (onları da sınağa çəkəcəyik). Sözsüz ki, Allah doğru danışanları da, yalançıları da aşkara çıxardacaqdır.”**[1] Allahın razılığını qazanıb Cənnətə daxil olmaq əsas hədəfimizdirsə, bilməliyik ki, bu asanlıqla dəriləsi meyvə deyildir. Bunun üçün mütləq sınağa çəkiləcəyik. Müsəlmanın ən yaxşısı ən çox müsibət və sıxıntılarla imtahan olunan və bunlara səbir edənlərdir – canımız İmam Hüseyn qardaşımız kimi.

[1] “əl-Ənkəbut” surəsi, 2-3.

# İmam Hüseynin ﷺ dünyaya gəlməsi

Peyğəmbərimizin ﷺ sevimli nəvəsi və möminlərin əmiri Əli ibn Əbu Talibin oğlu Hüseyn ﷺ hicrətin dördüncü ilində, şaban ayının beşi anadan olmuşdur. Onun doğumu münasibəti ilə Allahın rəsulu ﷺ iki qoç kəsib ziyafət vermişdi. Peyğəmbərin ﷺ bütün ailə üzvləri, həmçinin onun səhabələri Hüseynin dünyaya gəlişinə çox sevinmiş və ona xüsusi qayğı göstərmişdilər. Peyğəmbər ﷺ öz nəvələrini çox sevər, onları əzizləyər və onları "balam" deyə çağırardı. Onlara Həsən və Hüseyn adlarını da məhz Peyğəmbər ﷺ qoymuşdur. Muhəmməd ibn Əlinin rəvayət etdiyi hədisdə deyilir ki, Əli ibn Əbu Talib demişdir: "Həsən dünyaya gəldikdə mən ona Həmzə adlarını, Hüseyn doğulduqda isə ona əmisinin adını – Cəfər adını qoymuşdum. Sonra Peyğəmbər ﷺ məni çağırıb dedi:

﴿ إني أمرت أن أغير اسم هذين ﴾

"Mənə bunların adlarını dəyişdirmək əmr olundu!" Mən dedim: "Allah və Onun rəsulu daha yaxşı bilir!" Onda Peyğəmbər ﷺ onlara Həsən və Hüseyn adını qoydu.[1]

---

[1] Müsnəd imam Əhməd 1/159, 1370-ci hədis; Müsnəd Əbu Yələ, 1/147; Mocəm əl-Kəbir, 2780; Müstədrək, 4/277; Məcməuz-Zəvaid, 8/52; Silsilətul Əhadis əs-Səhihə, 2709.

Üstəlik o, nəvələrini xəta-bəladan qorumaq üçün dua edib belə deyərdi:

﴿ أُعِيذُكُمَا بِكَلِمَاتِ اللهِ التَّامَّةِ مِنْ كُلِّ شَيْطَانٍ وَهَامَّةٍ، وَمِنْ كُلِّ عَيْنٍ لاَمَّةٍ ﴾

"Hər bir şeytandan, zərərli həşəratdan və hər pis gözdən qorumaq üçün sizi Allahın tam kəlmələrinə həvalə edirəm[1]".[2]

Hərdən Peyğəmbər ﷺ namaz qılarkən səcdədə ikən Həsən və Hüseyn onun belinə çıxar və səhabələr onları kənara çəkmək istədikdə əli ilə işarə edib onlara dəyməməyi buyurar, namazını qılıb qurtardıqdan sonra isə onları dizinin üstündə oturdub deyərdi:

﴿ من أحبني، فَلْيُحِبَّ هذين ﴾

"Kim məni sevirsə, qoy bunları da sevsin!"[3]

Peyğəmbərin ﷺ nəvələrinə olan sevgisi digər rəvayətdə də gözəl şəkildə ifadə olunmuşdur. Peyğəmbər ﷺ belə buyurmuşdur:

---

[1] Transkripsiyası: Uizukumə bikəlimatillahit-tamməti min kulli şeytanin və hammətin və min kulli aynin lammətin.

[2] Səhih əl-Buxari, 4/119.

[3] Silsilətul-Əhadis əs-Səhihə, 312.

﴿حسين مني و أنا منه، أحب الله من أحب حسينا، الحسن و الحسين سبطان من الأسباط﴾

"Hüseyn məndəndir, mən də Hüseyndən. Hüseyni sevən kimsəni Allah da sevər. Həsən və Hüseyn nəvələrin nəvəsidir!"[1]

Bir başqa rəvayətdə də belə demişdir:

﴿من أحبهما فقد أحبني، ومن أبغضهما فقد أبغضني﴾

"Kim Həsən və Hüseyni sevərsə, məni sevmiş olar, kim də onlara nifrət edərsə, mənə nifrət etmiş olar".[2]

Hədislərdən açıq-aydın görünür ki, hər bir müsəlmana Həsən və Hüseyni sevmək vacibdir. Qəlbində Peyğəmbər ﷺ sevgisi olan kəs onlara da məhəbbət bəsləməlidir və əvvəlki nəsillər əhli-beyti, xüsusən də Həsən və Hüseyni sevdikləri kimi, bizlər də onları sevməliyik. Onların sevinci sevincimiz, kədəri də kədərimiz olmalıdır. Peyğəmbərin ﷺ vəfatından sonra əhli-beytin başına gələn ən böyük müsibət Hüseynin Kərbəla çölündə amansızcasına qətlə yetirilməsi idi. Əlbəttə ki, bu, onlar üçün

[1] əl-Cami əs-Səğir, 5457.
[2] əl-Cami əs-Səğir, 10898.

bir imtahan idi və şübhə yoxdur ki, Allah sevdiyi qullarını sınağa çəkər. Uca Allah buyurur:

﴿وَلَا تَقُولُواْ لِمَن يُقْتَلُ فِى سَبِيلِ ٱللَّهِ أَمْوَٰتٌۢ ۚ بَلْ أَحْيَآءٌ وَلَٰكِن لَّا تَشْعُرُونَ ﴿١٥٤﴾ وَلَنَبْلُوَنَّكُم بِشَىْءٍ مِّنَ ٱلْخَوْفِ وَٱلْجُوعِ وَنَقْصٍ مِّنَ ٱلْأَمْوَٰلِ وَٱلْأَنفُسِ وَٱلثَّمَرَٰتِ ۗ وَبَشِّرِ ٱلصَّٰبِرِينَ ﴿١٥٥﴾ ٱلَّذِينَ إِذَآ أَصَٰبَتْهُم مُّصِيبَةٌ قَالُوٓاْ إِنَّا لِلَّهِ وَإِنَّآ إِلَيْهِ رَٰجِعُونَ ﴿١٥٦﴾ أُوْلَٰٓئِكَ عَلَيْهِمْ صَلَوَٰتٌ مِّن رَّبِّهِمْ وَرَحْمَةٌ ۖ وَأُوْلَٰٓئِكَ هُمُ ٱلْمُهْتَدُونَ ﴿١٥٧﴾﴾

**"Allah yolunda ölənlərə: "Ölüdürlər!" deməyin. Əksinə, *onlar* diridirlər, lakin siz *bunu* duymursunuz. Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənlərə müjdə ver. O kəslər ki, onlara bir müsibət üz verdikdə: "Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!"– deyirlər. Onlara öz Rəbbi tərəfindən təriflər və mərhəmət vardır. Məhz onlar doğru yolda olanlardır."**[1]

Bu xüsusda Peyğəmbər ﷺ demişdir:

﴿أشد الناس بلاء الأنبياء ثم الأمثل فالأمثل يبتلى الرجل على حسب دينه فإن كان في دينه صلبا اشتد بلاؤه و إن كان في دينه رقة ابتلي على قدر دينه فما يبرح البلاء بالعبد حتى يتركه يمشي على الأرض و ما عليه خطيئة﴾

[1] "əl-Bəqərə" surəsi, 154-157.

"İnsanlar arasında ən çox sınağa çəkilənlər peyğəmbərlərdir, sonra da *əməllərində onlara* oxşayanlardır. Hər kəs imanına görə sınağa çəkilər. Əgər adam dinində möhkəm olarsa, *əlbəttə ki,* başına gələn müsibətlər də çoxalar. Yox əgər zəif olarsa, onda imanına görə imtahana çəkilər. Mömininin xətaları azaldıqca başına gələn müsibətlər də artar."[1]

Hüseyn ﵁ hələ körpə ikən onun Kərbəlada şəhid olacağı barədə Peyğəmbərə ﷺ xəbər verilmişdi. Ənəsin rəvayət etdiyi hədisdə deyilir ki, bir dəfə yağış mələyi Peyğəmbərin ﷺ yanına gəlmək üçün izn istədi və Peyğəmbər ﷺ öz zövcəsinə: "Ey Ummu Sələmə, heç kəsi yanıma buraxma!"- deyə buyurdu. Bu vaxt Hüseyn qaça-qaça gəlib Peyğəmbərin ﷺ qucağına hoppandı və atılıb-düşməyə başladı. Peyğəmbər ﷺ onu bağrına basıb öpdü. Onda mələk soruşdu: "Sən onu sevirsən?" Peyğəmbər ﷺ: "Bəli!"- deyə cavab verdi. Mələk dedi: "*Təəssüf ki,* sənin ümmətin onu qətlə yetirəcək. İstəyirsənsə, onun qətlə yetiriləcəyi yeri sənə göstərim." Peyğəmbər ﷺ: "Bəli!"- deyə cavab verdikdə, mələk ona qırmızı torpağı göstərdi."

---

[1] əl-Cami əs-Səğir, 994.

Sabit əl-Bunani demişdir: "O yer Kərbəla idi."[1]

Allahın rəsulu ﷺ dünyasını dəyişərkən Hüseynin altı yaşı var idi. Hüseyn əvvəlcə babası Peyğəmbərin ﷺ yanında onun sevgisi və mərhəməti ilə, sonralar da atasının, möminlərın əmiri Əli ibn Əbu Talibin yanında gözəl tərzdə tərbiyə almışdı. Hüseyn elmli olması ilə yanaşı yiyələndiyi elmə əməl də edirdi. O həddindən ziyadə dinə bağlı olub, çox namaz qılan, oruc tutan, dəfələrlə Allahın Evini ziyarət edən bir zat idi. Tarixçilər onun iyirmi beş dəfə piyada həcc ziyarətinə getdiyini yazmışlar. Bundan əlavə o, gözəl dil qabiliyyətinə malik bir şəxs idi. O, xütbələrinin birində belə demişdir:

– Ey insanlar, əxlaqlı olun, qənimətlərə doğru tələsin! Yaxşılıq etdikdə onu gecikdirməyin, şükür edin. Biriniz kiməsə yaxşılıq etdikdə sizə təşəkkür edilmədikdə bilin ki, Allah sizə bunun mükafatını verəcəkdir. Bilin ki, yaxşılıqla insan savab əldə edər. Yaxşılıq edən insanı gördükdə onu xoşsifət görərsiniz. Pislik edən insan gördükdə isə onu bədbin bir şəkildə görərsiniz. Ey insanlar, yaxşılıq edən ucalar, pislik edən isə alçalar. Ən yaxşı insan əl açıb

---

[1] Silsilətul-Əhadis əs-Səhihə, 1171.

istəməyən adama yaxşılıq edəndir. Kim qardaşına çətin vəziyyətdə yardım göstərsə, çətinə düşəndə də Allah ona yardım edər. Dünya işlərində qardaşına yardımçı olan kəsə Allah Qiyamət günündə yardımçı olar. Yaxşılıq edənə Allah da yaxşılıq edər. Həqiqətən də, Allah yaxşılıq edənləri sevir".

İmam Hüseyn Allahın razılığını qazanmaq üçün Quran oxuyub namaz qılmaqla, gündüzləri isə oruc tutmaqla keçirərdi. O, çox alicənab və gözütox bir insan olmaqla yanaşı həm də çoxlu sədəqə verən səxavətli bir adam idi. Allah Hüseyndən razı olsun!

Rəvayət olunur ki, bir dəfə Hüseyn dostları ilə bostana gedir. Həmin bostanda onun Safi adlı bir köləsi var idi. Bostana yaxınlaşdıqda Hüseyn gördü ki, oğlan oturub çörək yeyir. O, bir ağacın arxasından gizlicə oğlana baxıb gördü ki, o çox qəribə bir şey edir. Çörək parçasını qaldırıb iki hissəyə bölərək yarısını özünə götürür, yarısını da itə verir. Hüseyn onun bu hərəkətindən çox təəccübləndi. Çörəyi yeyib bitirdikdən sonra oğlan belə dedi: "Həmd yalnız aləmlərin Rəbbi olan Allaha məxsusdur. Allahım, məni və mənim ağamı bağışla. Valideynlərimə

bərəkət verdiyin kimi ona da bərəkət bəxş et, ey rəhmlilərin rəhmlisi". Hüseyn çıxıb: "Ey Safi!"- deyə oğlanı səslədi. Oğlan cavab verib dedi: "Buyur, mənim ağam, bağışla səni görmədim". Hüseyn ona dedi: "Halallığını ver, ey Safi, mən sənin bostanına icazəsiz girmişəm". Safi dedi: "Rica edirəm ağam, bu nə sözdür deyirsiz?" Hüseyn dedi: "Çörəyin yarısını özün yeyib, yarısını itə verməyin nə deməkdir?" Oğlan dedi: "Mən çörək yedikdə bu it mənə baxdığına görə çörəyi tək yeməyə utanıram. Axı bu it bostanı düşmənlərdən qoruyur. Bir də ki, bu it sənin itindir, mən isə sənin kölən. Ona görə sənin çörəyini bərabər yeyirik". Bunu eşitdikdə Hüseyn ağlayaraq dedi: "Ey Safi, mən səni Allah xatirinə azad edirəm və sənə səmimi qəlbdən iki min dinar verirəm".[1]

Hüseyn həm də ibadət, əxlaq, xasiyyət və səxavət baxımından başqalarına nümunə idi. O həm də çox cəsur və şücaətli idi. Necə deyərlər, ot öz kökü üstündə bitər. Hüseyn ﷺ Afrikanın şimalında, Təbəristanda və Konstantinopol döyüşlərində iştirak etmiş, habelə atası ilə birgə onun apardığı döyüşlərdə mərd-mərdanə vuruşmuş-

---

[1] Əbnaun-Nəbi və Əhfadihi.

dur. O öz atasından at çapmağı, güləşməyi və sərrast ox atmağı yaxşıca mənimsəmişdi.

Uca Allah Hüseynə bəsirət nuru, dərin zəka, ağıl, tez anlama qabiliyyəti və hifz bəxş etmişdi. Hələ kiçik yaşlarından imam Hüseyn Quranı əzbərləyib bəlağət elminin sirlərinə yiyələnmiş, ayələrin təfsirini və babasından rəvayət olunan hədisləri öyrənmişdi. İmam Hüseyn Quranı hələ uşaq ikən babasından əzbərləmiş, hədisləri isə qardaşından və anasından rəvayət etmişdir. Artıq yeniyetmə yaşlarına dolduqda Hüseyn Allahın haqq yoluna dəvət edirdi. İnsanlar da Peyğəmbər ﷺ nəvəsinə bəslədikləri xüsusi məhəbbətə görə ona diqqətlə qulaq asardılar. Hüseyn hədisləri əsasən atası Əlidən, anası Fatimədən, onun xalası Hind bint Əbu Halədən və Ömərdən rəvayət etmişdir.

Səhabələr onun xətrini çox istəyirdilər. Xüsusən də raşidi xəlifələr Peyğəmbərin ﷺ əhli-beytinə ayrıca ehtiram göstərərdilər.

Əbu Bəkr ؓ həmişə deyərdi: "Canım Əlində olan Allaha and olsun ki, Rəsulullahın ﷺ yaxınları mənim üçün öz yaxınlarımdan daha əzizdir".[1]

---

[1] Səhih əl-Buxari, 3712.

Ömər ibn Xəttab ﷺ də həmçinin, onları çox istəyirdi. Bir dəfə o, səhabələrin uşaqlarına libas paylayarkən Həsənə və Hüseynə ﷺ layiq libas tapmadı. Odur ki, onlara xüsusi libas almaq üçün Yəmənə adam göndərdi. Nəhayət, (Yəməndən gətirilmiş) libası onlara verdikdən sonra dedi: “İndi qəlbim rahat oldu”.[1]

Yenə bir dəfə Ömər ﷺ payları bölüşdürərkən Həsənlə Hüseynə əhli-beytdən olduqları üçün hər birinə beş min dirhəm verdi”.[2]

Osman ibn Əffan ﷺ da öz növbəsində onlara çox yaxşılıqlar edərdi. Bu isti münasibətlərin nəticəsi idi ki, xəvariclər[3] Osmanın evini mühasirəyə aldıqları zaman imam Əli ﷺ öz oğlanları ilə qılınclarını çəkib onun müdafiəsinə qalxmış, Osman isə onların öldürülməsinə ra-

---

[1] Siyər Əlam ən-Nubələ, 3/287.

[2] Siyər Əlam ən-Nubələ, 3/285.

[3] Xəvaric ərəbcə xərəcə ( خَرَجَ ) felindən əmələ gəlmiş xarici sözünün cəmidir. Xərəcə xaric olmaq, xarici isə xaric olan deməkdir. Xarici deyildikdə, müsəlman camaatından ayrılıb özünə dəstə yaradan və ya yaranmış belə bir dəstəyə qoşulan, dəlil-sübutsuz olaraq böyük günah sahibini kafir sayan və şəriətə zidd olan digər əxlaqları özündə cəm edən fasiqlər nəzərdə tutulur. Bu firqə müsəlmanlar arasında meydana gəlmiş ilk firqədir. Onlar Allahın razı qaldığı, Cənnətlə müjdələnmiş, İslam üçün canından və malından keçmiş, ölənədək Peyğəmbərə ﷺ sadiq olmuş Osman və Əli kimi iki böyük əshabəni kafir sayıb şəhid etmişlər.

zılıq verməmiş və Allaha and verib oranı tərk etmələrini xahiş etmişdir.

Yaşca Hüseyndən çox böyük olan Əbu Hureyra ﵁ bir dəfə cənazədə iştirak edərkən (yüzlərlə adamın gözü önündə hörmət əlaməti olaraq) Hüseynin əbasının ətəyindəki toz-torpağı çırpmışdı.[1]

Atası Əli ibn Əbu Talib ﵁ ona əvəzolunmaz nəsihətlər etmişdir. O demişdir:

Oğlum, sənə həm gizlində, həm də aşkarda Allahdan qorxmağı, həm qüvvətli, həm da zəif halında haqqı deməyi, həm varlı, həm də kasıb olanda qənaət etməyi, həm dosta, həm də düşmənə qarşı ədalətli olmağı, həm tənbəllik, həm də yaxşı əhval-ruhiyyən olduqda çalışmağı, həm çətin, həm də asan vaxtı Allahdan razı olmağı tövsiyyə edirəm.

Oğlum, bil ki, Cənnətdə heç bir pislik, Cəhənnəmdə isə heş bir xeyir yoxdur. Cənnətdən başqa hər bir nemət, Cəhənnəm odundan da başqa hər bir bəla heç kimidir.

[1] Siyər Əlam ən-Nubələ, 3/287.

Oğlum bil ki, öz eyiblərini görən şəxs, heç zaman başqasında eyib tutmaz. Allahın ona böldüyü payla razılaşan şəxs heç zaman itirdiyi bir şeyə təəssüflənməz. Pis niyyətlə qılıncını qınından çıxaran elə onunla da öldürülər. Qardaşına quyu qazan özü düşər. Özgəsinin hicabını açan şəxsin ailə üzvlərinin örtüyü açılar. Öz səhvlərini unudan şəxs başqalarının səhvlərini böyüdər. Hər işə dözən tələf olar. Dənizə surətlə atılan batar, özünü bəyənən kəs yolunu azar, ağlını hamıdan yüksək tutan alçalar, başqalarını səfeh sayan söyülər, pis yerlərə gedən böhtanlara məruz qalar, alçaqlara qarışan rəzil olar, alimlərlə oturub-duran isə ucalar, çox sevinən ələ salınar, ayrı olan salamat qalar, şəhvətlərini tərk edən azad olar, həsədi tərk edəni insanlar sevər.

Oğlum, möminin izzəti insanlardan heç bir şey istəməməyidir. Aza qane olmaq tükənməz bir maldır. Ölümü tez-tez xatırlayan azacıq dünya nemətlərinə razı olar. Əzabdan qorxub pis əməli tərk etməyənin və xeyir istəyib çalışmayanın halı necə də qəribədir.

Oğlum, bil ki, zikr nurdur, qəflət zülmətdir, cahillik zəlalətdir, başqasından ibrət götürən xoşbəxtdir, ən xeyirli miras ədəbdir, ən yaxşı dost gözəl əxlaqdır.

Oğlum, qohumluq əlaqələrini kəsməklə irəliləyiş, pisliklə də varlanmaq olmaz.

Oğlum, salamatlıq on qismdir: Onun doqquzu, – zikr istisna olmaqla, – susmaqdır. Biri isə səfeh insanların məclisindən uzaq olmaqdır. Kim məclislərdə Allaha asilik nümayiş etdirsə rəzil olar. Elm tələb edən isə bilikli olar.

Oğlum, elmin zirvəsi mülayim olmaqdır. Müsibətlərə səbir etmək isə iman xəzinələrindəndir. İffətli olmaq kasıbın, şükür etmək isə varlının zinətidir. Bir şeyi çox edən onunla tanınar. Çox danışanın səhvi də çox olar. Xətası çox olanın isə həyası az olar. Həyası az olanın təqvası da azalar. Təqvası azalanın isə qəlbi məhv olar. Qəlbi məhv olan kəs isə Cəhənnəm oduna girər.

Oğlum, günahlarından dolayı ümidsizliyə düşmə, əməllərini xeyirlə bitirən o qədər günahkar var ki. Həmçinin nə çox əməl edib sonda Cəhənnəmə düşənlər var. Məqsədini axtaranın işləri yüngülləşər.

Oğlum, bil ki, çox ziyarət etmək adamı bezdirir. Təcrübə toplamadan rahat olmaq səhv bir addımdır. İnsanın özünü bəyənməsi isə onun ağıldan kəm olduğuna sübutdur.

Oğlum, islamdan daha şərəfli, təqvadan daha ülvi, tövbədən yaxşı şəfqət, iffətdən gözəl libas yoxdur.

Oğlum, elmini və əməlini, sevgisini və nifrətini, alış-verişini, danışığını və sükutunu yalnız Allah üçün edən kimsəyə Cənnət vacib olar".[1]

[1] Tarix əl-Uməm vər-Rusul vəl-Muluk, 5/147-148; əl-Bidayə vən-Nihayə, 7/328-329.

# İmam Hüseynin ﵁ fəzilətinə dair rəvayət edilmiş bəzi hədislər

İmam Hüseynin barəsində bir çox hədislər rəvayət edilmişdir ki, bu hədislərin hamısı onun Peyğəmbərə ﷺ, onun əhli-əyalına və onun səhabələrinə nə qədər əziz olduğunu, onların Hüseyni nə qədər çox sevdiyini göstərir. Gəlin bu hədislərdən bəzilərinə diqqət yetirək:

سأل رجل ابن عمر عن دم البعوضة؟ فقال: ممن أنت؟ فقال: من أهل العراق. قال: انظروا إلى هذا يسألني عن دم البعوضة، وقد قتلوا ابن النبي ﷺ سمعت النبي ﷺ يقول: ﴿ هما ريحانيّ من الدّني ﴾

Rəvayət edilir ki, bir nəfər ibn Ömərdən ﵄ ağcaqanadın qanı barədə fitva istədi. İbn Ömər soruşdu: "Sən kimlərdənsən?" Adam: "Mən İraq əhlindənəm"- deyə cavab verdi. İbn Ömər dedi: "Buna bir baxın! Məndən ağcaqanadın qanı barədə fitva istəyir. Halbuki, onlar Peyğəmbərin ﷺ nəvəsini öldürmüşlər. Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Bu dünyada Həsən və Hüseyn mənim üçün iki reyhan bitkisi kimidirlər".[1]

[1] Səhih Ədəbul-Müfrəd, 85.

و في رواية: سأل رجل ابن عمر عن الْمُحْرِمِ يَقْتُلُ الذُّبَابَ؟ فَقَالَ أَهْلُ الْعِرَاقِ يَسْأَلُونَ عَنْ الذُّبَابِ وَقَدْ قَتَلُوا ابْنَ ابْنَةِ رَسُولِ اللَّهِ ﷺ وَقَالَ النبي ﷺ: ﴿ هما ريحانيّ من الدّني ﴾

Digər rəvayətdə deyilir ki, *həcc ziyarətində* bir nəfər Abdullah ibn Ömərdən ihramda[1] olan adamın milçək öldürməsi barədə soruşdu? İbn Ömər dedi: "*Ay camaat!* İraq əhalisi milçək haqqında soruşur. Halbuki, onlar Peyğəmbərin ﷺ qız nəvəsini[2] öldürmüşlər. Peyğəmbər ﷺ demişdir: "Bu dünyada bunlar[3] mənim üçün iki reyhan bitkisi kimidirlər".[4]

عَنْ سَعْدِ بْنِ أَبِى وَقَّاصٍ قَالَ: لَمَّا نَزَلَتْ هَذِهِ الآيَةُ ﴿فَقُلْ تَعَالَوْا نَدْعُ أَبْنَاءَنَا وَأَبْنَاءَكُمْ﴾ دَعَا رَسُولُ اللَّهِ ﷺ عَلِيًّا وَفَاطِمَةَ وَحَسَنًا وَحُسَيْنًا فَقَالَ: ﴿ اللَّهُمَّ هَؤُلاَءِ أَهْلِى ﴾

Səd ibn Əbu Vəqqas رضي الله عنه rəvayət edir ki, Uca Allahın: **"De: "Gəlin oğullarımızı və oğullarınızı, qadınlarımızı və qadınlarınızı, özümüzü və özünüzü çağıraq, sonra isə dua edib yalançılara Allahın lənət etməsini dilə-**

[1] İhrama girmək – həcc və ya ümrə ziyarətini niyyət etmək.
[2] Onların xəyanəti nəticəsində Hüseyn رضي الله عنه Kərbəlada şəhid edilmişdir.
[3] Burada Həsən və Hüseyn رضي الله عنهما nəzərdə tutulur.
[4] Səhih əl-Buxari, 3753.

**yək"**[1] ayəsi nazil olduqda, Peyğəmbər ﷺ Əlini, Fatiməni, Həsəni və Hüseyni çağırıb dedi: "Allahım, bunlar mənim əhli-beytimdır!"[2]

قَالَتْ عَائِشَةُ: خَرَجَ النَّبِيُّ ﷺ غَدَاةً وَعَلَيْهِ مِرْطٌ مُرَحَّلٌ مِنْ شَعْرٍ أَسْوَدَ فَجَاءَ الْحَسَنُ بْنُ عَلِيٍّ فَأَدْخَلَهُ ثُمَّ جَاءَ الْحُسَيْنُ فَدَخَلَ مَعَهُ ثُمَّ جَاءَتْ فَاطِمَةُ فَأَدْخَلَهَا ثُمَّ جَاءَ عَلِيٌّ فَأَدْخَلَهُ ثُمَّ قَالَ: ﴿إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنْكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا﴾

Aişə rəvayət edir ki, bir səhər Peyğəmbər ﷺ əynində qara yundan əba evdən bayıra çıxdı. Bu vaxt Əlinin oğlu Həsən, onun ardınca Hüseyn, onun dalınca Fatimə, onun dalınca da Əli Peyğəmbərin ﷺ yanına gəldi və o, onları əbasının altına alıb bu ayəni[3] oxudu: **"Ey ev əhli! Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir"[4].**

وعن أبي هريرة قال: قبل رسول الله ﷺ الحسن بن علي وعنده الأقرع بن حابس. فقال الأقرع: إن لي عشرة من الولد ما قبلت منهم أحدا فنظر إليه رسول الله ﷺ ثم قال: ﴿من لا يرحم لا يرحم﴾

[1] "Ali-İmran" surəsi, 61
[2] Səhih Muslim, 2424.
[3] "əl-Əhzab" surəsi, 33.
[4] Səhih Muslim, 2404.

Rəvayət edilir ki, Əbu Hureyra ﵁ demişdir: "(Bir dəfə) Peyğəmbər ﷺ Əqra ibn Habisin yanında Hüseyni öpdü. (Bunu görən) Əqra dedi: "Siz uşaqlarınızı öpürsünüz?! Mənim on övladım var, amma mən onlardan heç birini öpməmişəm". Peyğəmbər ﷺ ona baxıb dedi: "Rəhm etməyən kimsəyə rəhm edilməz".[1]

وعن بريدة قال: كان رسول الله ﷺ يخطبنا إذ جاء الحسن والحسين عليهما قميصان أحمران يمشيان ويعثران فنزل رسول الله ﷺ من المنبر فحملهما ووضعهما بين يديه ثم قال: ﴿صدق الله ﴿إنما أموالكم وأولادكم فتنة﴾ نظرت إلى هذين الصبيين يمشيان ويعثران فلم أصبر حتى قطعت حديثي ورفعتهما﴾.

Bureydə rəvayət edir ki, Peyğəmbər ﷺ xütbə verərkən Həsən və Hüseyn əyinlərində qırmızı köynək, özləri də büdrəyə-büdrəyə ona tərəf gəldilər. Peyğəmbər ﷺ minbərdən düşüb onları qucağına aldı, sonra da önündə oturdub dedi: "Allah doğru buyurmuşdur: **"Həqiqətən, var-dövlətiniz və övladlarınız ancaq bir sınaqdır"**[2] Mən bu körpələrə baxıb büdrəyə-büdrəyə gəldiklərini görüb

---

[1] Tərğib vət-Tərhib, 2262.
[2] "ət-Təğabun" surəsi, 15.

dözmədim, sözümü yarımçıq qoyub onları yanıma qaldırdım”.[1]

عن يعلى بن مرة، أنه قال: خرجنا مع النبي ﷺ، ودُعينا إلى طعام فإذا حسين يلعب في الطريق، فأسرع النبي ﷺ أمام القوم، ثم بسط يديه، فجعله يمر مرة ها هنا ومرة ها هنا؛ يضاحكه حتى أخذه فجعل إحدى يديه في ذقنه والأخرى في رأسه، ثم اعتنقه فقبله، ثم قال النبي ﷺ: ﴿ حسين مني وأنا منه، أحبّ الله من أحب الحسن والحسين، سبطان من الأسباط﴾

Yələ ibn Murra demişdir: “(Bir dəfə) biz Peyğəmbərlə ﷺ birgə yola çıxdıq və yemək süfrəsinə dəvət olunduq. O zaman Hüseyn yolda oynayırdı. Peyğəmbər ﷺ camaatın önündə yüyürərək əllərini Hüseynə tərəf açdı, gah o yana, gah da bu yana (sağa-sola) keçərək və uşağı güldürərək onu qucağına aldı. Peyğəmbər ﷺ bir əli ilə onun çənəsinin altından, o biri əli ilə də onun başından tutub onu (yüngülcə) sıxaraq öpdü. Sonra dedi: “Hüseyn məndəndir, mən də Hüseyndən! Həsən və Hüseyni sevən hər kəsi Allah da sevər. Onlar nəvələrin nəvəsidir.”[2]

[1] Sünən ət-Tirmizi, 4143; Mişkatul-Məsabih, 6159.
[2] Ədəbul-Müfrəd, 364.

عن أسامة بن زيد قال: طرقت النبي ﷺ ذات ليلة في بعض الحاجة فخرج النبي ﷺ وهو مشتمل على شيء لا أدري ما هو فلما فرغت من حاجتي قلت ما هذا الذي أنت مشتمل عليه قال فكشفه فإذا حسن وحسين على وركيه فقال: ﴿ هذان ابناي وابنا ابنتي اللهم إني أحبهما فأحبهما وأحب من يحبهما﴾

Rəvayət edilir ki, Usamə ibn Zeyd demişdir: "Bir dəfə gecə mən bir işdən ötrü Peyğəmbərin ﷺ yanına gəldim. O, evdən bayıra çıxdıqda əbasının altında nəsə var idi, lakin mən bunun nə olduğunu ayırd edə bilmədim. Mən işimi həll etdikdən sonra dedim: "(Ya Rəsulullah!) Əbanın altında saxladığın nədir?" O, əbasını qaldırdıqda mən Həsən və Hüseynin onun dizləri üstündə oturduğunu gördüm. Onda Peyğəmbər ﷺ dedi: "Bunlar mənim nəvələrim, qızımın övladlarıdır! Allahım, mən onları sevirəm, Sən də həm onları, həm də onları sevən kəsləri sev!"[1]

عن أبي هريرة قال: خرج علينا رسول الله ﷺ و معه حسن و حسين، هذا على عاتقه، و هذا على عاتقه، و هو يلثم هذا مرة، و يلثم هذا مرة، حتى انتهى إلينا، فقال له رجل: يا رسول الله! إنك تحبهما؟ فقال: ﴿من

[1] Səhih Sünən ət-Tirmizi, 8/269.

أحبهما فقد أحبني و من أبغضهما فقد أبغضني. يعني الحسن و الحسين رضي الله عنهما﴾

Rəvayət edilir ki, Əbu Hureyra ﷺ demişdir: “(Bir dəfə) Peyğəmbər ﷺ Həsən və Hüseyni götürüb bizim yanımıza gəldi. Uşaqlardan biri onun (sağ) çiynində, o biri isə (sol) çiynində oturmuşdu. Peyğəmbər ﷺ (növbə ilə) gah bunu, gah da onu öpürdü. Nəhayət, gəlib bizim yanımıza çatdıqda bir nəfər dedi: “Ya Rəsulullah, sən, həqiqətən də, onları çox istəyirsən!” Onda Peyğəmbər ﷺ dedi: “Kim onları sevərsə, məni sevmiş olar, kim də onlara nifrət edərsə, mənə nifrət etmiş olar”.[1]

عن ابن عباس قال: رأيت النبي ﷺ فيما يرى النائم ذات يوم بنصف النهار أشعث أغبر بيده قارورة فيها دم فقلت: بأبي أنت وأمي ما هذا؟ قال: ﴿هذا دم الحسين وأصحابه و لم أزل ألتقطه منذ اليوم﴾ فأحصي ذلك الوقت فأجد قبل ذلك الوقت.

Rəvayət edirlir ki, ibn Abbas demişdir: “(Bir dəfə) mən günorta yatıb yuxuda Peyğəmbəri ﷺ gördüm. Saçları dağınıq, üst-başı toz-torpaq içində idi, əlində də qanla dolu bir şüşə tutmuşdu. Dedim: “Atam-anam sənə qur-

---

[1] Müsnəd imam Əhməd, 2/440; Müstədrək əl-Hakim, 3/166; Silsilətul Əhadis əs-Səhihə, 2895.

ban, ya Rəsulullah, bu nədir?" Dedi: "Bu, Hüseynin və onun məsləkdaşlarının qanıdır. O gündən bəri əlimdə tutmuşam." Elə yuxuda gördüyüm gündə Hüseyni qətlə yetirdilər."[1]

عن عبد الله بن عمر قال: ﴿أن رسول الله ﷺ كان يخرج في العيدين مع الفضل بن عباس، و عبد الله و العباس، و علي، و جعفر، و الحسن، و الحسين، و أسامة بن زيد، و زيد بن حارثة، و أيمن بن أم أيمن رضي الله عنهم، رافعا صوته بالتهليل و التكبير...﴾

Abdullah ibn Ömər ؓ rəvayət etmişdir ki, Peyğəmbər bayram namazlarına gedərkən Fədl ibn Abbası, Abdullah ibn Abbası, Əlini, Cəfəri, Həsəni, Hüseyni, Üsamə ibn Zeydi, Zeyd ibn Harisəni və Əymən ibn Ummu Əyməni özü ilə aparar, yol boyu uca səslə təhlil və təkbir gətirərdi[2]..."[3]

---

[1] Müsnəd imam Əhməd, 1/283; Mişkatul-Məsabih, 6172.

[2] Yəni, "Allahu Əkbər, Allahu Əkbər lə ilahə illəllah, Allahu Əkbər, Allahu Əkbər və lillahil-həmd" deyərdi.

[3] Sünən əl-Beyhəqi, 3/279; Silsilətul Əhadis əs-Səhihə, 1/170.

# İmam Hüseynin رضي الله عنه şəninə deyilən təriflər

İslam alimlərinin əksəriyyəti öz kitablarında həzrəti Hüseyni tərifləmiş, onun necə böyük şəxsiyyət olduğunu göstərmiş və beləliklə də, ona olan sevgilərini açıq-aydın bəyan etmişlər.

İbn Sirin demişdir: "Yəhya[1] əleyhissəlamdan sonra göylər Hüseyndən رضي الله عنه başqa heç kəsin ölümünə ağlamamışdır."[2]

İbn Teymiyyə demişdir: "Həsən və Hüseyn Peyğəmbərin ﷺ əhli-beytinin ən hörmətlilərindəndir. Belə ki, Peyğəmbər ﷺ Əlini, Fatiməni, Həsəni və Hüseyni əbasının altına alıb demişdir:[3] "Allahım, bunlar mənim

---

[1] Yəhya əleyhissəlam yüz iyirimi dörd min peyğəmbərdən biridir. Atası Zəkəriyya və xalası oğlu İsa da peyğəmbər idi. Bu adı ona Allah Özü qoymuşdur. Quranda deyilir: **"Bir zaman *Zəkəriyya* Rəbbinə gizlicə dua edib demişdi: "Ey Rəbbim! Artıq sümüklərim zəifləmiş, başım da ağappaq ağarmışdır. Ey Rəbbim! Sənə etdiyim dua sayəsində *heç vaxt* bədbəxt olmamışam. Mən özümdən sonra gələn qohumlarımdan *dinə etinasız yanaşacaqlarından* qorxuram. Zövcəm də sonsuzdur. Mənə Öz tərəfindən elə bir övlad bəxş et ki, o həm mənə, həm də Yaqub nəslinə varis olsun. Ey Rəbbim! Elə et ki, o *Sənin* razılığını qazanmış olsun!" *Ona belə vəhy olundu:* "Ey Zəkəriyya! Səni Yəhya adlı bir oğulla müjdələyirik. Biz bu adı *ondan* öncə kimsəyə qoymamışıq!"** Məryəm surəsi, 3-7.

[2] Siyər Əlam ən-Nubəla, 3/312.

[3] Səhih Sünən ət-Tirmizi, 2979.

əhli-beytimdır! Onların günahlarını sil apar və onları tərtəmiz et!”[1]

İbn Teymiyyə həmçinin demişdir: “Aşura günü Allah Hüseynə ﵁ şəhid olmağı nəsib etməklə onun hörmətini ucaltmış, onu qətlə yetirənləri, habelə bu işdə onlara köməklik göstərənləri və bundan məmnun qalanları isə alçaltmışdır. Hüseyn (möminlərə) gözəl nümunə olmuşdur. O da, qardaşı Həsən də Cənnətdəki cavanların ən hörmətlisi olacaqlar. Həsən və Hüseyn İslam izzəti altında tərbiyə almış, üstəlik Uca Allah (Peyğəmbərin ﷺ) bu iki nəvəsini daha yüksəklərə ucaltmaq üçün onlara şəhid olmağı nəsib etmişdir. Hüseynin qətlə yetirilməsi, həqiqətən də, böyük bir müsibətdir...”[2]

Yenə o demişdir: “Hüseyn ibn Əli Aşura günü qətlə yetirilmişdir. Onu həddini aşmış zalım bir tayfa qətlə yetirmişdir. Allah Həmzəyə, Cəfərə, Əli ibn Əbu Talibə və digərilərinə şəhidlik nəsib edib onların hörmətini ucaltdığı kimi, Hüseynə də şəhid olmağı nəsib edib onun hörmətini ucaltmışdır. Uca Allah bu minvalla onun məqa-

---

[1] Minhac əs-Sünnə, 4/561.
[2] Məcmu Fətava, 4/511.

mını və dərəcəsini yüksəltmişdir. O da, qardaşı Həsən də Cənnətdəki cavanların ən hörmətlisi olacaqlar. Əlbəttə ki, yüksək məqama ancaq sınaqlardan keçə-keçə nail olmaq olar. Peyğəmbərdən ﷺ: "İnsanlardan ən çox kimlər sınağa çəkilir?"- deyə soruşduqda o demişdir: "İnsanlar arasında ən çox sınağa çəkilənlər peyğəmbərlər, sonra əməlisalehlər, sonra da (əməllərində onlara) oxşayanlardır. Hər kəs imanına görə sınağa çəkilər. Əgər adam dinində möhkəm olarsa, (əlbəttə ki,) başına gələn müsibətlər də çoxalar. Yox əgər zəif olarsa, onda imanına görə imtahana çəkilər. Möminin xətaları azaldıqca başına gələn müsibətlər də artar." Hədisi Tirmizi və başqaları rəvayət etmişlər..."[1]

İbn Abdul-Bər demişdir: "Hüseyn olduqca hörmətli, dindar, çoxlu oruc tutan, namaz qılan və həcc edən birisi idi."[2]

Zəhəbi demişdir: "Əbu Abdullah Hüseyn ibn Əbul Həsən Əli ibn Əbu Talib ibn Abdulmuttəlib ibn Haşim, ibn Abdumənaf ibn Qusey əl-Qurəşi əl-Haşimi şərəfli

---

[1] Məcmu Fətava, 4/201.
[2] əl-İstiyab, 1/377.

imam, kamil əxlaq sahibi, Peyğəmbərin ﷺ dünyadakı reyhan qoxulu sevimli nəvəsidir."[1]

İbn Kəsir demişdir: "Hüseyn Peyğəmbərdən ﷺ gözəl tərbiyə almış və hələ uşaq ikən Peyğəmbəri ﷺ itirmişdir. Peyğəmbər ﷺ ondan çox razı idi. Əbu Bəkr əs-Siddiq ona ehtiram göstərər və onu çox istəyərdi. Ömər və Osman da həmçinin. Hüseyn atasının yanında böyüyüb boya-başa çatmış, ondan bir çox hədislər rəvayət etmiş, onunla birlikdə bütün döyüşlərdə iştirak etmişdir..."[2]

---

[1] Siyər Əlam ən-Nubəla, 3/280.
[2] əl-Bidayə vən-Nihayə, 11/476.

# İmam Hüseynin ﷺ Cənnətlə müjdələnməsi

Həqiqətən, insanın dünyada ikən, qulağı eşidə- eşidə Allahın Peyğəmbəri ﷺ tərəfindən Cənnətlə müjdələnməsi böyük uğur və əvəzolunmaz bir nemətdir. Bu isə ancaq bəzilərinə nəsib olmuşdur. Peyğəmbərin ﷺ sevimli nəvəsi Hüseyn də belələrindən olmuşdur. Xoş onun halına! Bir dəfə Peyğəmbər ﷺ Hüseyni göstərib demişdir:

﴿من أحب أن ينظر إلى سيد شباب أهل الجنة فلينظر إلى هذا﴾

**"Kim Cənnətdəki cavanların ən hörmətlisini görmək istəyirsə, buna baxsın".**[1]

O həmçinin demişdir:

﴿الحسن و الحسين : سيدا شباب أهل الجنة و أبوهما خير منهما﴾

**"Həsən və Hüseyn Cənnətdəki cavanların ən hörmətlisi olacaqlar. Ataları Əli isə onlardan da xeyirlidir".**[2]

O həmçinin demişdir:

---

[1] Müsnəd Əbu Yələ, 1874; Səhih ibn Hibban, 237; Silsilətul-Əhadis əs-Səhihə, 4003.

[2] Müstədrək əl-Hakim, 3/167; Silsilətul-Əhadis əs-Səhihə, 796; Səhih əl-Cami, 47.

﴿الحسن و الحسين سيدا شباب أهل الجنة إلا ابني الخالة عيسى بن مريم و يحيى ابن زكريا و فاطمة سيدة نساء أهل الجنة إلا ما كان من مريم بنت عمران﴾

**"Həsən və Hüseyn Cənnətdəki cavanların ən hörmətlisi olacaqlar. Yalnız xala uşaqları – Məryəm oğlu İsa və Zəkəriyyə oğlu Yəhya istisnadır. Fatimə də Cənnətdəki qadınların ən hörmətlisi olacaq. Yalnız İmranın qızı Məryəm istisnadır".**[1]

İmam Hüseyn ﵁ Allah yolunda şəhid olmuşdur. Şəhidlər haqqında isə Uca Allah Qurani Kərimdə belə buyurur:

﴿ وَلَا تَحْسَبَنَّ ٱلَّذِينَ قُتِلُوا۟ فِى سَبِيلِ ٱللَّهِ أَمْوَٰتًۢا ۚ بَلْ أَحْيَآءٌ عِندَ رَبِّهِمْ يُرْزَقُونَ ﴿١٦٩﴾ فَرِحِينَ بِمَآ ءَاتَىٰهُمُ ٱللَّهُ مِن فَضْلِهِۦ وَيَسْتَبْشِرُونَ بِٱلَّذِينَ لَمْ يَلْحَقُوا۟ بِهِم مِّنْ خَلْفِهِمْ أَلَّا خَوْفٌ عَلَيْهِمْ وَلَا هُمْ يَحْزَنُونَ ﴿١٧٠﴾ ۞ يَسْتَبْشِرُونَ بِنِعْمَةٍ مِّنَ ٱللَّهِ وَفَضْلٍ وَأَنَّ ٱللَّهَ لَا يُضِيعُ أَجْرَ ٱلْمُؤْمِنِينَ ﴿١٧١﴾ ﴾

---

[1] Sünən ən-Nəsai, 8169; Müstədrək, 4778; Mocəm əl-Kəbir, 2610; Səhih ibn Hibban, 6959; Şərh əs-Sünnə, 14/138; Silsilətul Əhadis əs-Səhihə, 796; Səhih əl-Cami, 5492.

**“Allah yolunda öldürülənləri əsla ölmüş sanma. Əksinə, *onlar* diridirlər, özlərinin Rəbbi yanında onlara ruzi verilir. Onlar Allahın Öz lütfündən onlara verdiyi nemətlərə sevinir, arxalarınca gəlib hələ onlara çatmamış kəslərin heç bir qorxu ilə qarşılaşmayacaqlarına və onların kədərlənməyəcəklərinə fərəhlənirlər. Onlar Allahın nemətinə, lütfkarlığına, həm də Allahın möminlərin mükafatını heçə çıxarmayacağına sevinirlər”.**[1]

[1] “Ali-İmran” surəsi, 169-171.

# Kərbəla faciəsi

Hicrətin 60-cı ilində İraq əhli Hüseynin Yezid ibn Müaviyəyə beyət[1] etmədiyindən xəbər tutduqda Hüseynin yanına nümayəndələr və məktublar göndərib yalnız ona beyət edəcəklərini, Yezidi, onun atasını, Osmanı, Öməri və Əbu Bəkri yox, məhz Əlini və onun övladlarını istədiklərini bildirdilər. Bu ərəfədə Hüseynə beş yüzdən artıq məktub gəlmişdi. Belə olduqda həzrəti Hüseyn işləri yoluna qoymaq, beyətin həqiqət olub-olmadığını öyrənmək və bu haqda ona ətraflı məlumat göndərmək məqsədilə öz əmisi oğlu Muslim ibn Əqili onların yanına göndərdi. Muslim ibn Əqil dostları – Abdurrəhman ibn Abdullah əl-Ərhəbi, Qeys ibn Mishər əs-Səydavi və İmarə ibn Ubeyd əs-Səluli ilə birlikdə Kufəyə yollandı. Mədinəyə yetişdikdə Muslim özlərinə iki bələdçi tutdu. Yolda üzləşdikləri çətinliklərdən dolayı Muslim Hüseynə məktub yazıb geri qayıtmaq üçün izn istədi, lakin Hüseyn buna razılıq vermədi və israr edib ondan Kufəyə

[1] Beyət: birinin hakimiyyətini qəbul edərək ona tabe və sadiq olma.

getməyini tələb etdi.[1] Muslim Kufəyə gəlib çatdıqda Muxtar ibn Əbu Ubeydin evində qonaq qaldı. Lakin ibn Ziyadın Kufəyə gəldiyini eşitdikdə Hani ibn Urvanın evinə getdi. Nəhayət, Muslim camaatın Hüseynə beyət etmək istədiyini yəqin etdi. Beləliklə, on iki min nəfər Hüseynə sadiq qalacaqlarını bildirmək məqsədilə Hani ibn Urvanın evində Muslimə beyət etdilər. Beyətdən sonra Muslim ibn Əqil Hüseynə məktub göndərdi. Məktubda deyilirdi: "Bunlar yalan danışmırlar. Kufəlilərin hamısı sənin tərəfindədir. Məktubum sənə çatan kimi durma gəl!" Bu sözlərdən sonra Hüseyn kufəlilərin ona sadiq qalacaqlarını yəqin etdi və Kufə əhlinə belə bir məktub yazdı:

– Mən əhli-beytimdən etibar elədiyim əmim oğlunu sizin yanınıza göndərmişdim ki, sizin fikrinizi öyrənib mənə bir xəbər yollasın. O da sizin eyni fikirdə olduğunuzu mənə bildirdi. İnşallah mən də sizə qovuşacağam."[2]

Bu beyətdən xəbər tutan Kufə valisi Nomən ibn Bəşir əl-Ənsari vəziyyətin gərginləşəcəyini başa düşdü və camaatın qarşısına çıxıb belə bir xütbə verdi:

---

[1] Tarix əl-Umən vər-Rusul vəl-Muluk, 6/274.

[2] Əvvəlki mənbə.

– Allahdan qorxun, ey Allahın qulları! Fitnə-fəsad törətməkdən və firqələrə bölünməkdən çəkinin! Çünki belə hadisələrdə kişilər öldürülür, qan su yerinə axır və kimlərinsə varı-dövləti qəsb edilir. Mənə gəlincə, bilin ki, mənə qarşı vuruşmayanlarla mən vuruşmayacağam, mənə hücum etməyənə mən hücum etməyəcəyəm. Habelə sizinlə dilləşməyəcəyəm və sizə sataşmayacağam. Həmçinin heç kəsə nifrət bəsləməyəcəyəm, heç kəsin barəsində pis zənn etməyəcəyəm və heç kəsi ittiham etməyəcəyəm. Yox əgər mənə pis münasibət göstərsəniz, beyətdən boyun qaçırsanız və əmirə müxalif olsanız, bilin ki, Özündən başqa məbud olmayan Allaha and olsun ki, qılıncımı götürüb son nəfəsədək sizinlə vuruşacağam. Mən istəyirəm ki, aranızdan haqqı bilənlərin sayı batili dəstəkləyənlərdən daha çox olsun!"[1]

Əməvilərdən Abdullah ibn Muslim əl-Hədrəmi bu xütbəni eşidəndən sonra Nomən ibn Bəşirin yanına gəlib ona etirazını bildirdi və dedi: "Belə xütbə iradəsi zəif olan-

---

[1] Tarix əl-Uməm vər-Rusul vəl-Muluk, 6/277.

lara məxsusdur. Sən onlara öz gücünü göstərməlisən". Lakin Nomən ibn Bəşir ؓ onun bu təklifini rədd etdi.[1]

Nomənin bu mövqeyi Yezidin xoşuna gəlmədi və onu tutduğu vəzifədən azad etdi, yerinə də Ubeydullah ibn Ziyadı təyin etdi, üstəlik ona belə bir məktub yazdı: "Adamlarım mənə xəbər göndərmişlər ki, ibn Əqil Kufədə camaatı başına yığmış və müsəlmanları parçalamaq fikrinə düşmüşdür. Məktubum sənə çatan kimi Kufə əhlinin yanına get və onlardan ibn Əqili sənə təslim etməyi tələb et. Onun qarşısını almaq üçün əlindən gələni et...."[2] Məktub ibn Ziyada çatan kimi o, qardaşı Osmanı öz yerinə (Bəsrəyə) vali təyin etdi, sonra da özü ilə bir dəstə adam götürüb Kufəyə yollandı.[3] Ubeydullah ibn Ziyad Kufəyə gəldikdən sonra öz casuslarını hər tərəfə yollayıb Muslim ibn Əqil barəsində xəbər toplamağa başladı. O, Şam əhlindən olan Məqəl adlı birisinə üç min dirhəm verib dedi: "Al bu pulu, get Muslim ibn Əqili tap!" Məqəl pulu götürüb məscidə gedib namaz qılan bir nəfərin yanına gəldi. Adam namazını qılıb qurtardıqdan sonra Məqəl ona yaxın-

---

[1] Əvvəlki mənbə.
[2] Tarix əl-Uməm vər-Rusul vəl-Muluk, 6/278.
[3] Tarix əl-Uməm vər-Rusul vəl-Muluk, 6/279.

laşıb dedi: "Qurbanın olum, mən Şam əhlindənəm, filankəsin mövlasıyam. Allah mənə Rəsulullahın ﷺ əhli-beytini sevməyi, habelə onları sevənləri də sevməyi nəsib edib. Bu üç min dirhəmi əhli-beytdən olan birisinə hədiyyə etmək istəyirəm. Eşitmişəm ki, Hüseyn ibn Əlinin yaxınlarından biri bu məmləkətə təşrif buyurub. Bəlkə onun yerini mənə deyəsən, bu pulu ona verim, o da onu öz ehtiyaclarına sərf eləsin". Adam dedi: "Nə üçün sən bu məsciddə məhz mənə yaxınlaşdın?" Məqəl dedi: "Çünki sənin üzündən xeyirxahlıq yağır, sən əhli-beytə yaxın olan adama oxşayırsan". Adam dedi: "Vay sənin halına! Sən artıq özünü ifşa elədin. Mən səni tanıyıram, bilirəm nə üçün gəlmisən." Məqəl ona yalvarıb bu haqda heç yerdə danışmamağı xahiş etdi və oradan uzaqlaşdı. Nəhayət, o, Muslim ibn Əqili tapdı və onun məclisində iştirak etmək ona müyəssər oldu. O, axşama qədər məclisdə oturub oradakı söhbətləri dinlədi, sonra da Ubeydullah ibn Ziyadın yanına gedib onların məqsədlərini ona bildirdi. Beləliklə, ibn Ziyad Muslimin Hani ibn Urvanın evində qaldığını, öz tərəfdarları ilə məhz orada yığışdıqlarını öyrəndi.[1] Bun-

[1] Tarix əl-Uməm vər-Rusul vəl-Muluk, 6/284.

dan sonra ibn Ziyad Muhəmməd ibn Əşəsi və Əsma ibn Xaricəni yanına çağırıb onlardan Hani barədə xəbər aldı. Sonra onlardan Hanini onun yanına gətirməyi tələb etdi. Onlar da Haninin yanına gedib onu ibn Ziyadın yanına gətirdilər. İbn Ziyad onu görəndə dedi: "Sən Muslim ibn Əqili öz evinə gətirmisən, üstəlik camaatı da ora yığmısan ki, ona beyət etsinlər?!" Hani dedi: "Mən belə bir iş tutmamışam və bunlardan xəbərim yoxdur". Onda ibn Ziyad Məqəli çağırtdırdı. Məqəl onun yanına daxil olduqda ibn Ziyad Haniyə dedi: "Bunu tanıyırsan?" Hani bu adamın casus olduğunu anladıqda ibn Ziyada dedi: "Düz deyirsiniz, ya əmir. Amma mən Muslimi evimə dəvət etməmişdim, onun hansı yolla mənim evimə gəldiyindən də xəbərim yoxdur. İzn ver gedim onu evimdən çıxardım!" İbn Ziyad dedi: "Xeyr, sən onu mənim yanıma gətirməlisən." Hani dedi: "Qonağımı sənə təslim etmək mənə yaraşarmı? Vallahi, mən bunu etməyəcəyəm". İbn Ziyad əlindəki ağacla Haninin üzünə vurdu və onun üz-gözünü al-qana boyadı, sonra da onu zindana atdırdı.[1]

---

[1] Tarix əl-Uməm vər-Rusul vəl-Muluk, 6/291.

Muslim ibn Əqil Haninin ələ keçdiyindən xəbər tutduqda beyət edən adamların hamısını bir yerə topladı. Bu minvalla kufəlilərdən dörd min nəfər onun ətrafına toplaşdı. Muslim dörd minlik ordu ilə ibn Ziyadın qəsrinə yaxınlaşdı və onu mühasirəyə aldı. Bundan xəbər tutan Ubeydullah ibn Ziyad kufəlilərin ziyalılarını onların qarşısına çıxartdı. Ziyalılar onları Şam ordusu ilə qorxutmağa başladılar, üstəlik şirnikləndirdilər də. Hətta beyət edənlərin qadınları da məsələyə müdaxilə edib Muslimdən uzaq durmağı onlara nəsihət edirdilər. Bu təhdidlərdən və vədlərdən sonra camaat Muslimin ətrafından dağılışıb getməyə başladı və axırda onun yanında cəmi üç yüz nəfər adam qaldı. Günbatana yaxın isə artıq Muslim ibn Əqil tək qalmışdı.[1] Bundan sonra Muslim ibn Əqil bir qadının evində sığınacaq tapdı. Qadının oğlu Muhəmməd ibn Əşəsin mövlası idi. Odur ki, dərhal gedib onun yerini Muhəmmədə xəbər verdi. Muhəmməd də öz növbəsində bunu ibn Ziyada bildirdi. İbn Ziyad da öz adamlarını onun dalınca göndərdi. İbn Ziyadın adamları Muslimi tutub aparanda o ağlamağa başladı. İbn

---

[1] Tarix əl-Uməm vər-Rusul vəl-Muluk, 6/293.

Ziyadın adamları ona: "Sənin kimi adam gərək ağlamasın"- deyəndə, Muslim dedi: "Vallahi, mən özümə görə ağlamıram. Mən Kufəyə üz tutmuş Hüseynə və onun əhli-beytinə görə ağlayıram". Bunu deyəndən sonra Muslim Muhəmməd ibn Əşəsdən Hüseynə məktub göndərmək üçün izn istədi. Muhəmməd də İyas ibn Abbası yanına çağırıb Muslimin məktubunu Hüseynə çatdırmağı ona tapşırdı. Məktubda deyilirdi:

– (Ya Hüseyn!) Ailənlə birgə geri qayıt! Qoy kufəlilər səni aldatmasın! Çünki onlar sənə də, mənə də yalan söyləmişlər. Yalançının isə qəti qərarı ola bilməz!"[1]

Bundan sonra Muslimi ibn Ziyadın yanına gətirdilər və ibn Ziyad ona: "Mən səni edam edəcəyəm"- dedi. Muslim dedi: "Elə isə izn ver yaxınlarıma vəsiyyət edim." İbn Ziyad ona izn verdikdən sonra o, ibn Ziyadın yanında oturan Ömər ibn Səd ibn Əbu Vəqqası bir kənara çəkib dedi: "Ey Ömər! Kufəlilərdən birisinə mənim yeddi yüz dirhəm borcum var, bunu ödəyə bilərsənsə, ödə.[2] Mən

---

[1] Siyər Əlam ən-Nubələ, 3/308; əl-Bidayə vən-Nihayə, 11/488; Tarix əl-Umənm vər-Rusul vəl-Muluk, 6/297.

[2] Allah Muslimə rəhmət eləsin! O bilirdi ki, borclu olduğu halda ölsə, Allah onu bağışlamayacaq. Çünki Peyğəmbər ﷺ demişdir: "Şəhidin borcundan başqa bütün günahları bağışlanır". Səhih Muslim, 49991.

öləndən sonra meyidimi Hüseynə göndər..." Ömər onun dediklərini ibn Ziyada bildirdi və ibn Ziyad buna etiraz etmədi. Sonra Muslimi edam etmək üçün onu qəsrin kəlləsinə qaldırdılar. Qalxa-qalxa o, "Allahu Əkbər",[1] "Lə ilahə illəllah",[2] "Sübhanəllah",[3] "Əstəğfirullah"[4] deyir və belə dua edirdi: "Allahım, bizimlə bizi aldadan və bizi qoyub qaçan tayfa arasında Sən Özün hökm ver!" Nəhayət, qəsrin kəlləsinə çatdıqda Bəkir ibn Həmran adlı birisi onun boynunu vurdu, başını bədənindən ayırdı. Beləliklə də, Ərafa günü Muslim ibn Əqili qətlə yetirdilər.[5]

Buna rəğmən sərtürəkli, əzazil, zalım ibn Ziyadın ürəyi soyumadı, üstəlik Hani ibn Urvanın qətlinə də hökm verdi. Hanini bazara gətirib qəbiləsinin gözü qabağında edam etdilər. Sonra hər ikisinin cəsədini bazarın girəcəyinə, insanların gözü önünə asdılar. Bundan sonra Muslimə kömək edən daha iki nəfəri də edam edib həmin yerdən asdılar.[6]

---

[1] Allah Böyükdür.
[2] Allahdan başqa ibadətə layiq olan bir məbud yoxdur.
[3] Allah pak və müqədəsdir.
[4] Allahım məni bağışla.
[5] əl-Bidayə vən-Nihayə, 11/490.
[6] Tarix əl-Umam vər-Rusul vəl-Muluk, 6/302.

Hicrətin 60-cı ilində tərviyə günü (zilhiccənin 8-i) Hüseyn öz yaxınları və altmışa yaxın kufəli ilə Məkkədən yola düşdü. Onun bu fikrindən xəbər tutan Amr ibn Səid ibn As vəziyyətin gərginləşəcəyini başa düşüb öz adamlarını onun yanına göndərdi. Onlar Hüseyni bu fikirdən daşınmağa çağırsalar da, Hüseyn onların dediklərini qəbul etmədi. Nəhayət, Hüseyn əhli-beyti ilə birgə İraqa yollandı. Hüseyn Məkkədən çıxdıqdan sonra Mərvan ibn əl-Həkəm ibn Ziyada məktub yazdı. Məktubda deyilirdi:

– Hüseyn ibn Əli sənin yanına gəlir. Biləsən, o, Fatimənin oğlu Hüseyndir, Fatimə də Rəsulullahın ﷺ qızıdır. Vallahi ki, Hüseyn bizim üçün hamıdan əzizdir. Bax, nəfsinə uyub elə iş tutmayasan ki, camaat sənə tənə vursun və gələcək nəsillər bundan danışsın. Vəssəlamu aleykum![1]

Amr ibn Səid ibn As da öz məktubunda ibn Ziyada belə nəsihət etmişdi:

– Hüseyn sənin yanına gəlir. Nəbadə onunla kobud rəftar edəsən.[2]

---

[1] Təbəqat, 5/167; Təhzib əl-Kəmal, 6/422.
[2] Təhzib əl-Kəmal, 6/422.

Hüseyn yolda Zatu İrq deyilən bir yerdə Fərəzdəq adlı məşhur şairə rast gəldi. Hüseyn ondan kufəlilərin barəsində soruşdu. Fərəzdəq ona kufəlilərin sözlərinin üstündə duran adamlar olmadıqlarını bildirdi. Hüseyn ona kufəlilərin yazdıqları məktubları göstərəndə Fərəzdəq dedi: "Onlar səni qoyub qaçacaqlar. Getmə ora! (Biləsən,) sən qəlbləri (zahirən) səninlə olan, əlləri isə sənin əleyhinə qalxacaq bir tayfanın yanına gedirsən."[1]

Hüseynin Kufəyə gəlişindən xəbər tutmuş ibn Ziyad onun qarşısını almaq üçün tədbir görməyə başladı. Əvvəlcə öz tərəfdarlarını bir yerə yığdı. Sonra onlara Hüseyni dəstəkləyən hər kəsi tutub onun yanına gətirməyi əmr etdi. Belə etməklə ibn Ziyad Hüseynin kufəlilərlə bütün əlaqələrini kəsmək niyyətində idi.[2] Biçarə Hüseynin bütün bunlardan xəbəri yox idi. Hüseyn Haciz deyilən yerə gəlib çatdıqda kufəlilərə bir məktub yazdı və onu Qeys ibn Səydavi ilə Kufəyə yolladı. Lakin Qeys Qadisiyyəyə gəlib çatdıqda Huseyn ibn Təmim öz adamları ilə birgə onun qabağını kəsdilər və onu tutub ibn

---

[1] əl-Bidayə vən-Nihayə, 11/510.
[2] Ənsab əl-Əşraf, 3/573; əl-Bidayə vən-Nihayə, 11/512.

Ziyadın yanına göndərdilər. O da dərhal onu edam etdirdi.[1] Sonra Hüseyn başqa bir adamını Muslimin yanına göndərdi. İbn Ziyad onu da tutub öldürdü. Bədəvilər Hüseynə xəbər verdilər ki, ibn Ziyadın əsgərləri heç kəsi Kufəyə buraxmır və heç kəsə də Kufədən çıxmağa izn vermirlər. Nəhayət, o, Muslim ibn Əqilin və Hani ibn Urvanın öldürüldüyündən, üstəlik kufəlilərin ona xəyanət etdiklərindən xəbər tutduqda ətrafındakılara dedi: "Kim çıxıb getmək istəyirsə, qoy getsin". Kufəlilər o saat dağılışıb getdilər, yanında qalanlar isə ona dedilər: "Səni and veririk Allaha, qayıt geri. Kufədə heç kəs sənə kömək etməyəcək, heç kəs səni dəstəkləməyəcək, əksinə, qorxuruq onlar sənin əleyhinə çıxsınlar."[2]

Hüseyn hələ yola düşmək istəyərkən bəzi səhabələr və yaxınları ona Məkkədən çıxmamağı nəsihət etmişdilər:

İbn Ömər Hüseynin Məkkədən çıxdığını eşitdikdə ona yetişib dedi: "Hara gedirsən?" Hüseyn: "İraqa"- deyə cavab verdi. İbn Ömər dedi: "Getmə onların yanına!" Hüseyn: "Əlimdə onların beyət etdiklərinə dair məktubları var"- dedi. İbn Ömər dedi: "Allah Öz Peyğəmbərinə ﷺ

---

[1] Təbəqat, 5/376; əl-Bidayə vən-Nihayə, 11/512.
[2] Tarix əl-Uməm vər-Rusul vəl-Muluk, 6/325.

axirət və dünya arasında seçim etməyi təklif etdi, o da axirəti seçdi və dünyadan vaz keçdi. Sən də onun bir ciyarparəsisən. Vallahi ki, sizlərdən heç kəs heç vaxt dünyanı qazana bilməz. Allah sizə bundan daha xeyirlisini nəsib etmişdir. Geri dönün!" Hüseyn qayıtmaq fikri olmadığını bildirəndə ibn Ömər onu qucaqlayıb bağrına basdı və dedi: "Allah köməyin olsun, ey fədai!"[1]

İbn Ömər həmçinin demişdir: "Hüseyn bizi yendi. Axı, o, atasına və qardaşına olan xəyanəti görmüşdü. Gərək heç yerə getməyəydi."[2]

İbn Abbas Hüseynin Məkkədən çıxmaq istədiyini bildikdə onun yanına gəlib dedi: "Ey əmim oğlu! Camaat sənin İraqa getmək istədiyini danışır. De görüm, sən nə etmək istəyirsən?" Hüseyn dedi: "Yaxın günlərdə biləcəksən, inşallah". İbn Abbas ona dedi: "Əgər dediyin adamlar əmirlərini yıxıb, düşmənləri qovub şəhərə nəzarət edirlərsə, onların yanına gedə bilərsən. Yox əgər əmirləri sağdırsa və şəhərə məhz onun adamları nəzarət edirlərsə, bil ki, onlar səni fitnəyə çağırırlar. Qorxuram,

---

[1] Siyər Əlam ən-Nubələ, 3/292; Sünən əl-Kubra, 13352.
[2] Siyər Əlam ən-Nubələ, 3/297.

onların hamısı sənin əleyhinə çıxsın, səni çağıran adamlar ən qatı düşmənlərinə çevrilsin". Hüseyn dedi: "Mən istixarə[1] edəcəyəm! Baxaq görək nə olur." İbn Abbas onun qəti qərara gəldiyini hiss etdi deyə, ertəsi gün yenə onun yanına gəlib dedi: "Ey əmim oğlu, mən sənə səbirli olmağı tövsiyə edirəm. Qorxuram, bu yolda həlak olasan. İraq əhli xain adamlardır. (Ehtiyatlı ol,) səni aldatmasınlar. Onlar düşməni oradan qovub çıxaranadək burada gözlə, onların yanına getmə. Gedirsənsə, Yəmənə get. Orada sənin atanın tərəfdarları var, get onların yanına. Sonra kufəlilərə məktub yaz, adamlarını onların yanına göndər" Hüseyn dedi: "Ey Əmim oğlu! Mən bilirəm ki, sən mənə səmimi-qəlbdən nəsihət edirsən. Lakin mən artıq getmək qərarına gəlmişəm". İbn Abbas dedi: "Elə isə qadınları və uşaqları özünlə aparma. Mən istəmirəm ki, Osman zövcələrinin və övladlarının gözü önündə qətlə yetirildiyi kimi, sən də öz zövcələrinin və övladlarının gözü önündə qətlə yetiriləsən. Özündən başqa məbud olmayan Allaha and olsun ki, əgər camaat

[1] Görüləcək bir işin uğurlu olub-olmayacağını əvvəlcədən bilmək üçün iki rükət namaz qılıb dua etməklə Allahdan buna dair bir əlamət göstərməsini diləmək.

bizə eyib tutmuş olmasaydı sənin saçından tutub səni heç yerə buraxmazdım."[1] İbn Abbasın dediklərindən belə nəticə çıxır ki, o, şəriət baxımından Hüseynin Yezidə qarşı çıxmasının əleyhinə olmamışdır.[2]

Abdullah ibn Zubeyr ona demişdi: "Hara gedirsən? Sənin atanı öldürən və qardaşına tənə vuran bir tayfanın yanınamı gedirsən?!"[3]

Əbu Səid əl-Xudri demişdir: "Hüseyn bizi yendi. Halbuki mən ona demişdim: "Allahdan qorx, evində otur və təyin olunmuş əmirə qarşı çıxma".[4]

Abdullah ibn Amr ibn əl-As demişdir: "Hüseyn çox tələsdi. Vallahi ki, onun belə bir iş tutacağından xəbərim olsaydı, bunun qarşısını almaq üçün əlimdən gələni edərdim."[5]

Muhəmməd ibn əl-Hənəfiyyə[6] demişdir: "Qardaşım, sən mənim üçün hamıdan əziz, hamıdan sevimli və

---

[1] əl-Kamil fit-Tarix, 2/546; Mocəm əl-Kəbir, 2790.
[2] əl-Füqəha vəl-Xüləfa, səh: 25.
[3] Müsənnəf ibn Əbu Şeybə, 37364.
[4] Təbəqat, 1/445.
[5] Ərşif, 87/119.
[6] Muhəmməd Həsən və Hüseynin atabir qardaşı, Əli ibn Əbu Talibin Xovlə bint Cəfər əl-Hənəfiyyədən olan oğludur.

hamıdan yaxınsan. Sənə nəsihət etməyib, kimə nəsihət edəcəyəm?! Bir müddət Yezidə beyət etmə, kənara çəkil. Sonra öz adamlarını müsəlmanların yanına göndər və onları sənə beyət etməyə çağır. Əgər sənə beyət etsələr, Allaha həmd-səna edərik, yox əgər başqasına beyət edərlərsə, bundan sənin nə dininə, nə ağlına, nə əxlaqına, nə də hörmətinə xələl dəyər. Qorxuram, sən elə bir camaatın yanına gedəsən ki, onların bir qismi səni dəstəkləsin digərləri isə sənə qarşı çıxsın və səni qətlə yetirsin...”[1]

Abdullah ibn Cəfər ibn Əbu Talib öz oğlanları Məhəmməd və Aunla Hüseynə məktub göndərmişdi. Məktubda deyilirdi: “Səni and verirəm Allaha heç yerə getmə. Qorxuram, səni ailənlə birlikdə qətlə yetirsinlər.”[2]

Əbu Bəkr ibn Abdurrəhman ibn əl-Haris demişdir: “Mən iraqlıların sənin atana və qardaşına nələr etdiyini görmüşəm. İndi isə sən onların, o dünyasevərlərin yanına getmək istəyirsən?! Sənə kömək edəcəklərinə söz verənlər sənə qarşı vuruşacaq, sənə xəyanət edəcəklər. Yaxşı-yaxşı fikirləş...”[3]

---

[1] Ənsab əl-Əşraf, 4/15.
[2] Tarix əl-Umən vər-Rusul vəl-Muluk, 6/311.
[3] əl-Bidayə vən-Nihayə, 11/504.

Abdullah ibn Muti Hüseynə demişdir: "Atam-anam sənə qurban, getmə İraqa! Onlar səni öldürsələr, bizləri kölə edəcəklər."[1]

Lakin imam Hüseyn düşünürdü ki, əməvilər Allahın hökmü ilə hökm etməmiş, Peyğəmbərə ﷺ müxalif olmuş və raşidi xəlifələrin yolundan kənara çıxmış, şura ilə deyil, varisliklə hakimiyyətə gəlmişlər. Düşünürdü ki, bu işi həll etmək onun borcudur və o, bu məsələdə susmamalı, haqqı deməlidir. Düşünürdü ki, kufəliləri başına yığsa haqq-ədaləti bərqərar edəcək. Bütün bunlardan belə nəticə çıxır ki, imam Hüseyn hakimiyyətə qarşı çıxmamış, əksinə, buraxılan səhvləri düzəltmək istəmişdir. Allah da düz yolda olanları və düzgünlüyə can atanları ucaltmış, onları dillər əzbəri etmiş və onlara Cənnəti nəsib etmişdir, zalımları isə alçaldıb müsibətlərə düçar etmişdir.

Hüseyn öz yaxınları ilə birlikdə gəlib Şərafa çatdıqda Hur ibn Yezidin başçılıq etdiyi min atlı ilə qarşılaşdı. Hüseyn Hurdan geri qayıtmağı xahiş etdi. Lakin Hur əmrə tabe olduğunu bildirdi və onlara Kufəyə getməyi buyurdu. Hüseyn bundan imtina edib Şama üz tutdu.

---

[1] Müxtəsər Tarix Dəməşq, 7/139.

Hur onları müşayiət etdi və yolda Hüseynə döyüşməməyi nəsihət etdi.[1]

Onlar Kərbəlaya yetişdikdə Ömər ibn Sədin, Şimr ibn zil-Cövşənin və Huseyn ibn Təmimin başçılıq etdiyi dörd minlik ordu ilə qarşılaşdılar. Əslində, bu ordu deyləmlərə[2] qarşı təchiz edilmişdi, lakin sonradan ibn Ziyad Ömərə xəbər göndərib ordunu Hüseynə qarşı çevirməyi əmr etmişdi. Əvvəlcə Ömər bundan imtina etmiş, lakin ibn Ziyad ona hədə-qorxu gəldikdən, evini yandıracağını, özünü də edam etdirəcəyini söylədikdən sonra Ömər əmrə tabe olub onun buyruğunu yerinə yetirmişdi.[3] Nəhayət, Hüseyn Taf deyilən yerə çatdıqda Ömərin ordusu onları mühasirəyə aldı. Hüseyn ordunun onlara xətər toxunduracağını hiss etdikdə onlara üç şeydən birini seçməyi təklif etdi; ya onu Yezidin yanına aparsınlar, ya Məkkəyə qayıtmağa imkan versinlər, ya da müsəlmanların qaldığı istehkamlardan birində qərar tutsun.[4] İbn Ziyad az qalmışdı ki, Hüseynin bu təklifini qəbul edib onu

[1] Tarix əl-Umən vər-Rusul vəl-Muluk, 6/326.
[2] Deyləm: Fars imperiyasının tərkibində yerləşən şəhərlərdən biridir.
[3] Tarix əl-Umən vər-Rusul vəl-Muluk, 6/335.
[4] Tarix əl-Umən vər-Rusul vəl-Muluk, 3/365.

Yezidin yanına göndərsin, lakin Şimr ibn zil-Cövşən buna etirazını bildirib dedi: “Xeyr! Gərək o, sənin hökmünü qəbul etsin.” Bu xəbər Hüseynə çatdıqda o dedi: “Xeyr, vallahi, mən heç vaxt ibn Ziyadın hakimiyyətini qəbul edən deyiləm”. Sonra o, yanındakılara: “Siz azadsınız, gedə bilərsiniz”- dedi, onlar isə ona Allah yolunda şəhid olanadək vuruşacaqlarını bildirdilər. [1]

(İbn Ziyadın sərkərdələrindən olan) Hur ibn Yezid Şimrin etirazından xəbər tutduqda dedi: “Axı, niyə bunların təklifini qəbul etmirsiniz?! Vallahi ki, əgər türklər və ya deyləmlər sizə belə bir təklif etsəydilər, çarəsiz qalıb onu qəbul edərdiniz.” Onlar (Hurrun sözlərinə) məhəl qoymayıb Hüseyndən ibn Ziyadın hakimiyyətinə boyun əyməyi tələb etdilər. Onda Hur atını sürüb Hüseynin və onun tərəfdarlarının yanına gəldi. Hamı onun onlarla vuruşacağını güman edirdi. Lakin Hur onlara yaxınlaşdıqda qalxanını tərsinə çevirib onlara salam verdi və əks hucuma keçib ibn Ziyadın adamları ilə döyüşməyə baş-

[1] Tarix əl-Umən vər-Rusul vəl-Muluk, 3/342.

ladı. Hur onlardan iki nəfəri öldürdükdən sonra özü də şəhid oldu. Allah ona rəhmət eləsin![1]

Bu döyüşdə Hüseynin tərəfdarlarının hamısı onu müdafiə edərək şəhid oldu. Allah onların hamısından razı olsun! Axırda imam Hüseyn tək qaldı. (Bu yaşında) o çox şücaətlə vuruşurdu. Lakin çoxluq ona qalib gəldi. Kufəlilərdən hər kəs istəyirdi ki, onu başqa birisi qətlə yetirsin, heç kəs cürət edib Peyğəmbərin ﷺ nəvəsinə yaxınlaşmırdı. Nəhayət, Şimr bağırdı: "Vay sizin halınıza! Nə gözləyirsiniz?!" Onda Sinan ibn Ənəs ən-Nəxəi əlindəki nizəni əvvəlcə Hüseynin boğazına, sonra da köksünə sancdı. Hüseyn yerə yıxıldıqdan sonra onlar onu əhatəyə alıb qanına qəltan etdilər və başını bədənindən ayırdılar. Sonra onun başını ibn Ziyada göndərdilər. Allah onların hamısının cəzasını versin![2]

Onları hicrətin 61-ci ilində, aşura günü (Məhərrəm ayının 10-u) cümə günü qətlə yetirdilər. Hüseyn əleyhissəlam əlli altı yaşında şəhid oldu. Hüseynlə birgə bu döyüşdə yetmiş iki nəfər də şəhid oldu. Ömərin dəstəsin-

---

[1] Tarix əl-Uməm vər-Rusul vəl-Muluk, 3/299; əl-Bidayə vən-Nihayə, 8/170.

[2] Siyər Əlam ən-Nubələ, 3/300.

dən isə səksən səkkiz nəfər öldürüldü. Hüseyn şəhid olduqdan sonra Ömər ibn Səd onların qadınlarına və uşaqlarına toxunmamağı, onlarla gözəl rəftar etməyi buyurdu və onları ibn Ziyadın yanına göndərdi.[1] İbn Ziyad da qadınlara və uşaqlara yemək və geyim, üstəlik qalmağa yer verməyi əmr etdi.

Əlbəttə ki, bu, çox kədərli və üzücü bir hadisədir. Heç şübhəsiz ki, Hüseyni və onun tərəfdarlarını qətlə yetirənlərin hamısı ziyana uğramış və Allahın qəzəbinə düçar olmuşlar. Hüseyn və onunla birlikdə vuruşanlar isə şəhid olmuş, Allahın rəhmətinə qovuşmuş və Onun razılığını qazanmışlar.[2]

Allah onlara rəhmət eləsin!

---

[1] Tarix əl-Umən vər-Rusul vəl-Muluk, 6/385.
[2] Rəyu şeyxul-İslam, 2/228.

## İmam Hüseynin ﷠ duası

İmam Hüseyn Kərbəlada döyüşdən qabaq belə bir dua etmişdir: "Allahım, hər bir sıxıntıda arxayın olduğum, hər bir çətinlikdə ümid bəslədiyim və başıma gələn hər bir hadisədə kömək umacağım tək varlıq Sənsən! Qəlbləri qıran, hiylələri gerçəyə çevirən, dostu məyus edən və düşməni sevindirən nə cür sıxıntı olursa olsun, ümidimi ancaq Sənə bağlayıb bu sıxıntıdan dolayı yalnız Sənə üz tutur və onu yalnız Sənə açıb söyləyirəm ki, mənə kömək edəsən və mənim sıxıntımı aradan qaldırasan. Hər bir nemətin Sahibi, hər bir yaxşılığın əvəzini verən və hər bir işdə ümid bəslənilən yalnız Sənsən!"[1]

Hüseyn belə dua etməklə bizə ancaq Allaha üz tutmağı, Ona inanmağı, Ona təvəkkül etməyi və Ona ümid bəsləməyi öyrədir. Həqiqətən, belə məqamlarda duadan daha gözəl şey ola bilməz. Bu haqda Peyğəmbər ﷺ demişdir:

﴿ ليس شيء أكرم على الله من الدعاء ﴾

**"Allah yanında duadan daha gözəl bir şey yoxdur".**[2]

---

[1] Tarix əl-Umam vər-Rusul vəl-Muluk, 6/350; əl-Bidayə vən-Nihayə, 8/169.
[2] Səhih Ədəb əl-Mufrəd, 712.

Biz də gərək Peyğəmbərin ﷺ və onun Hüseyn kimi ardıcıllarının etdiyi kimi ancaq Allaha dua edək. Bu xüsusda şairimiz Nizami Gəncəvi gözəl sözlər söyləmişdir:

Könüldən gəlməyən dua, yaxşı bil,
Mənasız bir işdir, ibadət deyil.
Sidq ilə ibadət eləsə insan,
Naümid qayıtmaz haqq dərgahından. [1]

❁❁❁

Sən dedin: dar gündə köməkçi Mənəm,
Hər dilək istəsən, qəbul edənəm,
Sənsən acizlərə hər zaman pənah,
Mən də bir acizəm, kömək ol, Allah.[2]

❁❁❁

Bəlalar gizlidir, bikəsəm, Allah!
Varmı Səndən özgə mənə bir pənah?!
Bir Sənsən dünyada əlimdən tutan,
Nə versən qailəm, Böyük Yaradan![3]

❁❁❁

Bəndəyə əl tutan Sənsən, İlahi,
Yoxdur Səndən başqa onun pənahı.

---

[1] "İskəndərnamə", səh: 431.
[2] "İskəndərnamə", səh: 19.
[3] «Leyli və Məcnun», səh: 30.

Olmuş – olacağı Sənsən Yaradan,
Sənin kəráminə möhtacdır insan.
Lütf elə, əlini mənə də uzat,
Mənə öz qovğamdan Özün ver nicat.
Sənsən, Pərvərdigar, hər bir muradım,
Səndən hasil olar hər bir muradım.
Mərhəmət görərsə Səndən bir insan,
Nə göydən qorxar o, nə də ulduzdan.[1]

❁❁❁

Hər zaman köməyə çağırram Səni,
Qapından ümidsiz qaytarma məni.
Ey Tanrı, dərdimə Sən eylə əlac,
Bu möhtac kəslərə olmayım möhtac.[2]

❁❁❁

İlahi, dar gündə Sən ol həmdəmim,
İstədiyin yerə çatsın qədəmim.
Aç mənim üzümə nur xəzinəni.
Zülmətlər içindən xilas et məni![3]

---

[1] "İskəndərnamə", səh: 411.
[2] "İskəndərnamə", səh: 17.
[3] «Leyli və Məcnun», səh: 30.

# Əhli-beytdən imam Hüseynlə ﵁ birgə şəhid olanlar[1]

– Əli ibn Talibin ﵁ övladlarından: Hüseyn, Əbu Bəkr,[2] Muhəmməd, Osman,[3] Cəfər və Abbas;

– Həsənin ﵁ övladlarından: Əbu Bəkr, Qasım və Abdullah;

– Hüseynin ﵁ övladlarından: böyük oğlu Əli və Abdullah;

– Əqilin övladlarından: Abdullah, Abdurrəhman və Cəfər;

– Abdullah ibn Cəfərin ﵄ övladlarından: Aun və Muhəmməd;

Şəhidlərin sırasına Əqilin oğlu Muslimi və Muslimin oğlu Abdullahı da əlavə etmək lazımdır.

---

[1] Tarix əl-Uməm vər-Rusul vəl-Muluk, 3/343; Tarix Xəlifətu ibn Xayyat, 234; Rəyu şeyxul-İslam, 2/228.

[2] əl-İrşad, səh: 248; İlamu əl-Vəriy, səh: 203; Kəşf əl-Ğümmə, 1/440; Müntəha əl-Əmal, 1/528; Həyatu əl-İmam əl-Huseyn, 1/270; Yovmi-Taf, səh: 171, 172, 173, 174; Məzalim Əhli-Beyt, səh: 258; Mənaqib Ali Əbu Talib, 3/305.

[3] əl-İrşad, səh: 186; İlamu əl-Vəriy, səh: 203; Kəşf əl-Ğümmə, 1/440; Müntəha əl-Əmal, 1/526 527; Həyatu əl-İmam əl-Huseyn, 1/262; Yovmi-Taf, səh: 175-179; Məzalim Əhli-Beyt, səh: 257; Mənaqib Ali Əbu Talib, 3/304.

# İmam Hüseynin ﷺ yaxınlarının Mədinəyə göndərilməsi

Baş vermiş bu müsibətdən sonra Yezid ibn Müaviyə Hüseynin yaxınlarına istədikləri hər bir şeyi verib Mədinəyə göndərdi. Yezid Nomən ibn Bəşirə onların bütün ehtiyaclarını ödəməyi tapşırdı. Əhli-beyt yola düşmək istədiyi vaxt Yezid Hüseynin oğlu Əlini (Zeynalabidini) yanına çağırıb dedi: "İstəyirsənsə, bizim yanımızda qal, sənin haqqını layiqincə ödəyək?" Lakin Əli ibn Hüseyn Mədinəyə qayıtmağı üstün tutdu. Əli ibn Hüseyn çıxıb getmək istədikdə Yezid ona üzrxahlıq edib dedi: "Allah ibn Mərcanəyə[1] lənət eləsin! Vallahi, Hüseyn məndən nə istəsəydi, ona istədiyini verərdim, həmçinin onu müdafiə etmək üçün də əlimdən gələni edərdim. Lakin bu, Allahın qəzavü-qədəridir. Sənin də nəyə ehtiyacın olsa, mənə yaz!"

Bundan sonra Yezid otuz nəfər atlı təyin edib Hüseynin ailəsini Mədinəyə qədər müşayiət etməyi onlara tapşırdı. Beləliklə də, onları sağ-salamat Mədinəyə çatdırdılar.[2]

---

[1] Yəni Ubeydullah ibn Ziyada.

[2] Tarix əl-Uməm vər-Rusul vəl-Muluk, 6/393; Minhac əs-Sünnə, 4/559.

İbn Kəsir yazır ki: "Yezid Hüseynin yaxınlarına istədikləri hər bir şeyi vermiş, əhli-beytə böyük ehtiram göstərərək onları Mədinəyə yollamış, üstəlik onun öz ailəsi Hüseynə və Kərbəlada onunla birgə şəhid olanlara ağlamışlar".[1]

[1] əl-Bidayə vən-Nihayə, 8/232.

## O dövrdəki bəzi əmirlərin mövqeyi

– Müaviyənin dövründə Mədinənin valisi olmuş Vəlid ibn Utbə ibn Əbu Süfyanın mövqeyi:

Vəlid ibn Utbə Hüseynə qarşı sərt və kobud olmayacağını, ona qarşı güc tətbiq etməyəcəyini və əllərini onun qanına bulamayacağını bildirib demişdir: "Vallahi, mən istəmərəm ki, dünya dolusu var-dövlətə sahib olam, əllərim də Hüseynin qanına bulaşmış olsun. Sübhanəllah! Hüseyni qətlə yetirməkmi olar?! Xeyr, mən bu işə qol qoymayacağam. Vallahi, Hüseynə əl qaldıranların günahları Qiyamət günü Allahın hüzurunda olan əməl tərəzisinə qoyulacaqdır.[1]

Budur, Mədinənin əmiri Vəlid ibn Utbənin ürəkaçan mövqeyi. Hərçənd o, yəqin bilirdi ki, bu mövqeyinə görə Yezid onu tutduğu vəzifədən kənarlaşdıra bilər, hətta atdığı bu addım onun edam edilməsi ilə də nəticələnə bilər, lakin bununla belə malını-mülkünü və tutduğu vəzifəni itirməyi, Hüseynə qarşı çıxmaqdan üstün tutmuşdur.[2]

– Müaviyənin dövründə Kufənin əmiri olmuş Noman ibn Bəşir əl-Ənsarinin mövqeyi:

---

[1] Tarix Xəlifətu ibn Xayyat, 234; Rəyu şeyxul-İslam, 6/259.
[2] əl-Əməviyyin beynəş-Şərq vəl-Ğərb, 1/239.

Nomən ibn Bəşir Hüseynin Kufəyə yollandığını, Muslim ibn Əqilin də artıq kufəlilərdən beyət aldığını bildikdə camaatı bir araya yığıb onlara gözəl bir xütbə vermiş, onları fitnə-fəsad törətməkdən və firqələrə bölünməkdən çəkindirmiş, onlarla olduqca yumşaq rəftar edəcəyini, heç kəsin barəsində pis zənn etməyəcəyini və heç kəsi ittiham etməyəcəyini söyləmişdir. Əməvilər ona etirazlarını bildirib: "Belə xütbə iradəsi zəif olanlara məxsusdur. Sən onlara öz gücünü göstərməlisən"- deyəndə, Nomən ibn Bəşir demişdir: "Allahın itaətində duraraq zəiflərdən olmaq mənim üçün Allaha asi olub "hörmət sahiblərindən" olmaqdan daha xoşdur".[1]

Əlbəttə ki, Allah təbarəkə və təalənin razılığını qazanmaq müsəlmanın çatdığı ən yüksək məqamdır. Bu da Allahın Cənnətdə Öz mömin qullarına bəxş etdiyi ən böyük mükafatdır. Bu xüsusda Uca Allah buyurur:

﴿وَعَدَ ٱللَّهُ ٱلْمُؤْمِنِينَ وَٱلْمُؤْمِنَٰتِ جَنَّٰتٍ تَجْرِى مِن تَحْتِهَا ٱلْأَنْهَٰرُ خَٰلِدِينَ فِيهَا وَمَسَٰكِنَ طَيِّبَةً فِى جَنَّٰتِ عَدْنٍ ۚ وَرِضْوَٰنٌ مِّنَ ٱللَّهِ أَكْبَرُ ۚ ذَٰلِكَ هُوَ ٱلْفَوْزُ ٱلْعَظِيمُ﴾

[1] Tarix Xəlifətu ibn Xayyat, 234; Rəyu şeyxul-İslam, 6/277.

**“Allah mömin kişilərə və mömin qadınlara *ağacları* altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları və Ədn bağlarında gözəl məskənlər vəd etmişdir. Allahın razılığı isə daha böyükdür. Bu, böyük uğurdur.”**[1] Peyğəmbərimiz ﷺ isə bu xüsusda belə demişdir:

﴿ إِنَّ اللَّهَ تَبَارَكَ وَتَعَالَى يَقُولُ لأَهْلِ الْجَنَّةِ يَا أَهْلَ الْجَنَّةِ فَيَقُولُونَ لَبَّيْكَ رَبَّنَا وَسَعْدَيْكَ فَيَقُولُ هَلْ رَضِيتُمْ فَيَقُولُونَ وَمَا لَنَا لاَ نَرْضَى وَقَدْ أَعْطَيْتَنَا مَا لَمْ تُعْطِ أَحَدًا مِنْ خَلْقِكَ فَيَقُولُ أَنَا أُعْطِيكُمْ أَفْضَلَ مِنْ ذَلِكَ قَالُوا يَا رَبِّ وَأَيُّ شَيْءٍ أَفْضَلُ مِنْ ذَلِكَ فَيَقُولُ أُحِلُّ عَلَيْكُمْ رِضْوَانِي فَلاَ أَسْخَطُ عَلَيْكُمْ بَعْدَهُ أَبَدًا ﴾

**“**Ulu və Uca Allah Cənnət əhlini çağırıb buyuracaq: “Ey Cənnət əhli!” Onlar: “Buyur, ey Rəbbimiz, əmrinə müntəzirik!”– deyə cavab verəcəklər. Allah soruşacaq: “Razı qaldınızmı?” Onlar deyəcəklər: “Bizə nə olub ki, razı qalmayaq?! Axı Sən bizə, yaratdıqlarından heç kəsə vermədiyin nemətləri bəxş etmisən!” Allah buyuracaq: “Mən sizə bundan da yaxşısını verəcəyəm!” Onlar deyəcəklər: “Ey Rəbbimiz! Bundan yaxşı nə ola bilər ki?” Allah buyuracaq: “Mən Öz rizamı sizə halal edirəm və bundan sonra Mənim sizə heç vaxt qəzəbim tutmayacaq”.[2]

– Hur ibn Yezidin mövqeyi:

---

[1] “ət-Tovbə” surəsi, 72.

[2] Səhih əl-Buxari, 6549.

Hur ibn Yezid ibn Ziyadın adamlarına: "Allah sizi islah etsin! Siz bu kişi[1] ilə vuruşmaq istəyirsiniz?!"- deyib Hüseynin camaatına qoşuldu və uca səslə dedi: "Ey Kufə əhli! Hüseyni bura çağırmışdınız ki, onu (bu zalımlara) təslim edəsiniz?! Əvvəlcə onun yolunda canınızdan keçəcəyinizi söyləyirdiniz, indi isə ona qarşı vuruşmağa hazırlaşırsınız?! Onun xoşluqla çıxıb getməyinə də mane oldunuz. Siz Muhəmməd Peyğəmbərə ﷺ nə pis xələflər oldunuz!" Sonra Hur əks hücuma keçərək düşmənlə vuruşub şəhid oldu.[2]

Allah ona rəhmət eləsin!

---

[1] Həqiqətən də, Hüseyn Allahın Öz müqəddəs Kitabında təriflədiyi əsl kişilərdən idi. **"O kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır. Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar".** ən-Nur, 37; **"Möminlərin içərisində Allahla bağladıqları əhdə sadiq qalan kişilər vardır. Onlardan kimisi əhdini yerinə yetirib şəhid olmuş, kimisi də *şəhid olmasını* gözləyir. Onlar *əhdlərini* əsla dəyişdirməyiblər".** əl-Əhzab, 23; Mömin kişilərə zülm etmiş: **"*Günahkarlar isə* deyəcəklər: "Bizə nə olub ki, *dünyada ikən* pis adamlar saydığımız kişiləri burada (Cəhənnəmdə) görmürük? Biz onları *haqsızcasınamı* məsxərəyə qoyurduq? Nə isə, onlar gözə dəymirlər?"** Sad, 62-63.

[2] Tarix əl-Uməm vər-Rusul vəl-Muluk, 6/355-356.

# İmam Hüseynin ﷺ qətlinə bais olan zalımlar

**a) Kufəlilər:**

Məhz kufəlilər Hüseynə yüzlərlə məktub yazıb ondan Kufəyə gəlməyi tələb etmişdilər. Lakin ibn Ziyad Kufəyə əmir təyin edildikdən sonra hamısı ondan üz döndərmiş, ona köməklik göstərməkdən boyun qaçırmış, hətta bəziləri ibn Ziyadın ordusuna qoşulub ona qarşı vuruşmuşdur. İbn Kəsir öz kitabında[1] kufəlilərin Hüseynə olan münasibətini belə açıqlamışdır: "Kufəlilərin demək olar ki, hamısı onu qoyub qaçmışdı. O zaman Hüseyn kufəlilərin ordusu ilə üzbə-üz gəldikdə onların böyüklərinə xitab edib demişdi: "Ey Şəbis ibn Rəbi! Ey Hicar ibn Əbcər! Ey Qeys ibn Əşəs! Ey Yezid ibn Haris! Məgər siz mənə yazmırdınız ki, artıq meyvələr dəyib, vahə yaşıllaşıb, vadilər su ilə dolub?!" Onlar isə cavabında: "Xeyr, biz heç nə yazmamışıq"- dedilər. Hüseyn təəccüblə: "Sübhanəllah! Vallahi ki, bunları siz yazmısınız"- dedi, sonra əlavə etdi: "Ay camaat! Əgər məni istə-

[1] əl-Bidayə vən-Nihayə, 8/179.

mirsinizsə, qoyun çıxım gedim".[1] Bu deyilənlərə məhəl qoymayan zalım kufəlilər onu qətlə yetirdilər.

Hüseyn ibn Əlinin ölüm xəbəri Ummu Sələməyə yetişdikdə o, İraq əhlini lənətləyib demişdir: "Onlar onu öldürdülər, Allah onları öldürsün! Ona xəyanət etdilər, Onu aldatdılar, Allah onlara lənət eləsin!"[2]

Bağdadi öz "əl-Fərq beynəl-Firəq" kitabında deyir ki: "Kufənin rafiziləri aldatmaqda və paxıllıqda məşhurdurlar. İnsanlar bu yaramaz sifətlərə misal çəkəndə onları misal çəkirlər və deyirlər: "Filankəs kufəlidən betər paxıl adamdır" və ya "kufəlidən betər xəyanətkardır".[3]

**b) Kufə valisi Ubeydullah ibn Ziyad:**

İbn Ziyad Muslim ibn Əqili, dalınca da Hani ibn Urvanı qətlə yetirdikdən sonra bu əməlinə görə Yezid onu qınamamış ona etiraz etməmişdi. Elə bu səbəbdən də ibn Ziyad bir az da azğınlaşmış və Hüseynə belə əl uzatmaqdan çəkinməmişdir.[4]

---

[1] Ənsab əl-Əşraf, 3/227.
[2] Məcmə əz-Zəvaid, 15145; Fədail əs-Səhabə, 2/782.
[3] əl-Fərq beynəl-Firəq, 1/26.
[4] Tarix əl-Umər vər-Rusul vəl-Muluk, 293.

İbn Ziyad əmir olduğundan özünü çox dartırdı. Peyğəmbərin ﷺ nəvəsi Hüseyn hara, ibn Ziyad hara. Heç ibn Ziyad ona tay ola bilərdimi?! Elə bu səbəbdən də Hüseyn ona beyət etmək istəməmiş və etirazını bildirib demişdir: "Mən alçaq adamın əlini sıxmayacağam".[1]

İbn Ziyad, həqiqətən də, zalım və qaba xasiyyətli bir adam idi. Bir dəfə Peyğəmbərin ﷺ səhabəsi Aiz ibn Amr əl-Muzəni رضي الله عنه onun yanına gəlib dedi: "Oğlum! Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Hökmdarların ən pisi qəddar və amansız olanıdır!" Sən onlardan olma! İbn Ziyad isə cavabında ona demişdir: "Gəl otur! Sən sadəcə Peyğəmbərin ﷺ səhabələrinin kəpəyindən birisən.[2]" Aiz dedi: "Məgər onların kəpəyi olub?! Kəpək onlardan sonra meydana gəlmişdir."[3] İbn Ziyadın bu kobud rəftarı onun nə cür yaramaz insan olduğundan xəbər verir.

İbn əs-Səlah demişdir: "Hüseynin رضي الله عنه öldürülməsinə dair əmri məhz ibn Ziyad vermişdir."[4]

---

[1] Tarix əl-Uməm vər-Rusul vəl-Muluk, 6/342.

[2] Burada ibn Ziyad səhabələri un ələndiyi zaman ələk üstündə qalan buğda və s.-nin qabıq qırıntılarına bənzədir.

[3] Səhih Muslim, 6/9-10; Səhih ibn Hibban, 4494; Müsnəd Əhməd, 5/64; Silsilətul Əhadis əs-Səhihə, 2885.

[4] əl-Qeyd əş-Şərid, 13-cü vərəq.

Yusuf demişdir: “Biz deməliyik ki, Hüseynin ﷺ qətlinə görə məsuliyyəti Şimr və Ubeydullah ibn Ziyad daşıyır.”[1]

Danılmaz həqiqətdir ki, bu hadisəyə görə ən böyük günah ibn Ziyadın boynuna düşür. Çünki məhz o, Hüseynin təkliflərini rədd etmiş, onun sakitcə çıxıb getməyinə əngəl törətmişdir. Tarix onun etdiyi əməllərini həddən ziyadə pisləmiş, onun nə qədər azğın və nə qədər qəddar olduğunu göstərmişdir.[2]

Zəhəbi Ubeydullahın tərcümeyi-halının axırında demişdir: “Ona və onun kimilərinə lənət oxumaqla heç nə dəyişən deyil. Biz ancaq onlara nifrət etməli və onlardan uzaq olduğumuzu göstərməli, fərdlərə lənət oxumamalı və onları Allaha tapşırmalıyıq”.[3]

**c) Ordu başçısı Ömər[4] ibn Səd ibn Əbu Vəqqas:**

---

[1] Dövlə əl-Əməviyyə, 2/173.

[2] Abdul Məlik ibn Mərvan vəd-Dövlətul-Əməviyyə, 105.

[3] Siyər Əlam ən-Nubələ, 3/549.

[4] “(Vaxtı ilə) Səd ibn Əbu Vəqqas ﷺ (fitnə-fəsaddan uzaq durmaq məqsədilə) çöldə dəvələrini otararkən oğlu Ömər onun yanına gəldi. Səd ibn Əbu Vəqqas onu görəndə: “Bu gələn atlının şərindən Allaha sığınıram!”- dedi. Oğlu onun yanına gəlib çatdı və atdan enib ona dedi: “Sən (burada) dəvə və qoyun otarırsan, camaat isə öz aralarında xilafət üstündə mübahisə edirlər”. Onda Səd (yavaşca) onun sinəsindən vurub dedi: “Sus! Mən Peyğəmbərin

Hüseynin ﷺ qətlinə görə məsuliyyət həmçinin ordu başçısı Ömər ibn Sədin boynuna düşür. O cür sələfin bu cür xələfi – o cür atanın bu cür oğlu.[1]

Bir həqiqəti etiraf etmək lazımdır ki, Ömər ibn Səd dörd minlik qoşunla Hüseynlə vuruşmağa çıxmamışdır. Əksinə, o, deyləmlərlə vuruşacaqdı. Lakin sonradan ibn Ziyad Ömərə xəbər göndərib ordunu Hüseynə qarşı çevirməyi əmr etmiş və demişdir: "Əvvəlcə Hüseynin üs-

---

belə dediyini eşitmişəm: "Allah, Ondan qorxan, (aza) qane olan və xəlvətə çəkilib (öz işi ilə məşğul olan) qulunu sevər". Səhih Muslim, 7621.

[1] Yəni Allahın razı qaldığı, Cənnətlə müşdələnmiş Səd ibn Əbu Vəqqas kimi nümunəvi səhabənin belə naxələf oğlu olmuşdur. Bu, heç də təəccüblü deyildir. Çünki Allahın ilk elçisi olmuş Nuh Peyğəmbərin oğlu da naxələf olmuşdur. Quran onların hekayəsini bizə belə anladır: **"Nəhayət, əmrimiz gəldiyi və təndir qaynayıb daşdığı zaman Biz *Nuha* dedik: "*Heyvanların* hər növündən bir cüt, barələrində söz keçmiş kəslər istisna olmaqla, öz ailəni və bir də iman gətirənləri gəmiyə mindir". *Lakin*, onunla birlikdə az adam iman gətirmişdi. *Nuh* dedi: "Gəmiyə minin! Onun üzüb getməsi də, dayanması da Allahın adı ilədir. Şübhəsiz ki, Rəbbim Bağışlayandır, Rəhmlidir". *Gəmi* onları dağlar kimi dalğalar içərisində apardığı zaman Nuh kənarda duran oğlunu səsləyib dedi: "Oğlum! Bizimlə birlikdə *gəmiyə* min, kafirlərdən olma!" O dedi: "Məni sudan qoruyacaq bir dağa sığınacağam!" *Nuh* dedi: "Bu gün, Allahın rəhm etdiklərindən başqa heç kəs Onun əmrindən qoruna bilməz!" *Sonda* dalğa onları bir-birindən ayırdı və o, suda boğulanlardan oldu. *Sonra* deyildi: "Ey yer, suyunu ud! Ey göy, *yağışını* saxla!" Su çəkildi, iş bitdi və gəmi Cudi *dağı* üzərində qərar tutdu. *Sonra* deyildi: "Məhv olsun zalım adamlar!" Nuh Rəbbini çağırıb dedi: "Ey Rəbbim! Axı oğlum da mənim ailəmdəndir. Sənin vədin, şübhəsiz ki, haqdır. Sən hakimlərin ən hikmətlisisən!" *Allah* buyurdu: "Ey Nuh! O, sənin ailəndən deyildir. Doğrusu, o, pis bir iş tutmuşdur. Elə isə bilmədiyin bir şeyi Məndən istəmə. Həqiqətən də, Mən sənə cahillərdən olmamağı tövsiyə edirəm". *Nuh* dedi: "Ey Rəbbim! Bilmədiyim bir şeyi Səndən istəməkdən Sənə sığınıram. Əgər məni bağışlamasan, mənə rəhm etməsən, ziyana uğrayanlardan olaram".**

tünə get! Onun məsələsini həll etdikdən sonra Deyləmə gedərsən". Əvvəl-əvvəl Ömər buna boyun olmasa da, ibn Ziyad ona hədə-qorxu gəldikdən sonra razılıq vermişdir. Ömər ibn Sədin bacısı oğlu Həmzə ibn Muğira ibn Şöbə onun bu mövqeyinə etirazını bildirib ona demişdi: "Dayı, səni and verirəm Allaha, Hüseynin üstünə getmə, Rəbbinin qəzəbinə gələrsən. Vallahi ki, sənin üçün dünyanı, var-dövlətini və vəzifəni itirmək, Allahın hüzuruna əlin Hüseynin qanına bulaşdığı halda getməkdən daha xeyirlidir".[1]

Lakin Ömər ibn Səd bu nəsihətə məhəl qoymayıb nəfsinə uymuşdur. Onun nəfsi dünyaya və vəzifəyə bağlı olduğundan o cür insana əl qaldırmışdır. Həqiqətən də: **"...nəfs *adama* pis işləri əmr edər".**[2]

---

[1] Tarix əl-Uməm vər-Rusul vəl-Muluk, 6/335.
[2] "Yusuf" surəsi, 53.

# İmam Hüseyni ﵁ qətlə yetirənlərin cəzası

İbn Kəsir demişdir: “Hüseyni qətlə yetirənlərin başına gələn müsibətlərə dair nəql edilmiş rəvayətlərin əksəriyyəti səhihdir. Demək olar ki, onların hamısı dünyada ikən cürbəcür bəlalara düçar olmuş, kimisi xəstəlik tapmış, kimisi də dəli olmuşdur”.[1]

İbn Teymiyyə demişdir: “Zuhrinin: “Hüseyni qətlə yetirənlərin hər biri hələ dünyada ikən cəzasına çatmışdır” sözündə həqiqət var...”[2]

Ayni demişdir: “Uca Allah fasiq, zalım Ubeydullah ibn Ziyadın cəzasını vermişdir. Allah onu hicrətin altmış yeddinci ilində Mövsuldan beş fərsəx[3] uzaqda yerləşən əl-Cazir deyilən bir yerdə İbrahim ibn Əştər ən-Nəxəinin əli ilə məhv etmişdir. Onu da ibn Ziyadın üstünə Muxtar ibn Əbu Ubeydə əs-Səqəfi göndərmişdir. İbn Ziyad öldürüldükdən sonra həm onun, həm də tərəfdarlarının başları Muxtarın hüzuruna gətirildi. Bu vaxt bir ilan gə-

---

[1] əl-Bidayə vən-Nihayə (Dövhə ən-Nəbəviyyədən), səh: 129.

[2] Minhac əs-Sünnə, 4/560.

[3] Bir fərsəx 5760 metrə bərabərdir.

lib ibn Ziyadın ağzından girib burnundan çıxdı, sonra burnundan girib ağzından çıxdı. Sonra Muxtar onların başlarını Məkkəyə Muhəmməd ibn əl-Hənəfiyyəyə, bəzi rəvayətlərə görə Abdullah ibn Zubeyrə göndərdi, cəsədlərini isə yandırdı..."[1]

İbn Abdul-Bər demişdir: "Hüseyn hicrətin 61-ci ilində aşura günü qətlə yetirilmişdir. (Onun qətlinə bais olmuş zalım) Ubeydullah ibn Ziyad hicrətin 67-ci ilində aşura günü öldürülmüşdür. Onu İbrahim ibn Əştər öldürmüş, sonra da başını kəsib Muxtara göndərmişdir. Muxtar da onu Abdullah ibn Zubeyrə, o da Əli ibn Hüseynə (Zeynalabidinə) göndərmişdir."[2]

Muxtar Əşəs ibn Rəbinin, Amr ibn Həccacın, Muhəmməd ibn Əşəsin və Ömər ibn Sədin kufə ziyalıları ilə birlikdə Bəsrəyə yollandığını biləndə onların ardınca adam göndərdi, onlar da Ömər ibn Sədi tutub Muxtarın yanına gətirdilər. Muxtar dedi: "Səni tutmağa bizi müvəffəq edən Allaha həmd olsun! Vallahi ki, mən səni qanına qəltan etməklə Muhəmməd Peyğəmbərin ﷺ əhli-

---

[1] Tohfətul Əhvəzi, 10/178; Siyər Əlam ən-Nubələ, 3/549.
[2] əl-İstiyab, 1/82.

beytinin qəlbini şad edəcəyəm." Sonra: "Ey Keysan, bunun boynunu ver!"- dedi, Keysan da onun boynunu vurdu. Muxtar onun başını götürüb Mədinəyə - Muhəmməd ibn əl-Hənəfiyyəyə göndərdi. Bundan sonra Muxtar Şimr ibn zil-Cövşənin dostları ilə birlikdə Bəsrənin yaxınlığında qaldığını öyrəndi və öz adamlarını onların üstünə göndərdi. Beləliklə də, Muxtar onların hamısının axırına çıxdı.[1]

Rəvayət edilir ki, Əbu Rəca əl-Utaridi demişdir: "Heç vaxt Əlini ﷺ və ya onun əhli-beytindən bir kimsəni söyməyin. Bizim Bəlhəcimdən olan bir qonşumuz var idi. Bir dəfə o: "Gördünüz, fasiq Hüseyn ibn Əlini Allah necə öldürdü?!"- dedi. Elə bu vaxt göydən iki şölə düşüb onun gözlərini kor elədi".[2]

---

[1] Əxbar ət-Tival, 1/301-303.

[2] Mocəm əl-Kəbir, 3/119. Heysəmi bu rəvayətin isnadının səhih olduğunu demişdir.

## Yezidə münasibət

Əksər tarixçilər Yezid ibn Müaviyənin Hüseynin qətlinə hökm vermədiyini söyləmişlər. Lakin danılmaz həqiqətdir ki, o, ibn Ziyada məktub yazıb Hüseynin İraqa girməyinin qarşısını almağı ona tapşırmışdır. Yezid Hüseynin qətlə yetirildiyini eşitdikə məyus olmuş, hətta ağlamışdır, üstəlik onun qadınları və uşaqları ilə hörmətlə davranmış, onları öz adamlarının müşayiəti ilə Mədinəyə göndərmişdir. O ki qaldı, Yezidin Peyğəmbərin ﷺ əhli-beytindən olan bu qadınlardan cariyə[1] kimi istifadə etməsinə, onları Şama göndərib orada onlarla pis rəftar etməsinə və başqa bu kimi cəfəngiyatlara, bütün bunlar uydurma yalanlardır..."[2]

Düzdür, Yezid Hüseynin qətlə yetirilməsinin əleyhinə olmuş, hətta ibn Abbasa məktub yazıb Hüseyni bu işdən çəkindirməyi xahiş etmiş, üstəlik Hüseynin ölüm xəbərini eşitdikdə ağlayaraq ibn Ziyadı lənətləmişdir, lakin bütün bunlar onu törədilmiş bu cinayətin məsuliyyətindən azad etmir. Belə ki, o, açıq-aydın bir məktub yazıb

---

[1] Cariyə - keçmiş zamanlarda cihadda ələ keçirilib azadlıqdan məhrum edilən, pulla alınıb-satıla bilən, hər cəhətdən sahibinin arzularına tabe olan qız və ya qadındır.

[2] Rəyu şeyxul-İslam, 2/188.

Hüseynə toxunmamağı, onunla mülayim rəftar etməyi ibn Ziyada əmr edə bilərdi.[1]

Yezid ibn Müaviyəyə münasibət bəsləyənlər üç qismə bölünür. Kimisi onu lənətləyir, kimisi onu sevir kimisi də orta mövqe tutaraq onu nə sevir, nə də lənətləyir.

– Bir tərəf onu kafir, münafiq adlandırır, onu Peyğəmbərimizin ﷺ sevimli nəvəsinin ölümündə günahlandırır, Bədr döyüşündə Əlinin, Həmzənin və Ubeydənin əli ilə qətlə yetirilmiş ana babası Utbə ibn Rəbiənin, onun qardaşı Şeybə ibn Rəbiənin və dayısı Vəlid ibn Utbənin intiqamını aldığını iddia edir.

– Digər tərəf Yezidin əməlisaleh insan, ədalətli rəhbər, üstəlik Peyğəmbərimizin ﷺ səhabəsi olduğunu, onun zamanında dünyaya gəldiyini, onun xeyir-duasına nail olduğunu iddia edir.[2]

– Üçüncü tərəf isə onun digər hökmdarlar kimi adi bir hökmdar olduğunu, özünə layiq yaxşı və pis işlər gördüyünü, kafir olmadığını, Hüseynin ölümündə əli olduğunu, Mədinə əhlini amansızcasına qırdığını, nə səhabə, nə də ki Allahın sevimli əməlisaleh qullarından oldu-

---

[1] Ənsab əl-Əşraf, 3/219.

[2] Məcmu əl-Fətava, 4/294-295.

ğunu deyir. Bu da İslam alimlərinin əksəriyyətinin fikridir. Bu alimlər onu nə lənətləyir, nə də sevirlər.

İmam Əhməd ibn Hənbəlin oğlu Saleh demişdir: "(Bir dəfə) mən atama dedim ki, bəzi adamlar Yezidi sevdiklərini söyləyirlər. Atam dedi: "Oğlum! Heç Allaha və Axirət gününə iman gətirmiş adam Yezidi sevə bilərmi?!" Dedim: "Atacan! Bəs niyə onu lənətləmirsən?" Dedi: "Oğlum! Sən heç mənim kiməsə lənət oxuduğumu görmüsənmi?!"

Digər rəvayətdə deyilir ki, o, atasından Yezid barəsində soruşduqda atası demişdir: "Yezid Mədinədə çox günahlar işlətmişdir". Oğlu ondan: "O, nələr etmişdir?"- deyə soruşduqda o, demişdir: "O, Peyğəmbərin ﷺ neçə-neçə səhabəsini qətlə yetirmişdir." Oğlu: "Ondan hədis rəvayət etmək olarmı?"- deyə soruşduqda, o: "Xeyr, ondan hədis rəvayət etmək olmaz"- deyə cavab vermişdir.

Əbu Muhəmməd əl-Məqdisidən Yezid barəsində soruşduqda o demişdir: "Düşünürəm ki, onu nə söymək olar, nə də lənətləmək".[1]

Bu, həqiqətən də, orta mövqedir. Müsəlman heç bir fərdə lənət oxumamalıdır. Və əgər lənət oxumağı labüd

---

[1] Məcmu əl-Fətəva, 4/295.

sayırsa, onda Allahın bizə öyrətdiyi kimi ümumi şəkildə deməlidir ki: **"Allahın lənəti olsun zalımlara!"**[1] və ya **"Allah kafirlərə lənət eləsin!"**[2] Aşağıdakı iki hədisə nəzər salsaq hər şey aydın olar:

عَنْ عُمَرَ بْنِ الْخَطَّابِ أَنَّ رَجُلاً عَلَى عَهْدِ النَّبِيِّ ﷺ كَانَ اسْمُهُ عَبْدَ اللَّهِ وَكَانَ يُلَقَّبُ حِمَارًا وَكَانَ يُضْحِكُ رَسُولَ اللَّهِ ﷺ وَكَانَ النَّبِيُّ ﷺ قَدْ جَلَدَهُ فِي الشَّرَابِ فَأُتِيَ بِهِ يَوْمًا فَأَمَرَ بِهِ فَجُلِدَ فَقَالَ رَجُلٌ مِنْ الْقَوْمِ اللَّهُمَّ الْعَنْهُ مَا أَكْثَرَ مَا يُؤْتَى بِهِ، فَقَالَ النَّبِيُّ ﷺ: ﴿لاَ تَلْعَنُوهُ فَوَاللَّهِ مَا عَلِمْتُ إِنَّهُ يُحِبُّ اللَّهَ وَرَسُولَهُ﴾

"Ömər ibn Xəttab ﵁ rəvayət etmişdir ki, Peyğəmbərin ﷺ dövründə "uzunqulaq" ləqəbi ilə tanınmış Abdullah adlı birisi var idi. Bu adam (arabir) Peyğəmbəri ﷺ güldürərdi. Peyğəmbər ﷺ ona şərab içdiyinə görə şallaq vurmağı əmr etmişdi. (Yenə) bir gün onu (şərab içdiyinə görə) Peyğəmbərin ﷺ yanına gətirdilər və Peyğəmbərin ﷺ əmri ilə ona şallaq vurdular. Bu vaxt camaatın arasından bir nəfər: "Allahım, ona lənət et! Onu nə tez-tez bura gətirirlər!"– dedi. (Bunu eşidəndə) Peyğəmbər ﷺ buyur-

---

[1] "əl-Əraf" surəsi, 44.
[2] "əl-Bəqərə" surəsi, 89.

du: “Ona lənət oxumayın! Vallahi, mən yəqin bilirəm ki, o, Allahı və Onun rəsulunu sevir”.[1]

Halbuki digər bir hədisdə demişdir:

﴿أتاني جبريل فقال : يا محمد إن الله عز وجل لعن الخمر و عاصرها و معتصرها و شاربها و حاملها و المحمولة إليه و بائعها و مبتاعها و ساقيها و مستقيها﴾

**“İndicə Cəbrail mənə xəbər verib dedi ki, Qüdrətli Allah şərabı, onu çəkəni, çəkdirəni, içəni, gətirəni, gətizdirəni, satanı, alanı, süzəni və süzdürəni lənətləyir”.[2]**

İbn Teymiyyə demişdir: “O ki qaldı Yezidi sevməyə, mömin bəndə (insanlar arasında) peyğəmbərləri, siddiqləri, şəhidləri və əməlisaleh insanları sevməlidir. Yezid isə bunların heç birindən deyildir. Həm də ki, kimisə sevmək, axirətdə də onunla bir yerdə olmaq deməkdir.[3] Çünki Peyğəmbər ﷺ demişdir:

﴿ الْمَرْءُ مَعَ مَنْ أَحَبَّ ﴾

**“Hər kəs sevdiyi kimsə ilə bir yerdə olacaq”.[4]**

---

[1] Səhih əl-Buxari, 6780.
[2] Müsnəd imam Əhməd, 1/316; Silsilətul-Əhadis əs-Səhihə, 839.
[3] Məcmu Fətəva, 4/296.
[4] Səhih əl-Buxari, 6169.

Rəvayət edilir ki,[1] (bir dəfə) səhabələrdən biri Peyğəmbərin ﷺ yanına gəlib dedi: “Ya Rəsulullah! Həqiqətən, sən mənim üçün həm özümdən, həm ailəmdən, həm övladımdan, həm də var-dövlətimdən sevimlisən. Mən evdə olarkən səni xatırlayır və səni görüncəyə qədər qəlbim rahatlıq tapmır. Hər ikimizin öləcəyini xatırlayanda isə düşünürəm ki, sən Cənnətə girəcəksən və peyğəmbərlərə xas olan ən yüksək mərtəbədə olacaqsan. Mən isə ora düşə bilsəm qorxuram bir daha səni görməyim.” Peyğəmbər ﷺ ona bir cavab vermədi. Onda Uca Allah bu ayəni nazil etdi:

﴿وَمَن يُطِعِ ٱللَّهَ وَٱلرَّسُولَ فَأُو۟لَٰٓئِكَ مَعَ ٱلَّذِينَ أَنْعَمَ ٱللَّهُ عَلَيْهِم مِّنَ ٱلنَّبِيِّـۧنَ
وَٱلصِّدِّيقِينَ وَٱلشُّهَدَآءِ وَٱلصَّٰلِحِينَ ۚ وَحَسُنَ أُو۟لَٰٓئِكَ رَفِيقًا﴾

**“Allaha və *Onun* Elçisinə itaət edənlər Allahın onlara nemət olaraq bəxş etdiyi peyğəmbərlərlə, sidq ürəkdən inananlarla, şəhidlərlə və əməlisalehlərlə birlikdə olacaqlar. Onlar necə də gözəl dostlardır”.**[2]

Allaha və Axirət gününə iman gətirən adam Yezid və onun kimi haqsızlığa yol verən adamları sevməz. Yezidi sevməməyin əsas iki səbəbi vardır:

---

[1] Mocəm əs-Səğir, səh: 12; Silsilətul Əhadis əs-Səhihə, 2933.
[2] “ən-Nisa” surəsi, 69.

Birincisi: Yezid elə də yaxşı işlər görməmişdir ki, onu sevmək labüd olsun. O, sadəcə bir padşah olmuşdur.

İkincisi: Yezid Hüseynə və onun yaxınlarına, habelə mədinəlilərə qarşı haqsızlıq etmişdir.[1]

Ğəzali və başqa onun kimi alimlər Yezidə bəraət qazandırmış, onu sevməyi caiz hesab etmiş və demişlər:

Birincisi: o, müsəlman idi və təbii ki, yaxşı işlər də görmüşdür. Etdiyi haqsızlıqlara gəlincə, hər kəs xəta edə bilər, o, ictihad edib xəta etmişdir.

İkincisi: ibn Ömərdən rəvayət edilmiş hədisdə Peyğəmbər demişdir: "Konstantinopola yürüş edəcək ilk ordunu Allah bağışlayacaq".[2] Bu ordu məhz Yezidin başçılığı altında Konstantinopola yürüş etmişdir.[3]

Həqiqət budur ki, bir insanın həm yaxşı, həm pis əməlləri ola bilər, habelə bir kimsəyə həm dua etmək, həm də bəddua etmək olar, həmçinin bir kimsəni həm tərifləmək, həm də pisləmək olar, lakin varid olan dəlillərə əsasən və İslam alimlərinin yekdil rəyinə görə arxa-

---

[1] Məcmu Fətəva, 4/296.
[2] Səhih əl-Buxari, 2934.
[3] Məcmu Fətəva, 4/297.

yınlıqla demək olar ki, tək Allahı qəbul edib Ona heç kəsi şərik qoşmayan hər bir fasiq, zalım müsəlman etdiyi günahlara görə Cəhənnəmə düşsə də, gec-tez oradan çıxıb Cənnətə girəcəkdir.[1]

Peyğəmbər ﷺ demişdir:

﴿ يَخْرُجُ مِنَ النَّارِ مَنْ قَالَ لاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَفِى قَلْبِه وَزْنُ شَعِيرَةٍ مِنْ خَيْرٍ، وَيَخْرُجُ مِنَ النَّارِ مَنْ قَالَ لاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَفِى قَلْبِهِ وَزْنُ بُرَّةٍ مِنْ خَيْرٍ، وَيَخْرُجُ مِنَ النَّارِ مَنْ قَالَ لاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَفِى قَلْبِهِ وَزْنُ ذَرَّةٍ مِنْ خَيْرٍ ﴾

"Qəlbində arpa dənəsi ağırlığında iman ola-ola "Allahdan başqa (haqq) məbud yoxdur!"[2] – deyən kəs Cəhənnəmdən çıxacaqdır. Qəlbində buğda dənəsi ağırlığında iman ola-ola "Allahdan başqa (haqq) məbud yoxdur!"– deyən kəs Cəhənnəmdən çıxacaqdır. Qəlbində zərrə ağırlığında iman ola-ola "Allahdan başqa (haqq) məbud yoxdur!"– deyən kəs Cəhənnəmdən çıxacaqdır."[3]

O həmçinin demişdir:

﴿يُحْشَرُ النَّاسُ يَوْمَ الْقِيَامَة، فَيَقُولُ مَنْ كَانَ يَعْبُدُ شَيْئًا فَلْيَتَّبِعْ. فَمِنْهُمْ مَنْ يَتَّبِعُ الشَّمْسَ، وَمِنْهُمْ مَنْ يَتَّبِعُ الْقَمَرَ وَمِنْهُمْ مَنْ يَتَّبِعُ الطَّوَاغِيتَ، وَتَبْقَى هَذِهِ الأُمَّةُ فِيهَا

---

[1] Məcmu Fətəva, 4/297.
[2] Yəni "La ilahə illəllah" deyən kimsə.
[3] Səhih əl-Buxari, 44.

مُنَافقُوهَا، فَيَأْتِيهِمُ اللَّهُ فَيَقُولُ أَنَا رَبُّكُمْ فَيَقُولُونَ هَذَا مَكَانُنَا حَتَّى يَأْتِينَا رَبُّنَا، فَإِذَا جَاءَ رَبُّنَا عَرَفْنَاهُ. فَيَأْتِيهِمُ اللَّهُ فَيَقُولُ أَنَا رَبُّكُمْ. فَيَقُولُونَ أَنْتَ رَبُّنَا. فَيَدْعُوهُمْ فَيُضْرَبُ الصِّرَاطُ بَيْنَ ظَهْرَانَيْ جَهَنَّمَ، فَأَكُونُ أَوَّلَ مَنْ يَجُوزُ مِنَ الرُّسُلِ بِأُمَّتِه، وَلاَ يَتَكَلَّمُ يَوْمَئذ أَحَدٌ إِلاَّ الرُّسُلُ، وَكَلاَمُ الرُّسُلِ يَوْمَئذ اللَّهُمَّ سَلِّمْ سَلِّمْ. وَفِى جَهَنَّمَ كَلاَلِيبُ مِثْلُ شَوْكِ السَّعْدَانِ، هَلْ رَأَيْتُمْ شَوْكَ السَّعْدَانِ؟ قَالُوا نَعَمْ. قَالَ: «فَإِنَّهَا مِثْلُ شَوْكِ السَّعْدَانِ، غَيْرَ أَنَّهُ لاَ يَعْلَمُ قَدْرَ عِظَمِهَا إِلاَّ اللَّهُ، تَخْطَفُ النَّاسَ بِأَعْمَالِهِمْ، فَمِنْهُمْ مَنْ يُوبَقُ بِعَمَلِه، وَمِنْهُمْ مَنْ يُخَرْدَلُ ثُمَّ يَنْجُو، حَتَّى إِذَا أَرَادَ اللَّهُ رَحْمَةَ مَنْ أَرَادَ مِنْ أَهْلِ النَّارِ، أَمَرَ اللَّهُ الْمَلاَئِكَةَ أَنْ يُخْرِجُوا مَنْ كَانَ يَعْبُدُ اللَّهَ، فَيُخْرِجُونَهُمْ وَيَعْرِفُونَهُمْ بِآثَارِ السُّجُودِ، وَحَرَّمَ اللَّهُ عَلَى النَّارِ أَنْ تَأْكُلَ أَثَرَ السُّجُودِ فَيَخْرُجُونَ مِنَ النَّارِ، فَكُلُّ ابْنِ آدَمَ تَأْكُلُهُ النَّارُ إِلاَّ أَثَرَ السُّجُودِ، فَيَخْرُجُونَ مِنَ النَّارِ قَدِ امْتَحَشُوا، فَيُصَبُّ عَلَيْهِمْ مَاءُ الْحَيَاةِ ، فَيَنْبُتُونَ كَمَا تَنْبُتُ الْحِبَّةُ فِى حَمِيلِ السَّيْلِ، ثُمَّ يَفْرُغُ اللَّهُ مِنَ الْقَضَاءِ بَيْنَ الْعِبَادِ، وَيَبْقَى رَجُلٌ بَيْنَ الْجَنَّةِ وَالنَّارِ، وَهْوَ آخِرُ أَهْلِ النَّارِ دُخُولاً الْجَنَّةَ، مُقْبِلٌ بِوَجْهِه قِبَلَ النَّارِ فَيَقُولُ يَا رَبِّ اصْرِفْ وَجْهِى عَنِ النَّارِ، قَدْ قَشَبَنِى رِيحُهَا، وَأَحْرَقَنِى ذَكَاؤُهَا. فَيَقُولُ هَلْ عَسَيْتَ إِنْ فُعِلَ ذَلِكَ بِكَ أَنْ تَسْأَلَ غَيْرَ ذَلِكَ فَيَقُولُ لاَ وَعِزَّتِكَ. فَيُعْطِى اللَّهَ مَا يَشَاءُ مِنْ عَهْد وَمِيثَاق، فَيَصْرِفُ اللَّهُ وَجْهَهُ عَنِ النَّارِ، فَإِذَا أَقْبَلَ بِه عَلَى الْجَنَّةِ رَأَى بَهْجَتَهَا سَكَتَ مَا شَاءَ اللَّهُ أَنْ يَسْكُتَ، ثُمَّ قَالَ يَا رَبِّ قَدِّمْنِى عِنْدَ بَابِ الْجَنَّةِ. فَيَقُولُ اللَّهُ لَهُ أَلَيْسَ قَدْ أَعْطَيْتَ الْعُهُودَ وَالْمَوَاثِيقَ أَنْ لاَ تَسْأَلَ غَيْرَ الَّذِى كُنْتَ سَأَلْتَ فَيَقُولُ يَا رَبِّ لاَ أَكُونُ أَشْقَى خَلْقِكَ. فَيَقُولُ فَمَا عَسَيْتَ إِنْ أُعْطِيتَ ذَلِكَ أَنْ لاَ تَسْأَلَ غَيْرَهُ فَيَقُولُ لاَ وَعِزَّتِكَ لاَ أَسْأَلُ غَيْرَ ذَلِكَ. فَيُعْطِى رَبَّهُ مَا شَاءَ مِنْ عَهْد وَمِيثَاق، فَيُقَدِّمُهُ إِلَى بَابِ الْجَنَّةِ، فَإِذَا بَلَغَ بَابَهَا، فَرَأَى زَهْرَتَهَا وَمَا فِيهَا مِنَ النَّضْرَةِ وَالسُّرُورِ، فَيَسْكُتُ مَا شَاءَ اللَّهُ أَنْ يَسْكُتَ، فَيَقُولُ يَا رَبِّ

أَدْخِلْنِى الْجَنَّةَ. فَيَقُولُ اللَّهُ وَيْحَكَ يَا ابْنَ آدَمَ مَا أَغْدَرَكَ، أَلَيْسَ قَدْ أَعْطَيْتَ الْعَهْدَ وَالْمِيثَاقَ أَنْ لاَ تَسْأَلَ غَيْرَ الَّذِى أُعْطِيتَ فَيَقُولُ يَا رَبِّ لاَ تَجْعَلْنِى أَشْقَى خَلْقِكَ. فَيَضْحَكُ اللَّهُ عَزَّ وَجَلَّ مِنْهُ، ثُمَّ يَأْذَنُ لَهُ فِى دُخُولِ الْجَنَّةِ فَيَقُولُ تَمَنَّ. فَيَتَمَنَّى حَتَّى إِذَا انْقَطَعَتْ أُمْنِيَّتُهُ قَالَ اللَّهُ عَزَّ وَجَلَّ تَمَنَّ كَذَا وَكَذَا. أَقْبَلَ يُذَكِّرُهُ رَبُّهُ، حَتَّى إِذَا انْتَهَتْ بِهِ الأَمَانِىُّ قَالَ اللَّهُ تَعَالَى لَكَ ذَلِكَ وَمِثْلُهُ مَعَهُ﴾

"Qiyamət günü insanlar məhşərə toplanacaq və Allah buyuracaq: "Kim nəyə ibadət edirdisə, qoy onun ardınca getsin!" Beləliklə, onlardan kimisi günəşin, kimisi ayın, kimisi də tağutların[1] ardınca gedəcək. Axırda bu ümmət, içində olan münafiqlərlə birlikdə qalacaqdır. Allah onların yanına gəlib buyuracaq: "Mən sizin Rəbbinizəm!" Onlar (Onu tanımadıqlarına görə) deyəcəklər: "Rəbbimiz gələnədək bura bizim yerimiz (olacaq), Rəbbimiz gələndə biz Onu tanıyacağıq."

Sonra Allah onların yanına gəlib buyuracaq: "Mən sizin Rəbbinizəm!" Onlar (Onu tanıyacaq və): "Sən bizim Rəbbimizsən!"– deyəcəklər. (Bundan sonra) Allah onları çağıracaq, Cəhənnəmin üzərində körpü[2] qurulacaq və ümməti ilə birlikdə bu körpüdən keçən elçilərin birincisi mən olacağam. O gün elçilərdən başqa heç kəs danışa bilməyəcək, elçilər isə deyəcəklər: "Allahım, xilas et,

[1] 9-cu səhifədəki qeydlərə bax.
[2] Tərcümədə buna Sirat, qıl körpüsü deyilir.

xilas et!" Cəhənnəmdə sadan [1] tikanlarına bənzər qarmaqlar vardır. Siz sadan tikanlarını görmüsünüzmü?" Əshabələr: "Bəli"– dedilər. Peyğəmbər ﷺ buyurdu: "Bu qarmaqlar sadan tikanlarına bənzəyirlər, lakin Allahdan başqa heç kəs onların nə qədər böyük olduğunu bilmir. Onlar insanları əməllərinə görə tutacaqlar, kimisi əməlinə görə məhv olacaq, kimisi də didik-didik ediləcək, lakin axırda xilas olacaq. Nəhayət, Allah Cəhənnəmə vasil olanlardan dilədiyinə mərhəmət göstərmək istədiyi zaman mələklərə Allaha ibadət etmiş kimsələri (oradan) çıxarmağı əmr edəcək. Mələklər onları (üzlərindəki) səcdə izindən tanıyıb (oradan) çıxaracaqlar. Belə ki, Allah Cəhənnəm oduna səcdə izlərini yandırıb-yaxmağı haram etmişdir. Beləliklə, onlar Cəhənnəmdən çıxacaqlar. Od Adəm övladının vücudunu – səcdə yerləri istisna olmaqla, başdan-ayağa yandırıb-yaxacaq və onlar sümüklərinə qədər yanmış halda oddan çıxacaqlar. Bundan sonra onların üstünə dirilik suyu töküləcək və onlar selin gətirdiyi toxumun cücərib yetişdiyi kimi diriləcəklər. Nəhayət Allah Öz qulları üzərində mühakiməsini bitirdikdə Cənnətlə Cəhənnəm ara-

[1] Dadı şirin tikanlı bir bitkidir.

sında bir nəfər qalacaq. Bu adam Cəhənnəmdən çıxıb Cənnətə girən kimsələrin axırıncısı olacaq. Onun üzü Cəhənnəmə tərəf olacaq və o deyəcək: "Ey Rəbbim, mənim üzümü oddan döndər, çünki onun tüstüsü məni zəhərləmişdir, alovu da məni yandırıb-yaxmışdır!" Allah deyəcək: "Bu istədiyin yerinə yetirilsə, başqa bir şey istəyəcəksənmi?" (Bu adam): "Sənin izzətinə and olsun ki, yox"– deyəcək və Allaha dilədiyi qədər and içib söz verəcək. Allah da onun üzünü oddan döndərəcək. Allah onun üzünü Cənnətə tərəf çevirdikdə o, (Cənnətin) gözəlliyini görüb Allahın istədiyi qədər susacaq, sonra isə deyəcək: "Ey Rəbbim, məni Cənnətin qapısına yaxınlaşdır." Allah ona deyəcək: "Məgər sən and içib söz verməmişdin ki, bu istədiyindən başqa heç nə istəməyəcəksən?" O deyəcək: "Ey Rəbbim, qoy Sənin yaratdıqlarının ən bədbəxti mən olmayım!" Allah deyəcək: "Bu istədiyin yerinə yetirilsə, başqa bir şey istəyəcəksənmi?" O (yenə): "Sənin izzətinə and olsun ki, mən başqa heç nə istəməyəcəyəm"– deyəcək və Allaha dilədiyi qədər and içib söz verəcək. Allah da onu Cənnətin qapısına yaxınlaşdıracaq. Cənnətin qapısına çatdıqda onun gözəlliyini, içindəki sevinc və zövq-səfanı görüb Allahın istədiyi qədər susacaq, sonra da deyəcək: "Ey Rəbbim, məni Cənnətə

daxil et!" Allah deyəcək: "Vay sənin halına, ey Adəm oğlu, sən nə qədər vədinə xilaf çıxırsan! Məgər sən and içib söz verməmişdin ki, sənə verilənlərdən başqa heç nə istəməyəcəksən?" O deyəcək: "Ey Rəbbim, qoy Sənin yaratdıqlarının ən bədbəxti mən olmayım!" Belə olduqda Qüdrətli və Böyük Allah güləcək, sonra ona Cənnətə daxil olmağa izn verəcək və deyəcək: "(Nə diləyirsən,) dilə!" O adam o qədər diləyəcək ki, axırda (heç bir) diləyi qalmayacaq və Qüdrətli və Böyük Allah deyəcək: "Filan və filan şeyləri də dilə!" Beləcə, Rəbbi ona (onun istəklərini) xatırladacaq. Artıq onun heç bir istəyi qalmadıqda Uca Allah buyuracaq: "Sənə bu istədiklərin və bir o qədəri də (verilmişdir)."[1]

Yuxarıdakı hədislərdən belə nəticə çıxır ki, qəlbində zərrə qədər imanı olan kəs Cəhənnəmə düşsə belə nə vaxtsa oradan çıxıb Cənnətə girəcək. Odur ki, zahirən müsəlman olan bir kimsəni kafir sayıb əbədi Cəhənnəmdə qalacağını iddia etmək olmaz. Bu, xəvariclərin əqidəsidir. O zındıqlar[2] ki, Allahın razı qaldığı, Cənnətlə müjdələnmiş, möminlərin əmiri Osman və Əli kimi səhabə-

[1] Səhih əl-Buxari, 806.

[2] Əsil mənası zərdüşti (kafir, dinsiz) olub, canlı dildə söyüş məqamında işlənir.

ləri kafir sayıb öldürmüşlər. Xəvariclərin əqidəsinə görə haqsızlığa yol verən zalımlar kafir sayılır. Onların bu batil əqidəsinə cavab olaraq Əta ibn Dinarın dediyinə diqqət edin. O demişdir: "Zalımlar kafirdirlər" yox, "Kafirlər zalımdırlar!"[1] deyən Allaha həmd olsun!"[2]

Həmçinin ibn Teymiyyə ilə monqol-tatarların nümayəndəsi Bulaya arasında gedən söhbətə diqqətlə nəzər salın. Baxın görün onun verdiyi sualları ibn Teymiyyə necə cavablandırmışdır.

"Bulaya soruşdu:

– Sizin Yezidə münasibətiniz necədir?

İbn Teymiyyə dedi:

– Biz onu sevmirik, lakin söymürük də. O, əməlisaleh bir adam olmamışdır ki, biz onu sevək. Lakin bununla belə biz heç bir müsəlmanı söymürük.

Bulaya soruşdu:

– Yaxşı bəs nə üçün onu lənətləmirsiniz? Məgər o, zalım olmayıb? Məgər Hüseyni o qətlə yetirməyib?

İbn Teymiyyə dedi:

– Biz Həccac ibn Yusuf və onun kimi zalımlar barəsində ancaq Allahın Quranda dediyi kimi: **"Allahın lə-**

---

[1] "əl-Bəqərə" surəsi, 254.

[2] Təfsir ət-Təbəri, 5/385; Təfsir ibn Əbu Hatim, 2/252.

**nəti olsun zalımlara!"**[1] deyir və şəxsən heç kəsi lənətləmirik. Düzdür, bəzi alimlər onları lənətləyir, lakin biz fərdi olaraq heç kəsə lənət oxumuruq. O ki qaldı Hüseyni qətlə yetirənlərə, bu işdə onlara yardım göstərənlərə və bundan razı qalanlara, onlara Allahın, mələklərin və bütün insanların lənəti olsun! Allah onların əməllərini puç eləsin!

Bulaya soruşdu:

– Siz əhli-beyti sevirsinizmi?

İbn Teymiyyə dedi:

– Bizim əqidəmizə görə əhli-beyti sevmək fərzdir.[2] Onları sevən müsəlman bu sevgiyə görə savab qazanmış olur. Zeyd ibn Ərqəm demişdir: "Peyğəmbər ﷺ bizə Məkkə ilə Mədinə arasında Qədir Xum deyilən bir yerdə xütbə verib dedi: "Ey insanlar! Mən sizə Allahın Kitabını və əhli-beytimi qoyub gedirəm!"[3] Üstəlik biz hər namazda dua edib: "Allahummə salli alə Muhəmmədin və alə ali Muhəmməd, kəmə salleytə alə İbrahimə və alə ali İbrahim, innəkə həmidun məcid. Allahummə barik alə Muhəm-

---

[1] "Hud" surəsi, 18.
[2] Dini baxımdan yerinə yetirilməsi vacib və məcburi olan.
[3] Müsnəd imam Əhməd, 4/367; Silsilətul-Əhadis əs-Səhihə, 1750.

mədin və alə ali Muhəmməd, kəmə barəktə alə İbrahimə və alə ali İbrahim, innəkə həmidun məcid"[1] deyirik.

Bulaya soruşdu:

– Əhli-beytə nifrət edənlər barədə nə deyə bilərsən?

İbn Teymiyyə dedi:

– Onlara nifrət edənlərə Allahın, mələklərin və bütün insanların lənəti olsun! Allah onların əməllərini puç eləsin!

Sonra ibn Teymiyyə oradakılardan soruşdu ki: "Nə üçün bu monqol məndən Yezid barəsində soruşurdu?" Dedilər: "Çünki ona sənin dəməşqlilərin nəvasibi[2] olduğunu söyləyiblər." Onda ibn Teymiyyə səsini qaldırıb dedi: "Onlar yalan danışırlar. Bunu deyənlərə Allahın lənəti olsun! Allaha and olsun ki, Dəməşqdə bir nəfər də olsun nasibi yoxdur."[3]

---

[1] Tərcüməsi: Allahım! İbrahimə və İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də xeyir-dua ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən! Allahım! İbrahimə və İbrahimin ailəsinə bərəkət verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də bərəkət ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən!

[2] Nəvasib: ərəbcə nasibi sözünün cəmidir. Bu, Əli ibn Əbu Talibə ﷺ və onun tərəfdarlarına nifrət edən, onları söyən, onları zalım, fasiq hesab edən, onlarla ədavət aparan batil bir firqədir.

[3] Məcmu Fətəva, 4/297-298.

## "Hüseyn ﵁ əmirə qarşı çıxmışdır" deyənlərə verilən cavab

Hadisələri araşdıran bəzi tarixçilər imam Hüseynin əmirə qarşı çıxdığını, başına gələn müsibəti də onun cəzası olduğunu söyləmiş və beləliklə də, bu xüsusda batil fikir yürütmüşlər. Hələ bir arsızcasına Peyğəmbərin ﷺ hədisini də dəlil gətirmişlər. Peyğəmbər ﷺ demişdir:

﴿ إِنَّهُ سَتَكُونُ هَنَاتٌ وَهَنَاتٌ فَمَنْ أَرَادَ أَنْ يُفَرِّقَ أَمْرَ هَذِهِ الأُمَّةِ وَهْيَ جَمِيعٌ فَاضْرِبُوهُ بِالسَّيْفِ كَائِنًا مَنْ كَانَ ﴾

**"(Vaxt gələcək) araya fitnə-fəsad və ixtilaf düşəcək. O zaman kim müsəlmanların birliyini parçalamaq istəsə, kimliyindən asılı olmayaraq, qılıncla onun boynunu vurun".**[1]

Bu və bu kimi hədislərdən belə nəticə çıxır ki, müsəlmanların əmirinə qarşı çıxan kimsənin qaldırdığı fitnəni yatırtmaq və həmin şəxsi öldürmək lazım gələrsə, onu öldürmək vacibdir. Məsələn, kərramilər[2] deyirlər ki, Hüseyn Yezidə qarşı çıxmış və bu səbəbdən də qətlə yetirilmişdir.

---

[1] Səhih Muslim, 4902.

[2] Muhəmməd ibn Kərramın davamçılarıdır. Allahın ad və sifətlərini təhrif edən batil firqələrdən biridir.

Bəzi tarixçilər də, tam əksinə, Hüseynin Yezidə qarşı çıxmağının vacib olduğunu, şəriət baxımından düz elədiyini söyləyirlər.[1]

Biz bu deyilənləri bir kənara qoyub tarixi faktları təhlil etsək görərik ki, həzrəti Hüseyn Yezidə əsla beyət etməmiş və Yezidin şuranın qərarı ilə deyil, varislliklə xilafətə gəlməyinin əleyhinə olmuşdur. Onunla bərabər Abdullah ibn Zubeyr də əməvilərin bu addımını tənqid etmişdir. Hüseyn ibn Əli və Abdullah ibn Zubeyr öz tərəfdarlarını bir yerə toplayıb ancaq haqqı bərqərar etmək istəmişlər. Nə Hüseyn, nə də Abdullah bütün bunları hakimiyyət uğrunda etməmişdir. Hüseyn şəriət baxımından heç bir xətaya yol verməmişdir. Əbu Hureyradan rəvayət olunmuş hədis buna dəlildir. Həmin hədisdə Peyğəmbər ﷺ belə demişdir:

﴿ الصَّلاةُ إِلَى الصَّلاةِ الَّتِي قَبْلَهَا كَفَّارَةٌ وَالْجُمُعَةُ إِلَى الْجُمُعَةِ الَّتِي قَبْلَهَا كَفَّارَةٌ وَالشَّهْرُ إِلَى الشَّهْرِ الَّذِي قَبْلَهُ كَفَّارَةٌ إِلاَّ مِنْ ثَلاثٍ ﴾

“Fərz namazı növbəti fərz namazınadək, habelə cümə namazı növbəti cümə namazınadək, ramazan ayı da növbəti ramazan ayınadək arada olan günahların kəf-

[1] Neyl əl-Əvtar, 7/362.

farəsidir.[1] Yalnız üç şeydən başqa”. Sonra Əbu Hureyra davam edib demişdir: “Mən başa düşdüm ki, bu üç şey: Allaha şərik qoşmaq, sazişi pozmaq və sünnəni tərk etməkdir. Sazişi pozmaq deyildikdə bir adama beyət etdikdən sonra qılınc götürüb onunla vuruşmaq nəzərdə tutulur. Sünnəni tərk etmək deyildikdə isə camaatdan ayrılmaq qəsd edilir”.[2]

Hüseynin Yezidə qarşı vuruşmaq fikri olmamışdı. O düşünürdü ki, İraq əhli onu dəstəkləyəcək və o bu işi Allahın və Onun peyğəmbərinin buyurduğu kimi həll edəcək. İraq əhlinin ona xəyanət etdiyini, onu qoyub qaçdığını görəndə fikrini dəyişib geri dönmək istəmişdir.[3] Lakin ibn Ziyad buna yol verməmiş, onu alçaltmaq üçün Yezidin ona buyurmadığı bir əmri ondan tələb etmişdir. Təbii ki, Hüseyn onun qabağında alçalmamış və onun bu təklifini rədd etmişdir. Əgər Hüseyn ibn Ziyadın hakimiyyətini qəbul etmiş olsaydı, həm öz adına, həm də əhli-beytin adına ləkə yaxmış olardı. Çünki belə təklifləri vaxtı ilə Allahın Rəsulu kafirlərə edərdi.

---

[1] Kəffarə: günahların bağışlanılması üçün şəriətin buyurduğu qaydada verilən cəza, yaxud deyilən söz və ya verilən sədəqə.

[2] Müsnəd imam Əhməd, 5/44.

[3] Minhac əs-Sünnə, 4/42.

Yoxsa ibn Ziyad özünü mömin, Hüseyni isə kafir sayırdı?! Axı, ibn Ziyad Hüseynin heç çölə atılan dırnağı ola bilməzdi. Hüseyn hara, ibn Ziyad hara! Bu davranışlar bir şeyi açıq-aydın sübut edir ki, nə vəzifə, nə var-dövlət, nə də başqa bu kimi fani şeylər insanın hörmətini ucalda bilməz. Neçə-neçə zalım padşahlar gəlib-getmişlər ki, onları heç kəs xatırlamır, xatırlayanda da yalnız qarğışla xatırlayırlar. Amma neçə-neçə əməlisaleh insanlar olmuşlar ki, Allah onların təriflərini dillər əzbəri etmişdir. Allahın rizasını qazanmış Hüseyn də belələrindən idi. İbn Ziyad ona qarşı haqsızlıq etdikdə, onu özünə tabe etdirmək istədikdə o, ibn Ziyada boyun əyməmişdir. Həqiqətən də, ibn Ziyad fasiqə layiq bir hərəkət etməklə tarixdə özünə məxsus ad qoymuşdur.

Bir də ki, səhabələrin Hüseynə nəsihət etməsi heç də onun səhv addım atmağı demək deyildir. Səhabələr sadəcə onun qətlə yetiriləcəyindən ehtiyat edirdilər. Bu xüsusda ibn Xəldun demişdir: “Hüseyn İraq əhlindən olan xainlərə inanmaqla dünyəvi bir işdə xətaya yol vermişdir. Belə işlərdə də xətaya yol verməyin qorxusu yoxdur. Şəriət baxımından isə Hüseyn heç bir xətaya yol verməmişdir. O, sadəcə (əməvilərin) bu səhvini düzəldə

biləcəyini güman edirdi”.[1] Çünki Peyğəmbər ﷺ səhabələrinə belə buyurmuşdur:

﴿ مَنْ رَأَى مِنْكُمْ مُنْكَرًا فَلْيُغَيِّرْهُ بِيَدِهِ فَإِنْ لَمْ يَسْتَطِعْ فَبِلِسَانِهِ فَإِنْ لَمْ يَسْتَطِعْ فَبِقَلْبِهِ وَذَلِكَ أَضْعَفُ الإِيمَانِ ﴾

“Sizdən biriniz (kimsənin) yaramaz bir iş tutduğunu görsə, onu əli ilə düzəltsin. Bunu bacarmasa, dili ilə, onu da bacarmasa, qoy qəlbi ilə bu yaramaz işə nifrət etsin. Bu isə imanın ən zəif yeridir”.[2]

Bundan başqa Hicazda, Misirdə, İraqda, Şamda və digər ölkələrdə məskunlaşmış səhabələr buna görə Hüseynə irad tutmamışlar, onu günahlandırmamışlar, əksinə, onun ictihad etdiyini, beləliklə də, digərlərinə gözəl nümunə olduğunu etiraf etmişlər.[3]

İbn Teymiyyə demişdir: “Peyğəmbərin ﷺ camaatdan ayrı düşən müsəlmanın cəzalandırılmasına dair varid olan hədislərini heç bir vəchlə Hüseynə şamil etmək olmaz. Çünki Hüseynin camaatdan ayrılmaq fikri olmamışdır, əksinə, onu camaatın yanına qayıtmaq istəyi olduğu halda qətlə yetirmişlər.”[4]

---

[1] Müqəddimətu ibn Xəldun, 1/291.
[2] Səhih Muslim, 186.
[3] İstişhad əl-Hüseyn, 1/91.
[4] Əvvəlki mənbə.

# İmam Hüseyn ﷺ harada dəfn edilmişdir?

İbn Ziyadın adamları imam Hüseynin başını kəsib apardıqdan sonra onun bədəni Kərbəlada, daha dəqiq desək Taf deyilən yerdə qalmış və çox güman ki, elə oradaca dəfn edilmişdir.

Onun başının harada dəfn edildiyinə gəlincə, bu xüsusda tarixçilər müxtəlif rəylər nəql etmişlər:

– bəziləri onun Dəməşqdə dəfn edildiyini iddia etmiş və bunu da Əbu Kureybin rəvayəti ilə əsaslandırmışlar. Əbu Kureyb demişdir: "Mən Dəməşqdə Vəlid ibn Yezidin üstünə hücum edənlərin arasında idim. Həmin vaxt əlimə bir zənbil keçdi və mən öz-özümə: "Bu mənim qismətimdir"- dedim və atıma minib Tumə qapısından şəhərdən kənara çıxdım. Zənbili açdıqda onun içində baş, üstündə də "bu Hüseyn ibn Əlinin başıdır" yazısını gördüm və onu elə oradaca dəfn elədim".[1]

Bu, olduqca zəif rəvayətdir.[2]

– bəziləri onun Kərbəlada dəfn edildiyini iddia etmişlər. Guya ölümündən qırx gün keçdikdən sonra onun

[1] Siyər Əlam ən-Nubələ, 3/316.

[2] Mövquf əl-Muarada, səh: 313.

başını gətirib bədəninin yanında basdırmışlar. Dediklərini əsaslandırmaq üçün isə heç bir dəlil-sübut gətirməmişlər. Əbu Nueym Fədl ibn Dukeyn bu rəyi qətiyyətlə inkar etmişdir.[1]

– bəziləri onun Riqqada dəfn edildiyini iddia etmişlər. Guya o zaman onun başı Yezid ibn Müaviyənin yanına gətirildikdə o demişdir: "Mən bunu Əbu Muitin ailəsinə göndərəcəyəm. Onlar da Riqqada yaşayırlarmış. Beləliklə, onun başı Əbu Muitin evində qalmış, sonralar isə o evin üstündə məscid bina edilmişdir".[2]

Bu, uydurma bir rəvayətdir.[3]

– bəziləri onun Əsqəlanda dəfn edildiyini iddia etmişlər. Lakin islam alimlərinin böyük əksəriyyəti[4] bu xəbəri inkar etmişlər.

– bəziləri onun Qahirədə dəfn edildiyini iddia etmişlər. Guya səlib yürüşlərinin birində müsəlmanlar onun başını Əsqəlandan Qahirəyə aparmışlar.[5] İbn Dəqiq əl-İd, Əbu Muhəmməd ibn Xələf əd-Dimyati, Əbu Muhəmməd ibn əl-Qəstillani, Əbu Abdullah əl-Qurtubi və digər İs-

---

[1] Tarix Bağdad, 1/143-144.
[2] Şəxsiyyat əl-İslamiyyə, 3/298.
[3] Siyər Əlam ən-Nubələ, 23/297.
[4] ət-Təzkira, 2/295; əl-Bidayə vən-Nihayə, 11/582.
[5] Nur əl-Bəsair, səh: 121.

lam alimləri onun başının Əsqəlanda və ya Qahirədə dəfn edildiyinin yalan oluduğunda həmrəydirlər.[1]

– bəziləri də onun Mədinədə, anası Fatimeyi-Zəhranın qəbrinin yanında dəfn edildiyini rəvayət etmişlər. İbn Səd demişdir: "Yezid onu Mədinənin valisi Amr ibn Səidə göndərmiş, o da onu kəfənləyib Bəqiul-ğarqadda,[2] anası Fatimənin yanında dəfn etmişdir".[3] İbn Teymiyyə demişdir: "O dövrdə fitnə zamanı qətlə yetirilmiş belə adamları adətən Bəqidə dəfn edirdilər..."[4]

Əbu Yələ əl-Həmədani demişdir: "Hüseynin başı anası Fatimənin رضي الله عنها yanında dəfn edilmişdir".[5]

Alimlərin daha çox üstünlük verdiyi rəy məhz bu rəydir. Bu məsələni daha çox araşdırmış Zubeyr ibn Bəkkar özünün "Ənsab Qureyş" adlı kitabında qeyd etmişdir ki, Hüseyn ibn Əlinin başı Mədinəyə aparılıb orada dəfn edilmişdir.[6]

---

[1] Ras əl-Hüseyn, səh: 186-187; əl-Bidayə vən-Nihayə, 11/582.

[2] Bəqiul-ğarqad Mədinə qəbirstanlığının adıdır. Bəqi – içində ağac kötüklərinin olduğu ərazi, ğarqad isə bu ərazidə bitən tikanlı bir ağacın adıdır.

[3] Təbəqat, 5/238; Tarix əl-İslam, səh: 20.

[4] Ras əl-Hüseyn, səh: 183.

[5] ət-Təzkira, 2/295.

[6] Məcmu Fətəva, 4/509.

## Müsibət üz verdikdə nə etməli?

Müsəlmanın başına bir müsibət gəldikdə Allahın və Onun peyğəmbərinin öyrətdiyi kimi olub-keçənlərə səbir etməli, bu müsibətə səbir etdiyinə görə savabını Allahdan ummalı, razılıq əlaməti olaraq Allaha dua etməli, Allahı qəzəbə gətirəcək küfr sözlər danışmamalı, cahiliyyət dövründə olduğu kimi yaramaz hərəkətlərə yol verməməli, müsəlman ümmətinin başına gəlmiş ən böyük müsibəti – Peyğəmbərin ﷺ vəfatını xatırlamalı, digər nemətlərə baxıb şükür etməli, qəzavü-qədərin Allahdan olmasına tam yəqinliklə iman gətirməli, hər bir çətinlikdən sonra asanlığın gələcəyinə ümid etməli və müsibətin gəlməyinə səbəb olmuş insanların gec-tez cəzalarını alacaqlarına yəqinliklə inanmalıdır. Gəlin bu deyilənlərə ayrı-ayrılıqda nəzər salaq:

**a) Səbir etmək;**

Qurani Kərimdə Uca Allah bizləri imtahana çəkəcəyini bildirib deyir: **"Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq."**[1] Sonra da Öz peyğəmbərinə ﷺ bu müsibətlərə səbir edənləri müjdələməyi əmr edib buyurur ki: **"Səbir edən-**

---

[1] "əl-Bəqərə" surəsi 155.

**lərə müjdə ver".**[1] Bu ayədən belə nəticə çıxır ki, insanlara üz vermiş müsibətlərin hamısı Allahdan gəlir. Müdrik Allah bu müsibətlərlə kimisini cəzalandırır, kimisini də çox istədiyindən imtahana çəkir. İmtahana çəkdiyi müsəlman bəndələrinin arasında da kimisi buna səbir edir, kimisi də müsəlman olmağına baxmayaraq səbirsizlik edib vay-şivən salaraq Allahın yazdığı qədərə narazılığını bildirir. Səbir edənlərin də hamısı ilk sarsıntı anında səbir edə bilmir. Ənəs ibn Malik ﵁ rəvayət edir ki, (bir dəfə) Peyğəmbər ﷺ bir qəbrin başında durub ağlayan qadının yanından keçərkən (ona) buyurdu ki: "Allahdan qorx və səbirli ol!" Qadın onun kim olduğunu bilməyib dedi: "Əl çək məndən! Mənim başıma gələn müsibət sənin başına gəlməyib." Qadına: "Bu, Peyğəmbər ﷺ idi"– dedilər. Bundan sonra o, Peyğəmbərin ﷺ qapısının yanına gəldi və orada gözətçilərə rast gəlmədi. Qadın (üzrxahlıq edib): "Mən səni tanımamışam"– dedi. Peyğəmbər ﷺ buyurdu:

﴿ الصَّبْرُ عِنْدَ الصَّدْمَةِ الأُولَى ﴾

**"İlk sarsıntı anında səbir etmək lazım idi!"**[2]

---

[1] Həmin ayə.

[2] Səhih əl-Buxari, 1283.

Allahdan gələn müsibətlərə səbir edən möminlərə isə **"öz Rəbbi tərəfindən təriflər və mərhəmət vardır. Məhz onlar doğru yolda olanlardır".**[1] Bu böyük nemət isə hər kəsə nəsib olmur. Biləsiniz ki: "Səbir etməyə çalışan kimsəni Allah səbirli olmağa müvəffəq edər. Heç kəsə səbirdən daha xeyirli və daha böyük nemət verilməmişdir".[2]

**b) Müsibətə səbir edib savabını Allahdan ummaq;**

Müsibət gəldiyi zaman ona səbir edən və bu səbirin savabını Allahdan uman hər bir mömin Qiyamət günü mükafatanı artıqlaması ilə alar və ona haqsızlıq edilməz. Peyğəmbər ﷺ demişdir:

﴿ يَقُولُ اللَّهُ تَعَالَى: مَا لِعَبْدِي الْمُؤْمِنِ عِنْدِي جَزَاءٌ إِذَا قَبَضْتُ صَفِيَّهُ مِنْ أَهْلِ الدُّنْيَا ثُمَّ احْتَسَبَهُ إِلاَّ الْجَنَّةُ ﴾

"Uca Allah buyurur: "Mən mömin qulumun sevdiyi yaxın bir adamının canını aldıqdan sonra o buna (səbir edib axirətdə əvəzini alacağına) ümid edərsə, Mənim ona verəcəyim mükafat ancaq Cənnət olar".[3]

---

[1] "əl-Bəqərə" surəsi 157.
[2] Səhih əl-Buxari, 1469.
[3] Səhih əl-Buxari, 6424.

Qiyamət qopduğu zaman Allah Cəhənnəm əhlinə belə buyuracaq:

﴿ إِنَّهُۥ كَانَ فَرِيقٌ مِّنْ عِبَادِي يَقُولُونَ رَبَّنَآ ءَامَنَّا فَٱغْفِرْ لَنَا وَٱرْحَمْنَا وَأَنتَ خَيْرُ ٱلرَّٰحِمِينَ ﴿١٠٩﴾ فَٱتَّخَذْتُمُوهُمْ سِخْرِيًّا حَتَّىٰٓ أَنسَوْكُمْ ذِكْرِي وَكُنتُم مِّنْهُمْ تَضْحَكُونَ ﴿١١٠﴾ إِنِّي جَزَيْتُهُمُ ٱلْيَوْمَ بِمَا صَبَرُوٓاْ أَنَّهُمْ هُمُ ٱلْفَآئِزُونَ ﴿١١١﴾ ﴾

**"Həqiqətən, qullarımdan bir zümrə var idi ki, onlar: "Ey Rəbbimiz! Biz iman gətirdik. Bizi bağışla, bizə rəhm et! Sən rəhm edənlərin ən yaxşısısan!"– deyirdilər. Siz isə onları məsxərəyə qoyurdunuz. Sonda bu** ***məsxərə*** **Məni yada salmağı belə sizə unutdurdu. Siz onlara gülürdünüz. Bu gün Mən səbir etdiklərinə görə onları mükafatlandırdım. Şübhəsiz ki, uğur qazananlar da onlardır!"**[1]

Digər ayədə Allah buyurur:

﴿ أُوْلَٰٓئِكَ يُجْزَوْنَ ٱلْغُرْفَةَ بِمَا صَبَرُواْ وَيُلَقَّوْنَ فِيهَا تَحِيَّةً وَسَلَٰمًا ﴿٧٥﴾ خَٰلِدِينَ فِيهَا حَسُنَتْ مُسْتَقَرًّا وَمُقَامًا ﴿٧٦﴾ ﴾

**"Onlar səbir etdiklərinə görə** ***Cənnətdə olan*** **yüksək məqamla mükafatlandırılacaq, orada xeyir-dua ilə,**

[1] "əl-Muminun" surəsi, 109-111.

**salamla qarşılanacaqlar. Onlar orada əbədi qalacaqlar. Ora nə gözəl məskən, necə də gözəl iqamətgahdır!"**[1]

Həmçinin Peyğəmbər ﷺ demişdir:

﴿ ما يصيب المسلم من نصب ولا وصب ولاهم ولا حزن ولا أذى ولا غم حتى الشوكة يشاكها إلا كفر الله بها من خطاياه ﴾

"Müsəlmana üz vermiş elə bir yorğunluq, elə bir naxoşluq, elə bir kədər, elə bir üzüntü, elə bir əziyyət, elə bir dərd, hətta (ayağına) batan elə bir tikan yoxdur ki, onun sayəsində Allah (həmin) müsəlmanın günahlarını bağışlamasın"."

**c) Razılıq əlaməti olaraq Allaha dua etmək;**

Yəni, "İnna lillahi və inna ileyni raciun"[2] demək. Ərəbcə buna istirca deyilir. Allah Quranda Öz mömin bəndələrini vəsf edib belə deyir:

﴿ وَبَشِّرِ ٱلصَّٰبِرِينَ ﴿١٥٥﴾ ٱلَّذِينَ إِذَآ أَصَٰبَتۡهُم مُّصِيبَةٌ قَالُوٓاْ إِنَّا لِلَّهِ وَإِنَّآ إِلَيۡهِ رَٰجِعُونَ ﴿١٥٦﴾ أُوْلَٰٓئِكَ عَلَيۡهِمۡ صَلَوَٰتٌ مِّن رَّبِّهِمۡ وَرَحۡمَةٌ وَأُوْلَٰٓئِكَ هُمُ ٱلۡمُهۡتَدُونَ ﴿١٥٧﴾ ﴾

**"Səbir edənlərə müjdə ver. O kəslər ki, onlara bir müsibət üz verdikdə: "Biz, Allaha məxsusuq və Ona da**

---

[1] "əl-Furqan" surəsi, 75-76.

[2] Ərəbcəsi: إِنَّا لِلَّهِ وَإِنَّآ إِلَيۡهِ رَٰجِعُونَ

Tərcüməsi: Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!

**qayıdacağıq!"– deyirlər. Onlara öz Rəbbi tərəfindən təriflər və mərhəmət vardır. Məhz onlar doğru yolda olanlardır".**[1]

Peyğəmbərimiz ﷺ isə bu xüsusda belə demişdir:

﴿ مَا مِنْ مُسْلِمٍ تُصِيبُهُ مُصِيبَةٌ فَيَقُولُ مَا أَمَرَهُ اللَّهُ إِنَّا لِلَّهِ وَإِنَّا إِلَيْهِ رَاجِعُونَ اللَّهُمَّ أْجُرْنِى فِى مُصِيبَتِى وَأَخْلِفْ لِى خَيْرًا مِنْهَا. إِلاَّ أَخْلَفَ اللَّهُ لَهُ خَيْرًا مِنْهَا ﴾

"Başına bir müsibət gəlmiş elə bir müsəlman yoxdur ki, Allahın ona buyurduğu kimi: "Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq! Allahım, başıma gələn müsibət sayəsində məni mükafatlandır və əvəzinə ondan da xeyirlisini ver!"[2]- desin, Allah da ona bundan xeyirlisini vermiş olmasın".[3]

Həmçinin demişdir:

﴿ من أصابه هم أو غم أو سقم أو شدة فقال : الله ربي لا شريك له كشف ذلك عنه ﴾

"Başına bir sıxıntı, yaxud bir kədər, yaxud bir xəstəlik, yaxud da bir çətinlik gəlmiş hər kim dua edib: "Rəb-

---

[1] "əl-Bəqərə" surəsi, 155-157.

[2] Ərəbcəsinin transkripsiyası: İnnə lillahi və inna ileyhi raciun, Allahummə əcurni fi musibəti və əxlif li xayran minhə.

[3] Səhih Muslim, 2165.

bim Allahdır, Onun heç bir şəriki yoxdur!"[1]- desə, başına gələn müsibət aradan qaldırılar".[2]

Həmçinin o, dua edib deyərdi:

﴿ اللهم رحمتك أرجو فلا تكلني إلى نفسي طرفة عين و أصلح لي شأني كله لا إله إلا أنت ﴾

"Allahım! Səndən, mənə mərhəmət etməyini diləyirəm! Məni bir göz qırpımı belə başlı-başına buraxma! Mənim bütün işlərimi yoluna qoy. Səndən başqa ibadətə layiq olan məbud yoxdur![3]".[4]

**ç) Allahı qəzəbə gətirəcək küfr sözlər danışmamaq və cahiliyyət dövründə olduğu kimi yaramaz hərəkətlərə yol verməmək;**

Müsibət gəldiyi zaman bəzi adamlar zamanı söyürlər və heç də anlamırlar ki, zəmanəni söyməklə onlar əslində Allahı söymüş olurlar. Rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir[5]:

---

[1] Ərəbcəsinin transkripsiyası: Allahu Rabbi, lə şərikə ləh.

[2] əl-Cami əs-Səğir, 10984.

[3] Ərəbcəsinin transkripsiyası: Allahummə, rahmətəkə ərcu, fələ təkilni ilə nəfsi tarfətə aynin, və əslih li şəni kulləh, lə ilahə illə əntə.

[4] Səhih Tərğib vət-Tərhib, 1823.

[5] Təbərinin təfsirində hədisin əvvəli səhih isnadla belə rəvayət edilmişdir: "Cahiliyyət dövründə insanlar: "Bizi, gecə və gündüz həlak edir! Bizi həlak edən də, öldürən də, dirildən də odur!"– deyərdilər." Allah da Öz kitabında belə buyurdu: "Onlar dedilər: ***"Həyat*** **ancaq bizim dünya həyatımız-**

﴿ قَالَ اللَّهُ عَزَّ وَجَلَّ: يُؤْذِينِي ابْنُ آدَمَ يَسُبُّ الدَّهْرَ وَأَنَا الدَّهْرُ بِيَدِي الأَمْرُ أُقَلِّبُ اللَّيْلَ وَالنَّهَار ﴾

“Qüdrətli və əzəmətli Allah buyurur: “Adəm övladı zamanı söyməklə Mənə əziyyət verir. Çünki dəhr Mənəm! Hər şey Mənim Əlimdədir, gecəni gündüzə, gündüzü də gecəyə çevirən Mənəm![1]”[2]

Habelə belə hallarda ifrata varmaqla ölən adamı həddən ziyadə tərif etmək də qadağandır. Baxın Peyğəmbər ﷺ öz səhabələrinə və əhli-beytinə nə vəsiyyət etmişdir. O demişdir:

﴿ لاَ تُطْرُونِى كَمَا أَطْرَتِ النَّصَارَى ابْنَ مَرْيَمَ، فَإِنَّمَا أَنَا عَبْدُهُ، فَقُولُوا عَبْدُ اللَّهِ وَرَسُولُهُ ﴾

“Xristianlar Məryəm oğlunu *tərifləyib* şişirtdikləri kimi, siz də məni şişirtməyin! Mən sadəcə Allahın quluyam. Elə isə *mənə*: “Allahın qulu və rəsulu!”- deyin.”[3] Hədisdən göründüyü kimi heç Allahın Rəsulunu, bəşəriyyətin ən fəzilətlisini belə həddən ziyadə tərif etmək olmaz.

---

**dır. *Kimimiz* ölür, *kimimiz də* doğulur. Bizi öldürən ancaq zamandır.”** Bu haqda onların heç bir biliyi yoxdur. Onlar ancaq zənnə qapılırlar”– onlar dəhri (yəni zamanı) söyürlər......”

[1] “əd-Duxan” surəsi, 10-16.

[2] Səhih əl-Buxari, 4826.

[3] Səhih əl-Buxari, 3445.

Habelə müsibət gəldiyi zaman fəryad qoparıb ağlamağı da şəriət bizə qadağan etmişdir. Bu xüsusda Peyğəmbər ﷺ demişdir:

﴿ لَيْسَ مِنَّا مَنْ لَطَمَ الْخُدُودَ، وَشَقَّ الْجُيُوبَ، وَدَعَا بِدَعْوَى الْجَاهِلِيَّةِ ﴾

"Üz-gözünə döyən, paltarının yaxasını cıran və cahiliyyət dövründə deyilən sözləri deyən kimsə bizdən deyildir[1]".[2]

Rəvayət edilir ki, *bir dəfə* Əbu Musa ﷺ ağır xəstələndi və başı zövcələrindən birinin qucağında ikən bayıldı. Bu vaxt zövcəsi *fəryad qoparıb* ağlamağa başladı və Əbu Musa ona heç nə deyə bilmədi. Ayıldıqda isə dedi: "Peyğəmbərin ﷺ uzaq olduğu kimsədən mən də uzağam. Həqiqətən, Peyğəmbər ﷺ *müsibət üz verdikdə* vay-şivən salıb ağlayan, başını qırxdıran və paltarını cıran kimsədən uzaqdır!"[3]

Habelə rəvayət edilir ki, Ummu Ətiyyə demişdir: "Beyət[4] əsnasında Peyğəmbər ﷺ ölü üçün vay-şivən salıb ağlamayacağımıza dair bizdən əhd almışdı...."[5]

---

[1] Ölüyə ağladıqda həddi aşan hər kəs Peyğəmbərin ﷺ sünnəsinə zidd hərəkət etmiş hesab olur.

[2] Səhih əl-Buxari, 1294.

[3] Səhih əl-Buxari, 1296.

[4] Peyğəmbərin ﷺ dəvətini qəbul edərək ona müti və sadiq olmağa dair söz vermək.

[5] Səhih əl-Buxari, 1306.

**d) Müsəlman ümmətinin başına gəlmiş ən böyük müsibəti – Peyğəmbərin ﷺ vəfatını xatırlamaq;**

Peyğəmbərin ﷺ dünyadan köçməsi, həqiqətən də, müsəlman ümmətinin başına gəlmiş ən böyük müsibətdir. Başına müsibət gəlmiş hər bir müsəlman o müsibəti xatırlamaqla təsəlli tapa bilər. Peyğəmbərin ﷺ vəsiyyəti də belə olmuşdur. Peyğəmbər ﷺ ölümündən qabaq xəstələnib yatağa düşdüyü zaman qapıdan asılmış pərdəni qaldırmış və camaatın Əbu Bəkrin arxasında namaz qıldığını görüb demişdir:

﴿ إذا أصاب أحدكم مصيبة فليذكر مصيبته بي فإنها من أعظم المصائب ﴾

“Hansı birinizin başına bir müsibət gəlsə, qoy mənim ölümümü yada salmaqla özünə təsəlli versin; bilsin ki, başına nə cür müsibət gəlmiş olsa da, bu müsibətdən daha böyük ola bilməz”.[1] Bu xüsusda şair demişdir:

Səbir et müsibətə, sən möhkəm dayan,
Bil, əbədi yaşayan, deyildir insan.
Əgər bir bəlaya, mübtəla olsan,
Gərək Peyğəmbəri, yada salasan.[2]

**e) Digər nemətlərə baxıb şükür etmək;**

---

[1] Şöəbul-İman, 10152; Səhih əl-Cami, 347.
[2] Təfsir əl-Qurtubi, 2/176; ət-Təmhid, 19/323;

Məsələn birisinin ayağı zədələnmişsə, şükür etsin ki, sınmamışdır, əgər sınmışdırsa, şükür etsin ki, yerli-dibli kəsilib ayaqsız qalmamışdır. Həqiqətən də, sağlamlıq elə bir nemətdir ki, insanların əksəriyyəti onun qədrini bilmir, onu layiqincə qorumur və ondan lazımınca istifadə etmir. Əgər biz başına müsibət gəlmiş şikəst insanlara diqqətlə baxsaq özümüzün sağlamlığına gecə-gündüz şükür edərik. Peyğəmbər ﷺ demişdir:

﴿ من رأى مبتلى فقال : الحمد لله الذي عافاني مما ابتلاك به وفضلني على كثير ممن خلق تفضيلا لم يصبه ذلك البلاء ﴾

"Hər kim müsibətə düçar olmuş birisini görüb: "Sənə üz vermiş müsibətdən məni salamat edən və məni yaratdıqlarının çoxundan fəzilətli edərək üstün tutan Allaha həmd olsun![1]"- desə, *Allah onu* o bəladan qoruyar".[2]

Allahın verdiyi nemətlərə şükr etməmək müsibətin gəlməsinə bir səbəbdir. Aşağıdakı ibrətamiz hədisə diqqətlə nəzər salın:

"(Vaxtı ilə) Allah İsrail oğullarından üç nəfəri – cüzam xəstəliyinə tutulmuş birisini, keçəli və kor adamı

---

[1] Ərəbcəsinin transkripsiyası: Əlhəmdulillahilləzi afəni mimməbtəlakə bihi və fəddələni alə kəsirin mimmən xələqa təfdilə.

[2] Sünən ət-Tirmizi, 2/253; Silsilətul-Əhadis əs-Səhihə, 2/153.

imtahana çəkmək istədi. Odur ki, onların yanına bir mələk göndərdi. (Mələk insan qiyafəsində əvvəlcə) cüzam xəstəliyinə tutulmuş kimsənin yanına gəlib dedi: "Sənin ən çox istədiyin şey nədir?" O dedi: "Gözəl rəng və gözəl dəri! İnsanlar artıq məndən diksinirlər." Mələk əlini onun vücuduna sürtdü və bu çirkinlik keçib getdi, onun rəngi və dərisi gözəlləşdi. Mələk soruşdu: "Sənin ən çox sevdiyin mal nədir?" O: "Dəvə ya da inəkdir[1]"– deyə cavab verdi. Ona on aylıq boğaz dəvə verildi və mələk dua edib dedi: "(Allah) bunu sənin üçün bərəkətli etsin!"

Sonra mələk keçəlin yanına gəlib dedi: "Sənin ən çox istədiyin şey nədir?" O dedi: "Gözəl saçım (olsun) və bu (keçəllik) məndən getsin. İnsanlar artıq məndən diksinirlər." Mələk əlini onun başına çəkdi və onun keçəlliyi keçib getdi, ona gözəl saç bəxş edildi. Mələk soruşdu: "Sənin ən çox sevdiyin mal nədir?" O: "İnəkdir"– dedi. Ona boğaz inək verildi və mələk dua edib dedi: "(Allah) bunu sənin üçün bərəkətli etsin!"

Bundan Sonra mələk korun yanına gəlib dedi: "Sənin ən çox istədiyin şey nədir?" O dedi: "Allah gözlərimi özümə qaytarsın və mən insanları görə bilim." Mələk

---

[1] Hədisi nəql etmiş İshaq ibn Abdullah tərəddüd edərək cüzam xəstəliyinə tutulmuş kimsənin və keçəlin – ikisindən birinin dəvə, digərinin isə inək istədiyini iki cür rəvayət etmişdir.

əlini (onun gözlərinə sürtdü) və Allah onun gözlərini özünə qaytardı. Mələk soruşdu: "Sənin ən çox sevdiyin mal nədir?" O: "Qoyundur"– dedi. Ona balalı bir qoyun verildi (və mələk dua edib dedi: "Allah bunu sənin üçün bərəkətli etsin!)"

Bundan sonra bu ikisinin[1] heyvanları bala verdi, üçüncüsünün də (qoyunu) balaladı. Bir müddət keçdikdən sonra birinin bir vadi dolusu dəvəsi, o birinin bir vadi dolusu mal-qarası, üçüncüsünün də bir vadi dolusu qoyunu oldu. Sonra mələk ilk dəfə gəldiyi görkəmdə və qiyafədə cüzam xəstəliyinə tutulmuş kimsənin yanına gəlib dedi: "Mən kasıb bir adamam. Səfərdə ikən mənim bütün vəsaitim tükənmişdir. Bu gün mən yalnız və yalnız Allahın köməyi ilə, sonra da sənin köməyinlə (istəyimə) nail ola bilərəm. Sənə gözəl rəng, gözəl dəri və (bu qədər) sərvət bəxş etmiş Allah rizasına mənə bir dəvə ver, onun sayəsində səfərimi başa çatdıra bilim." (Bu adam cavabında ona) dedi: "Düzü, (özümün) o qədər verəcəyim var ki!" (Mələk) ona dedi: "Gərək ki, mən səni tanıyıram. Məgər sən həm cüzam xəstəliyinə tutulmuş, həm insanların diksindiyi, həm də kasıb bir adam deyildinmi? Sonra da Allah sənə (istədiklərini)

[1] Dəvə və inək verilmiş o iki kimsənin.

vermədimi?" Adam dedi: "(Bu var-dövlət) mənə ata-babalarımdan miras qalmışdır." Mələk dedi: "Əgər yalan danışırsansa, Allah səni əvvəlki halına qaytarsın!" Sonra mələk ilk dəfə gəldiyi görkəmdə və qiyafədə keçəlin yanına gəldi və ona da əvvəlkinə dediklərinin eynisini söylədi. Əvvəlki adam ona rədd etdiyi kimi keçəl də ona yox cavabı verdi. (Onda Mələk) dedi: "Əgər yalan danışırsansa, Allah səni əvvəlki halına qaytarsın!" Sonra mələk ilk dəfə gəldiyi görkəmdə və qiyafədə korun yanına gəlib dedi: "Mən kasıb adamam, yolda qalmışam. Səfərdə ikən mənim bütün vəsaitim tükənmişdir. Bu gün mən ancaq və ancaq Allahın köməyi ilə, sonra da sənin köməyinlə (istəyimə) nail ola bilərəm. Sənin gözlərini özünə qaytaran Allah rizasına mənə bir qoyun ver, onun sayəsində səfərimi başa çatdıra bilim." Adam dedi: "(Doğrudur,) mən kor idim, Allah gözlərimi mənə qaytardı, kasıb idim, O mənə var-dövlət nəsib etdi! Odur ki, nə qədər (qoyun) istəyirsənsə, götür. Vallahi ki, bu gün mən sənin Allah rizası üçün götürdüyün şeylərə hədd qoymayacağam." Mələk dedi: "Malını özünə saxla. Bu sizin üçün yalnız bir imtahan idi. Allah səndən razı qaldı, lakin o biri iki dostuna qəzəbi tutdu!"[1]

[1] Səhih əl-Buxari, 3464.

Əvvəlki ümmətlər nankorluqlarına görə məhv olduğu kimi, indiki və gələcək ümmətlər də məhv olacaq. Uca Allah Quranda bizə Səba qövmünü misal çəkir:

﴿ لَقَدۡ كَانَ لِسَبَإٖ فِي مَسۡكَنِهِمۡ ءَايَةٞۖ جَنَّتَانِ عَن يَمِينٖ وَشِمَالٖۖ كُلُواْ مِن رِّزۡقِ رَبِّكُمۡ
وَٱشۡكُرُواْ لَهُۥۚ بَلۡدَةٞ طَيِّبَةٞ وَرَبٌّ غَفُورٞ ١٥ فَأَعۡرَضُواْ فَأَرۡسَلۡنَا عَلَيۡهِمۡ سَيۡلَ ٱلۡعَرِمِ
وَبَدَّلۡنَٰهُم بِجَنَّتَيۡهِمۡ جَنَّتَيۡنِ ذَوَاتَيۡ أُكُلٍ خَمۡطٖ وَأَثۡلٖ وَشَيۡءٖ مِّن سِدۡرٖ قَلِيلٖ ١٦
ذَٰلِكَ جَزَيۡنَٰهُم بِمَا كَفَرُواْۖ وَهَلۡ نُجَٰزِيٓ إِلَّا ٱلۡكَفُورَ ١٧ ﴾

**“Səba *qəbiləsinin* yaşadığı yerdə nişanə – *biri* sağda, *digəri də* solda olan iki bağça var idi. *Onlara:* “Rəbbinizin ruzisindən yeyin və Ona şükür edin. *Budur* gözəl diyar və Bağışlayan Rəbb!”– *deyilmişdi.* Lakin onlar *haqdan* üz döndərdilər, Biz də üstlərinə güclü sel göndərdik. Onların iki bağçasını acı meyvəli, yulğunlu və *içində* bir az sidr ağacı olan iki bağla əvəz etdik. Nankorluqlarına görə onları belə cəzalandırdıq. Məgər biz nankordan başqasını cəzalandırarıqmı?”[1]**

Şair Nizami Gəncəvi bu xüsusda demişdir:

Mal-dövlət bol idi, millət fərəhli,
Fərəhlə gəlirdi hər təzə ili.

---

[1] “Səba” surəsi, 15-17.

Bu rifahdan sonra gəldi elə gün,
Xalq şükür etməyi unutdu bütün.
Təkəbbür onları çıxartdı yoldan,
Çıxdı yadlarından Böyük Yaradan.
Kim nemət verəni yada salmasa,
Şükür eləməsə, razı qalmasa,
Dar olar başına bu geniş cahan,
Onun ruzusu da çıxar qayadan.[1]

**ə) Qəzavü-qədərin Allahdan olmasına tam yəqinliklə iman gətirmək;**

Mömin adam hər bir müsibətin əzəldən Lövhi-məhfuza yazıldığını, həm də Allahın əmri ilə baş verdiyini, üstəlik hər bir müsibətdə hikmət olduğunu düşünsə, başına gələnlərə görə heç vaxt narahatçılıq keçirməz və sadəcə: "Bu, Allahın qədəridir və O, istədiyini edər"[2]-deyər. Uca Alla bu xüsusda belə buyurur:

﴿مَآ أَصَابَ مِن مُّصِيبَةٖ فِي ٱلۡأَرۡضِ وَلَا فِيٓ أَنفُسِكُمۡ إِلَّا فِي كِتَٰبٖ مِّن قَبۡلِ أَن نَّبۡرَأَهَآۚ
إِنَّ ذَٰلِكَ عَلَى ٱللَّهِ يَسِيرٞ ٢٢ لِّكَيۡلَا تَأۡسَوۡاْ عَلَىٰ مَا فَاتَكُمۡ وَلَا تَفۡرَحُواْ بِمَآ
ءَاتَىٰكُمۡۗ وَٱللَّهُ لَا يُحِبُّ كُلَّ مُخۡتَالٖ فَخُورٍ ٢٣﴾

[1] "Yeddi gözəl", səh: 78.
[2] Səhih əl-Cami, 6650.

**“Yer üzündə baş verən və sizin başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, Yazıda *müəyyən edilmiş* olmasın. Şübhəsiz ki, bu, Allah üçün çox asandır. *Allah bunu* əlinizdən çıxana kədərlənməyəsiniz və Onun sizə verdiyinə *həddindən artıq* sevinməyəsiniz deyə *belə izah edir*. Allah heç bir özündən razını, özünü öyəni sevmir.”**[1]

**f) Hər bir çətinlikdən sonra asanlıqların gələcəyinə ümid etmək;**

Uca Allah buyurur:

﴿فَإِنَّ مَعَ ٱلۡعُسۡرِ يُسۡرًا ٥ إِنَّ مَعَ ٱلۡعُسۡرِ يُسۡرٗا ٦﴾

**“Sözsüz ki, hər çətinliyin ardınca asanlıq gəlir. Əlbəttə ki, hər çətinliyin ardınca asanlıq gəlir”.**[2]

Peyğəmbər ﷺ bu xüsusda ibn Abbasa رضي الله عنهما gözəl nəsihətlər etmişdir:

Abdullah ibn Abbas demişdir: “Bir dəfə mən Peyğəmbərin ﷺ arxasında ikən o mənə buyurdu:

﴿يا غلام ! إني أعلمك كلمات احفظ الله يحفظك احفظ الله تجده تجاهك إذا سألت فاسأل الله و إذا استعنت فاستعن بالله و اعلم أن الأمة لو

---

[1] “əl-Hədid” surəsi, 22-23.

[2] “əş-Şərh” surəsi, 5-6.

اجتمعت على أن ينفعوك بشيء لم ينفعوك إلا بشيء قد كتبه الله لك و لو اجتمعوا على أن يضروك بشيء لم يضروك بشيء إلا قد كتبه الله عليك جفت الأقلام و رفعت الصحف ﴾

“Oğul, gəl sənə bəzi şeyləri öyrədim. Allahı qoru,[1] Allah da səni qorusun. Allahı qorusan, Onu qarşında taparsan.[2] İstədikdə, yalnız Allahdan istə, kömək dilədikdə, yalnız Allahdan kömək dilə. Bil ki, insanlar sənə fayda vermək üçün bir yerə toplansalar belə, sənə Allahın yazdığından başqa bir şeylə sənə fayda verə bilməzlər. Həmçinin sənə zərər vermək üçün bir yerə toplansalar belə, Allahın sənin əleyhinə yazdığından başqa bir şeylə

[1] Yəni Allahın qoyduğu hüdudları aşma, buyruqlarını yerinə yetir, qadağan etdiyi şeylərdən çəkin, beləliklə də, Allahın dinini qorumuş olarsan. Uca Allah buyurur: *“Möminlərə deyiləcəkdir:* **“Budur sizə vəd edilən** ***Cənnət!*** **O, hər bir** ***tövbə edib Allaha*** **üz tutan,** ***Onun dinini*** **qoruyan, Mərhəmətli** ***Allahdan Onu*** **görmədən qorxan və** ***Allaha*** **yönəlmiş qəlblə gələn kimsələr üçündür!”** Qaf surəsi, 32-33.

[2] Yəni həmişə nəzarəti sənin üstündə olar, hər zaman sənin köməyinə gələr. Allah Öz peyğəmbərinə və onun sadiq dostu Əbu Bəkrə köməklik göstərməyini Quranda belə vəsf edir: **“Əgər siz** ***Peyğəmbərə*** **kömək etməsəniz,** ***bilin ki,*** **Allah ona artıq kömək göstərmişdir. O vaxt kafirlər onu iki nəfərdən ikincisi olaraq** ***Məkkədən*** **çıxartdılar. O iki nəfər mağarada ikən** ***onlardan*** **biri öz dostuna dedi: “Qəm yemə, Allah bizimlədir!”** ***Bundan sonra*** **Allah ona arxayınlıq nazil etdi, sizin görmədiyiniz döyüşçülərlə ona yardım göstərdi və kafirlərin sözünü alçaltdı...”** ət-Tovbə surəsi, 40.

sənə zərər verə bilməzlər.[1] (Qəzavü-qədəri yazan) qələmlər qaldırılmış, səhifələr qurumuşdur".[2]

Həmçinin demişdir:

﴿واحفظ الله تجده أمامك وتعرف إلى الله في الرخاء يعرفك في الشدة، واعلم أن ما أصابك لم يكن ليخطئك وأن ما أخطأك لم يكن ليصيبك، واعلم أن النصر مع الصبر والفرج مع الكرب وأن مع العسر يسرا﴾

"Allahı qorusan, Onu qarşında taparsan. Firavanlıqda Allahı tanı ki, çətinlikdə də O səni tanısın.[3] Bil ki, elədiyin xəta düz əməl ola bilməzdi, düz əməlin də xəta ola bilməzdi. Bil ki, hər bir səbirdən sonra zəfər gələr, hər bir sıxıntıdan sonra yüngüllük gələr, hər bir çətinlikdən sonra asanlıq gələr".[4]

**q) Müsibətin gəlməyinə səbəb olmuş insanların gec-tez cəzalarını alacaqlarına yəqinliklə inanmaq.**

---

[1] Uca Allah buyurur: **"Əgər sən onlardan: "Göyləri və yeri kim yaratmışdır?"– deyə soruşsan, onlar mütləq: "Allah!"– deyəcəklər. De: "Elə isə bir deyin görək, əgər Allah mənə bir zərər toxundurmaq istəsə, sizin Allahdan başqa ibadət etdikləriniz Onun zərərini aradan qaldıra bilərlərmi? Ya da O mənə bir mərhəmət göstərmək istəsə, onlar Onun mərhəmətinin qarşısını ala bilərlərmi?" De: "Mənə Allah yetər. Təvəkkül edənlər yalnız Ona təvəkkül edirlər!"** əz-Zumər surəsi, 38.

[2] Sünən ət-Tirmizi, 2516; Mişkatul-Məsabih, 5302.

[3] Yəni, firavanlıqda Allahı yad et ki, çətinlikdə də Allah səni yad etsin

[4] Sünən ət-Tirmizi, 2516; Mişkatul-Məsabih, 5302.

Zalımlar elə düşünməsinlər ki, onlara heç kəsin gücü çatmayacaq. Yaradılanlardan heç kəsin gücü çatmasa da, Yaradanın güçü mütləq çatacaq. Uca Allah buyurur:

﴿ أَوَلَمْ يَسِيرُوا۟ فِى ٱلْأَرْضِ فَيَنظُرُوا۟ كَيْفَ كَانَ عَـٰقِبَةُ ٱلَّذِينَ كَانُوا۟ مِن قَبْلِهِمْ ۚ كَانُوا۟ هُمْ أَشَدَّ مِنْهُمْ قُوَّةً وَءَاثَارًا فِى ٱلْأَرْضِ فَأَخَذَهُمُ ٱللَّهُ بِذُنُوبِهِمْ وَمَا كَانَ لَهُم مِّنَ ٱللَّهِ مِن وَاقٍ ﴾

**“Məgər onlar yer üzündə gəzib-dolaşıb özlərindən əvvəlkilərin aqibətinin necə olduğunu görmədilərmi? Onlar bunlardan daha qüvvətli idilər və yer üzündə daha çox iz qoymuşdular. Allah onları günahlarına görə *əzabla* yaxaladı və onları Allahdan qoruyan olmadı”.**[1]

Bu xüsusda Peyğəmbər ﷺ demişdir:

﴿مَنْ كَانَتْ لَهُ مَظْلَمَةٌ لأَحَدٍ مِنْ عِرْضِهِ أَوْ شَيْءٍ فَلْيَتَحَلَّلْهُ مِنْهُ الْيَوْمَ، قَبْلَ أَنْ لاَ يَكُونَ دِينَارٌ وَلاَ دِرْهَمٌ، إِنْ كَانَ لَهُ عَمَلٌ صَالِحٌ أُخِذَ مِنْهُ بِقَدْرِ مَظْلَمَتِهِ، وَإِنْ لَمْ تَكُنْ لَهُ حَسَنَاتٌ أُخِذَ مِنْ سَيِّئَاتِ صَاحِبِهِ فَحُمِلَ عَلَيْهِ﴾

“Qoy birisinin namusuna toxunmaqla və ya ona başqa bir pislik etməklə zülm etmiş adam, dinar və dirhəmin fayda verməyəcəyi gün – (Qiyamət günü) gəlməmişdən əvvəl ondan halallıq diləsin. Əgər (Qiyamət günü) onun savabı olarsa, etdiyi zülm qədər savabından götürülər (və zülm etdiyi adama verilər), yox əgər savabı olmazsa, on-

[1] “Ğafir” surəsi, 21.

da zülm etdiyi adamın günahlarından götürülüb onun boynuna qoyular”.[1]

Bu haqda Azərbaycanın dahi şairi belə demişdir:

Bəlli bir şeydir ki, pislik edənlər,
Öz işindən özü çəkəcək zərər.
Eşitməmişsənmi bu məşhur sözü:
“Hər kim quyu qazsa, düşəcək özü”.[2]

❁❁❁

## Allah yolunda səbirli olanların başına gəlmiş bəzi ibrətamiz hekayələr

### – İbrahim peyğəmbərin ﷺ hekayəsi;

قَالَ رَسُولُ اللَّهِ ﷺ: لَمْ يَكْذِبْ إِبْرَاهِيمُ عليه السلام إِلاَّ ثَلاَثَ كَذَبَاتٍ ثِنْتَيْنِ مِنْهُنَّ فِى ذَاتِ اللَّهِ عَزَّ وَجَلَّ، قَوْلُهُ: ﴿إِنِّي سَقِيمٌ﴾ وَقَوْلُهُ: ﴿بَلْ فَعَلَهُۥ كَبِيرُهُمْ هَٰذَا﴾، وَقَالَ: ﴿بَيْنَا هُوَ ذَاتَ يَوْمٍ وَسَارَةُ إِذْ أَتَى عَلَى جَبَّارٍ مِنَ الْجَبَابِرَةِ فَقِيلَ لَهُ إِنَّ هَا هُنَا رَجُلاً مَعَهُ امْرَأَةٌ مِنْ أَحْسَنِ النَّاسِ، فَأَرْسَلَ إِلَيْهِ، فَسَأَلَهُ عَنْهَا. فَقَالَ مَنْ هَذِهِ قَالَ أُخْتِى، فَأَتَى سَارَةَ قَالَ يَا سَارَةُ، لَيْسَ عَلَى وَجْهِ الأَرْضِ مُؤْمِنٌ غَيْرِى وَغَيْرُكِ، وَإِنَّ هَذَا سَأَلَنِى، فَأَخْبَرْتُهُ

[1] Səhih əl-Buxari, 2449.
[2] “Xosrov və Şirin”, səh: 361.

أَنَّكِ أُخْتِى فَلاَ تُكَذِّبِينِى. فَأَرْسَلَ إِلَيْهَا، فَلَمَّا دَخَلَتْ عَلَيْهِ ذَهَبَ يَتَنَاوَلُهَا بِيَدِهِ، فَأُخِذَ فَقَالَ ادْعِى اللَّهَ لِى وَلاَ أَضُرُّكِ. فَدَعَتِ اللَّهَ فَأُطْلِقَ ، ثُمَّ تَنَاوَلَهَا الثَّانِيَةَ، فَأُخِذَ مِثْلَهَا أَوْ أَشَدَّ فَقَالَ ادْعِى اللَّهَ لِى وَلاَ أَضُرُّكِ. فَدَعَتْ فَأُطْلِقَ. فَدَعَا بَعْضَ حَجَبَتِهِ فَقَالَ إِنَّكُمْ لَمْ تَأْتُونِى بِإِنْسَانٍ، إِنَّمَا أَتَيْتُمُونِى بِشَيْطَانٍ. فَأَخْدَمَهَا هَاجَرَ فَأَتَتْهُ، وَهُوَ قَائِمٌ يُصَلِّى، فَأَوْمَأَ بِيَدِهِ مَهْيَا قَالَتْ رَدَّ اللَّهُ كَيْدَ الْكَافِرِ – أَوِ الْفَاجِرِ – فِى نَحْرِهِ، وَأَخْدَمَ هَاجَرَ﴾.

“Peyğəmbər ﷺ demişdir: “İbrahim yalnız üç dəfə yalan danışmışdır. Bunlardan ikisi qüdrətli və əzəmətli Allah üçün idi. (Birinci dəfə) o demişdir: “Mən xəstəyəm!”[1] (İkinci dəfə isə) demişdir: “Xeyr, bunu onların bu böyüyü etmiş olar” [2]. (Üçüncü hadisə isə belə olmuşdur): “Bir gün İbrahim (zövcəsi) Sara ilə qəddar padşahlardan birinin məmləkətinə gəldikdə (padşaha) xəbər verdilər ki, şəhərə bir nəfər gəlib, yanında da çox gözəl bir qadın var”. Padşah (qadının kim olduğunu öyrənmək, ona sahib çıxmaq üçün) onun yanına adam göndərdi. Adam gəlib İbrahimdən: “Bu kimdir?”– deyə soruşdu. İbrahim: “Mənim bacımdır!”– deyə cavab verdi, sonra da Saranın yanına gəlib dedi: “Ey Sara! Yer üzündə bizim ikimizdən başqa mömin olan bir kimsə yoxdur. Bu (padşah) məndən (sənin barəndə) soruşdu. Mən də ona xəbər verdim

[1] “əs-Saffat” surəsi, 89.
[2] “əl-Ənbiya” surəsi, 63.

ki, sən mənim bacımsan. Odur ki, mənim dediyimi təkzib etmə." Çox keçmədən padşah Saranın dalınca adam göndərdi. Sara padşahın yanına gəldikdə, o, qadına yaxınlaşıb ona toxunmaq istədi, lakin qıc olub qaldı. Onda o yalvarıb dedi: "Mənim üçün Allaha dua etsən, sənə pislik etmərəm!" Sara Allaha dua etdi və onun əlləri açıldı. Padşah ikinci dəfə ona toxunmaq istədikdə onun halı əvvəlkindən betər oldu. O yenə yalvarıb dedi: "Mənim üçün Allaha dua etsən, sənə pislik etmərəm!" Sara Allaha dua etdi və onun əlləri açıldı. Padşah gözətçilərdən bəzisini çağırıb dedi: "Siz mənim yanıma insan yox, şeytan gətirmisiniz!" Bundan sonra Padşah (Saranı buraxdı, üstəlik) ona xidmətçi Həcəri də bağışladı. Sara İbrahimin yanına gəldikdə, o, namaz qılırdı. Buna görə də əli ilə işarə etdi ki: "Nə oldu?" Sara dedi: "Allah kafirin, yaxud günahkarın hiyləsini onun öz başında çatlatdı, mənə də xidmətçi olaraq Həcəri bəxş etdi!"[1]

**– Allah yolunda canından keçən uşağın əhvalatı;**

قَالَ رَسُولَ اللَّهِ ﷺ: ﴿كَانَ مَلِكٌ فِيمَنْ كَانَ قَبْلَكُمْ وَكَانَ لَهُ سَاحِرٌ فَلَمَّا كَبِرَ قَالَ لِلْمَلِكِ إِنِّى قَدْ كَبِرْتُ فَابْعَثْ إِلَيَّ غُلاَمًا أُعَلِّمْهُ السِّحْرَ. فَبَعَثَ إِلَيْهِ غُلاَمًا يُعَلِّمُهُ

[1] Səhih əl-Buxari, 3358.

فَكَانَ فِى طَرِيقِهِ إِذَا سَلَكَ رَاهِبٌ فَقَعَدَ إِلَيْهِ وَسَمِعَ كَلاَمَهُ فَأَعْجَبَهُ فَكَانَ إِذَا أَتَى السَّاحِرَ مَرَّ بِالرَّاهِبِ وَقَعَدَ إِلَيْهِ فَإِذَا أَتَى السَّاحِرَ ضَرَبَهُ فَشَكَا ذَلِكَ إِلَى الرَّاهِبِ فَقَالَ إِذَا خَشِيتَ السَّاحِرَ فَقُلْ حَبَسَنِى أَهْلِى. وَإِذَا خَشِيتَ أَهْلَكَ فَقُلْ حَبَسَنِى السَّاحِرُ. فَبَيْنَمَا هُوَ كَذَلِكَ إِذْ أَتَى عَلَى دَابَّةٍ عَظِيمَةٍ قَدْ حَبَسَتِ النَّاسَ فَقَالَ الْيَوْمَ أَعْلَمُ آلسَّاحِرُ أَفْضَلُ أَمِ الرَّاهِبُ أَفْضَلُ فَأَخَذَ حَجَرًا فَقَالَ اللَّهُمَّ إِنْ كَانَ أَمْرُ الرَّاهِبِ أَحَبَّ إِلَيْكَ مِنْ أَمْرِ السَّاحِرِ فَاقْتُلْ هَذِهِ الدَّابَّةَ حَتَّى يَمْضِىَ النَّاسُ. فَرَمَاهَا فَقَتَلَهَا وَمَضَى النَّاسُ فَأَتَى الرَّاهِبَ فَأَخْبَرَهُ فَقَالَ لَهُ الرَّاهِبُ أَىْ بُنَىَّ أَنْتَ الْيَوْمَ أَفْضَلُ مِنِّى. قَدْ بَلَغَ مِنْ أَمْرِكَ مَا أَرَى وَإِنَّكَ سَتُبْتَلَى فَإِنِ ابْتُلِيتَ فَلاَ تَدُلَّ عَلَىَّ. وَكَانَ الْغُلاَمُ يُبْرِئُ الأَكْمَهَ وَالأَبْرَصَ وَيُدَاوِى النَّاسَ مِنْ سَائِرِ الأَدْوَاءِ فَسَمِعَ جَلِيسٌ لِلْمَلِكِ كَانَ قَدْ عَمِىَ فَأَتَاهُ بِهَدَايَا كَثِيرَةٍ فَقَالَ مَا هَا هُنَا لَكَ أَجْمَعُ إِنْ أَنْتَ شَفَيْتَنِى فَقَالَ إِنِّى لاَ أَشْفِى أَحَدًا إِنَّمَا يَشْفِى اللَّهُ فَإِنْ أَنْتَ آمَنْتَ بِاللَّهِ دَعَوْتُ اللَّهَ فَشَفَاكَ. فَآمَنَ بِاللَّهِ فَشَفَاهُ اللَّهُ فَأَتَى الْمَلِكَ فَجَلَسَ إِلَيْهِ كَمَا كَانَ يَجْلِسُ فَقَالَ لَهُ الْمَلِكُ مَنْ رَدَّ عَلَيْكَ بَصَرَكَ قَالَ رَبِّى. قَالَ وَلَكَ رَبٌّ غَيْرِى قَالَ رَبِّى وَرَبُّكَ اللَّهُ. فَأَخَذَهُ فَلَمْ يَزَلْ يُعَذِّبُهُ حَتَّى دَلَّ عَلَى الْغُلاَمِ فَجِىءَ بِالْغُلاَمِ فَقَالَ لَهُ الْمَلِكُ أَىْ بُنَىَّ قَدْ بَلَغَ مِنْ سِحْرِكَ مَا تُبْرِئُ الأَكْمَهَ وَالأَبْرَصَ وَتَفْعَلُ وَتَفْعَلُ. فَقَالَ إِنِّى لاَ أَشْفِى أَحَدًا إِنَّمَا يَشْفِى اللَّهُ. فَأَخَذَهُ فَلَمْ يَزَلْ يُعَذِّبُهُ حَتَّى دَلَّ عَلَى الرَّاهِبِ فَجِىءَ بِالرَّاهِبِ فَقِيلَ لَهُ ارْجِعْ عَنْ دِينِكَ. فَأَبَى فَدَعَا بِالْمِئْشَارِ فَوَضَعَ الْمِئْشَارَ فِى مَفْرِقِ رَأْسِهِ فَشَقَّهُ حَتَّى وَقَعَ شِقَّاهُ ثُمَّ جِىءَ بِجَلِيسِ الْمَلِكِ فَقِيلَ لَهُ ارْجِعْ عَنْ دِينِكَ. فَأَبَى فَوَضَعَ الْمِئْشَارَ فِى مَفْرِقِ رَأْسِهِ فَشَقَّهُ بِهِ حَتَّى وَقَعَ شِقَّاهُ ثُمَّ جِىءَ بِالْغُلاَمِ فَقِيلَ لَهُ ارْجِعْ عَنْ دِينِكَ. فَأَبَى فَدَفَعَهُ إِلَى نَفَرٍ مِنْ أَصْحَابِهِ فَقَالَ اذْهَبُوا بِهِ إِلَى جَبَلِ كَذَا وَكَذَا فَاصْعَدُوا بِهِ الْجَبَلَ فَإِذَا بَلَغْتُمْ ذُرْوَتَهُ فَإِنْ رَجَعَ عَنْ دِينِهِ وَإِلاَّ فَاطْرَحُوهُ فَذَهَبُوا بِهِ فَصَعِدُوا بِهِ الْجَبَلَ فَقَالَ اللَّهُمَّ اكْفِنِيهِمْ بِمَا شِئْتَ. فَرَجَفَ بِهِمُ الْجَبَلُ فَسَقَطُوا وَجَاءَ يَمْشِى إِلَى

الْمَلك فَقَالَ لَهُ الْمَلكُ مَا فَعَلَ أَصْحَابُكَ قَالَ كَفَانيهِمُ اللَّهُ. فَدَفَعَهُ إِلَى نَفَرٍ مِنْ أَصْحَابه فَقَالَ اذْهَبُوا به فَاحْمِلُوهُ فِى قُرْقُورٍ فَتَوَسَّطُوا به الْبَحْرَ فَإِنْ رَجعَ عَنْ دينه وَإِلاَّ فَاقْذفُوهُ. فَذَهَبُوا به فَقَالَ اللَّهُمَّ اكْفنيهِمْ بمَا شئْتَ. فَانْكَفَأَتْ بهِمُ السَّفِينَةُ فَغَرِقُوا وَجَاءَ يَمْشِى إِلَى الْمَلك فَقَالَ لَهُ الْمَلكُ مَا فَعَلَ أَصْحَابُكَ قَالَ كَفَانيهِمُ اللَّهُ. فَقَالَ للْمَلك إِنَّكَ لَسْتَ بِقَاتلِى حَتَّى تَفْعَلَ مَا آمُرُكَ بِهِ. قَالَ وَمَا هُوَ قَالَ تَجْمَعُ النَّاسَ فِى صَعِيدٍ وَاحدٍ وَتَصْلُبُنِى عَلَى جِذْعٍ ثُمَّ خُذْ سَهْمًا مِنْ كِنَانَتِى ثُمَّ ضَعِ السَّهْمَ فِى كَبِدِ الْقَوْسِ ثُمَّ قُلْ بِاسْمِ اللَّهِ رَبِّ الْغُلاَمِ. ثُمَّ ارْمِنِى فَإِنَّكَ إِذَا فَعَلْتَ ذَلكَ قَتَلْتَنِى. فَجَمَعَ النَّاسَ فِى صَعِيدٍ وَاحِدٍ وَصَلَبَهُ عَلَى جِذْعٍ ثُمَّ أَخَذَ سَهْمًا مِنْ كِنَانَتِهِ ثُمَّ وَضَعَ السَّهْمَ فِى كَبِدِ الْقَوْسِ ثُمَّ قَالَ بِاسْمِ اللَّهِ رَبِّ الْغُلاَمِ. ثُمَّ رَمَاهُ فَوَقَعَ السَّهْمُ فِى صُدْغِهِ فَوَضَعَ يَدَهُ فِى صُدْغِهِ فِى مَوْضِعِ السَّهْمِ فَمَاتَ فَقَالَ النَّاسُ آمَنَّا بِرَبِّ الْغُلاَمِ آمَنَّا بِرَبِّ الْغُلاَمِ آمَنَّا بِرَبِّ الْغُلاَمِ. فَأُتِىَ الْمَلكُ فَقِيلَ لَهُ أَرَأَيْتَ مَا كُنْتَ تَحْذَرُ قَدْ وَاللَّهِ نَزَلَ بِكَ حَذَرُكَ قَدْ آمَنَ النَّاسُ. فَأَمَرَ بِالأُخْدُودِ فِى أَفْوَاهِ السِّكَكِ فَخُدَّتْ وَأَضْرَمَ النِّيرَانَ وَقَالَ مَنْ لَمْ يَرْجِعْ عَنْ دِينِهِ فَأَحْمُوهُ فِيهَا. أَوْ قِيلَ لَهُ اقْتَحِمْ. فَفَعَلُوا حَتَّى جَاءَتِ امْرَأَةٌ وَمَعَهَا صَبِىٌّ لَهَا فَتَقَاعَسَتْ أَنْ تَقَعَ فِيهَا فَقَالَ لَهَا الْغُلاَمُ يَا أُمَّهِ اصْبِرِى فَإِنَّكِ عَلَى الْحَقِّ».

Peyğəmbər ﷺ demişdir: “Sizdən əvvəl yaşamış *bir xalqın* padşahı və onun da bir sehrbazı var idi. O qocaldıqda padşaha dedi: “Mən qocalmışam *və artıq ömrüm başa çatıb*. Odur ki, yanıma bir uşaq göndər, ona sehr *etməyi* öyrədim.” Padşah onun yanına bir uşaq göndərdi və sehrbaz ona sehr öyrətməyə başladı. Sehrbazın evi ilə padşahın sarayı arasında bir rahib yaşayırdı. Bir gün

uşaq rahibin yanına gəlib onun danışdıqlarına qulaq asdı və rahibin dedikləri onun xoşuna gəldi. O hər dəfə sehrbazın yanına getdikdə rahibə də baş çəkirdi. O sehrbazın yanına *gec* gəldikdə, sehrbaz: "Nə üçün gecikmisən?"- deyib onu döyür, evə *gec* gəldikdə də *evdəkilər*: "Nə üçün gecikmisən?"- deyib onu döyürdülər. Uşaq rahibə şikayət etdikdə, o dedi: "Sehrbaz səni döymək istədikdə, de ki, ailəm məni ləngitdi. Ailən səni döymək istəsə, de ki, sehrbaz məni ləngitdi." Uşaq beləcə *öz işinə* davam etdi. Nəhayət bir gün o, camaatın yolunu kəsmiş böyük *və qorxunc* bir heyvana rast gəldikdə dedi: "Bu gün mən kimin daha üstün olduğunu – rahibin dininin, yoxsa sehrbazın əməlinin Allaha daha əziz olduğunu biləcəyəm." O *yerdən* bir daş götürüb dedi: "Allahım, əgər rahibin dini Sənin üçün sehrbazın əməlindən daha əzizdirsə, onda bu heyvanı öldür ki, insanlar keçib gedə bilsinlər!" O, daşı atıb heyvanı öldürdü və insanlar öz yollarına davam etdilər. Uşaq rahibin yanına gəlib bunu ona xəbər verdikdə rahib dedi: "Oğlum, bu gün sən məndən də fəzilətlisən. Onlar səni tezliklə sınayacaqlar. Səni sınayacaqları vaxt mənim kim olduğumu onlara bildirmə." *Bu minvalla* uşaq anadangəlmə korları və cüzam xəstəliyinə tutulanları sağaltmağa, habelə insanlara üz

vermiş digər xəstəlikləri də müalicə etməyə başladı. Padşahın yaxın adamlarından birinin gözləri kor olmuşdu. O, *bu uşağın* haqqında eşidəndə çoxlu hədiyyələr götürüb onun yanına gəldi və dedi: "Məni sağalda bilsən, bunların hamısı sənin olacaq!" Uşaq dedi: "Mən heç kəsi sağaltmıram. Sağaldan yalnız *qüdrətli və qüvvətli* Allahdır. Əgər sən Allaha iman gətirsən və Ona dua etsən, O sənin gözlərini açar." O, Allaha iman gətirdi və Ona dua etdi, Allah da onun gözlərini açdı. Sonra o gəlib həmişəki kimi padşahın yanında oturdu. Padşah ondan: "Sənin gözlərini kim sənə qaytardı?"- deyə soruşdu. O: "Mənim Rəbbim!"- deyə cavab verdi. Padşah dedi: "Məgər sənin məndən başqa Rəbbinmi var?" O dedi: "Mənim də Rəbbim, sənin də Rəbbin – Allahdır!" Padşah ona o qədər işgəncə verdi ki, axırda o, uşağı nişan verdi. Uşağı *padşahın hüzuruna* gətirdilər. Padşah ona dedi: "Oğlum! Sən sehrbazlıqda elə bir səviyyəyə gəlib çatmısan ki, anadangəlmə korları və cüzam xəstəliyinə tutulanları sağaldır, həmçinin başqa xəstəlikləri də müalicə edirsən." Uşaq dedi: "Mən heç kəsi sağaltmıram. Sağaldan yalnız *qüdrətli və qüvvətli* Allahdır." Padşah ona da o qədər əzab verdi ki, nəhayət o, rahibin adını verdi. Rahibi *padşahın hüzuruna* gətirdilər. Padşah ona: "Dinindən dön!"– dedi.

Rahib isə buna razı olmadı. Onda padşah mişar gətizdirdi və onu başının tən ortasından mişarlayıb iki hissəyə böldülər. Sonra padşahın yaxın adamını *onun hüzuruna* gətirdilər. Padşah ona: "Dinindən dön!"– dedi. Lakin o buna razı olmadı. Onu da başının tən ortasından mişarlayıb iki hissəyə böldülər. Sonra uşağı *onun hüzuruna* gətirdilər. Padşah ona: "Dinindən dön!"– dedi. Amma o buna razı olmadı. Padşah əsgərlərindən bir neçəsinə tapşırıb dedi: "Onu filan dağa aparın, o dağın zirvəsinə qaldırın və əgər dinindən dönməsə, onu oradan aşağı atın!" Onlar uşağı aparıb dağın başına qaldırdıqda o dedi: "Allahım! Özün istədiyin kimi məni onlardan xilas et!" Bu dəmdə dağ silkələndi və *padşahın əsgərləri* yerə düşdülər. Uşaq isə qayıdıb padşahın yanına gəldi. Padşah soruşdu: "Səninlə gedən əsgərlər necə oldu?" Uşaq dedi: "Allah məni onlardan xilas etdi!" Padşah əsgərlərindən bir neçəsinə tapşırıb dedi: "Onu qayığa mindirib dənizə çıxarın və əgər dinindən dönməsə, onu dənizə atın!" Onlar dənizə çıxanda uşaq dedi: "Allahım! Özün istədiyin kimi məni onlardan xilas et!" Bu vaxt qayıq yırğalandı və *əsgərlər dənizə düşüb* boğuldular. Uşaq isə qayıdıb padşahın yanına gəldi. Padşah soruşdu: "Səninlə gedən əsgərlər necə oldu?" Uşaq dedi: "Allah məni

onlardan xilas etdi!" Sonra o, padşaha dedi: "Sən mənim dediklərimi yerinə yetirməyincə məni öldürə bilməyəcəksən." Padşah soruşdu: "Mən nə etməliyəm?" Uşaq dedi: "Camaatı meydana yığ! Sonra məni ağacın gövdəsində çarmıxa çək. Sonra da mənim ox qabımdan bir ox götürüb onu yaya qoy və: "Bu uşağın Rəbbi Allahın adı ilə!"– deyib oxu mənə at. Əgər belə etsən, məni öldürə bilərsən." Padşah camaatı meydana yığdı və uşağı çarmıxa çəkdi. Sonra onun ox qabından bir ox götürüb onu yaya qoydu və: "Bu uşağın Rəbbi Allahın adı ilə!"– deyib oxu atdı. Ox uşağın gicgahına batdı və o, əlini gicgahına – oxun batdığı yerə qoyub canını tapşırdı. *Meydana toplaşmış* adamlar dedilər: "Biz bu uşağın Rəbbinə iman gətirdik! Biz bu uşağın Rəbbinə iman gətirdik! Biz bu uşağın Rəbbinə iman gətirdik!" *Padşahın tərəfdarları* ona dedilər: "Sənin nədən çəkindiyin yadındadırmı? Vallahi, bu, sənin başına gəldi. Camaatın hamısı iman gətirdi". Onda padşah yolların kənarında xəndəklər qazmağı və bu xəndəklərdə od qalamağı əmr etdi. Sonra da belə buyurdu: "Dinindən dönməyən hər kəsi oda atın!" Nəhayət, qucağında südəmər körpəsi olan bir qadını *xəndəyin kənarına* gətirdilər. Qadın *dinindən* dönüb geri

çəkilmək istədikdə, körpə dil açıb dedi: "Anacan, səbirli ol! Həqiqətən də, sən haqq yoldasan!"[1]

**– Muhəmməd Peyğəmbərin ﷺ çətin günləri;**

عَنْ عَائِشَةَ رضي الله عنها أَنَّهَا قَالَتْ: لِلنَّبِيِّ ﷺ هَلْ أَتَى عَلَيْكَ يَوْمٌ كَانَ أَشَدَّ مِنْ يَوْمِ أُحُدٍ قَالَ: ﴿لَقَدْ لَقِيتُ مِنْ قَوْمِكِ مَا لَقِيتُ، وَكَانَ أَشَدُّ مَا لَقِيتُ مِنْهُمْ يَوْمَ الْعَقَبَةِ، إِذْ عَرَضْتُ نَفْسِي عَلَى ابْنِ عَبْدِ يَالِيلَ بْنِ عَبْدِ كُلاَلٍ، فَلَمْ يُجِبْنِي إِلَى مَا أَرَدْتُ، فَانْطَلَقْتُ وَأَنَا مَهْمُومٌ عَلَى وَجْهِي، فَلَمْ أَسْتَفِقْ إِلاَّ وَأَنَا بِقَرْنِ الثَّعَالِبِ، فَرَفَعْتُ رَأْسِي، فَإِذَا أَنَا بِسَحَابَةٍ قَدْ أَظَلَّتْنِي، فَنَظَرْتُ فَإِذَا فِيهَا جِبْرِيلُ فَنَادَانِي فَقَالَ إِنَّ اللَّهَ قَدْ سَمِعَ قَوْلَ قَوْمِكَ لَكَ وَمَا رَدُّوا عَلَيْكَ، وَقَدْ بَعَثَ إِلَيْكَ مَلَكَ الْجِبَالِ لِتَأْمُرَهُ بِمَا شِئْتَ فِيهِمْ، فَنَادَانِي مَلَكُ الْجِبَالِ، فَسَلَّمَ عَلَيَّ ثُمَّ قَالَ يَا مُحَمَّدُ، فَقَالَ ذَلِكَ فِيمَا شِئْتَ، إِنْ شِئْتَ أَنْ أُطْبِقَ عَلَيْهِمِ الأَخْشَبَيْنِ، فَقَالَ النَّبِيُّ ﷺ بَلْ أَرْجُو أَنْ يُخْرِجَ اللَّهُ مِنْ أَصْلاَبِهِمْ مَنْ يَعْبُدُ اللَّهَ وَحْدَهُ لاَ يُشْرِكُ بِهِ شَيْئًا﴾.

Rəvayət edilir ki, (bir dəfə) Aişə Peyğəmbərdən ﷺ soruşdu: "Sənin Uhud günündən[2] daha ağır bir günün olubmu?" Peyğəmbər ﷺ dedi: "Mən artıq ərəblərdən çəkdiyimi

---

[1] Səhih Muslim, 7703.

[2] Uhud döyüşündə müsəlmanlar məğlubiyyətə uğramışlar və bu döyüşdə əshabələrdən yetmiş nəfər şəhid olmuşdur.

çəkmişəm. Ən çox əziyyət çəkdiyim (gün) isə Əqəbə günü[1] olmuşdur. O vaxt ki, mən ibn Abdu-Yaleyl ibn Abdu-Kulalədən[2] mənə himayə olmağı xahiş etdim, lakin o mənə dəstək vermədi. Mən iztirab çəkə-çəkə geri döndüm və ancaq Qərnis-Səalibə[3] gəlib çatdıqda özümə gəldim. Həmin vaxt mən başımı yuxarı qaldırıb üstümə kölgə salan bir bulud gördüm. Mən buluda diqqət yetirdikdə içində Cəbraili gördüm. O məni səsləyib dedi: "Allah sənin həmqəbilələrinin nə dediklərini və sənə necə rədd cavabı verdiklərini eşitdi. Rəbbin dağlar mələyini sənin yanına göndərib ki, onları (bəlaya düçar etmək) xüsusunda istədiyini bu mələyə əmr edəsən". Dağlar mələyi mənə salam verdikdən sonra dedi: "Ey Muhəmməd, nə istəyirsənsə, (buyur)! İstəyirsənsə, bu iki dağı[4] onların başına uçurdum!" Peyğəmbər ﷺ dedi: "Xeyr, mən ancaq onu diləyirəm ki, Allah onların belindən Tək Allaha ibadət edən və Ona heç bir şeyi şərik qoşmayan kimsələr gətirsin!"[5]

---

[1] Çox güman ki, burada Peyğəmbərin ﷺ Taifdə olduğu zaman taiflilər tərəfindən çox şiddətli təzyiqlərə məruz qalması nəzərdə tutulur.

[2] İbn Abdu-Yaleyl ibn Abdu-Kulalə Taifin yaxınlığında yerləşən Səqif qəbiləsinin başçılarından biri olmuşdur.

[3] Bu, Məkkə ilə Taif arasında yerləşən dağın adıdır. Bura həmçinin Qərnul-Mənazil də deyilir.

[4] Hədisdə "iki dağ" deyildikdə Məkkədə yerləşən Əbu Qubeys və Queyqian dağları nəzərdə tutulur.

[5] Səhih əl-Buxari, 3231.

**– Təbuk döyüşündən yayınmış üç səhabənin başına gələnlər;**

Kəb ibn Malik ﷺ demişdir: “Təbuk döyüşündən başqa Peyğəmbərin ﷺ apardığı döyüşlərin heç birindən yayınmamışdım. Bədr döyüşündən yayınmağıma gəlincə, ondan yayınanları Peyğəmbər ﷺ qınamamışdı. Çünki o zaman Peyğəmbər ﷺ döyüşə yox, Qureyş karvanının yolunu kəsmək üçün çıxmışdı. Allah da onları vədələşmədikləri bir yerdə düşmənləri ilə üz-üzə gətirdi. Əqəbə beyətində hamımız İslamı yaşatmağa dair Peyğəmbərə ﷺ beyət etdik. İnsanlar arasında Bədr döyüşünün Əqəbə beyətindən daha üstün sayılmasına baxmayaraq, mənim üçün Əqəbə beyəti daha sevimli idi. Təbuk döyüşünə gəldikdə isə, bu döyüşdən yayındığım zaman özümü başqa döyüşlərdə olduğundan daha qüvvətli və daha gümrah hiss edirdim. Allaha and olsun ki, bundan öncə heç vaxt mənim bir dəvədən artıq miniyim olmamışdı. Bu döyüş vaxtı isə mənim iki dəvəm var idi. Döyüşə getmək istədikdə ikibaşlı danışmaqla həqiqi məqsədini bildirməmək Peyğəmbərin ﷺ adəti idi. Peyğəmbər ﷺ Təbuk döyüşünə şiddətli bir istidə yola düşdü. Bu səfər çox uzun və təhlükəli, (qarşılaşacaqları düşmənin isə) sayı çox

olduğundan, Peyğəmbər ﷺ müsəlmanlara bütün bunları nəzərə alıb hazırlıq görsünlər deyə, məqsədini açıqlayıb gedəcəyi istiqaməti xəbər verdi. O zaman Peyğəmbərin ﷺ yanında olan müsəlmanların sayı olduqca çox idi və o, bu müsəlmanların adlarını xüsusi bir kitabda qeyd etməmişdi. Heç kim döyüşdən yayınmaq istəmirdi. Yalnız döyüşdən yayınmaq istəyən az sayda müsəlman elə zənn edirdi ki, vəhy nazil olmayınca onların bu hərəkətindən Peyğəmbər ﷺ xəbər tutmayacaq. Peyğəmbər ﷺ müsəlmanlarla birgə hazırlıq görüb meyvələrin yetişdiyi və ağac kölgələrinin xoş olduğu bir isti payız günündə bu döyüşə çıxdı. O zaman onlar döyüşə hazırlaşarkən, mən də hər səhər döyüşə hazırlaşmaq məqsədilə evdən çıxır və hər axşam heç bir hazırlıq görmədən evə qayıdıb öz-özümə: "Hazırlıq görmək üçün hələ vaxt var"– deyirdim. Camaat döyüşə tam hazır olana qədər bu səhlənkarlıq məndə davam etdi. Səhəri gün Peyğəmbər ﷺ və müsəlmanlar artıq səfərə yola düşdülər. Mən isə hələ də hazırlıq görməmişdim. Mən yenə öz-özümə dedim: "Bir-iki günə hazırlıq gördükdən sonra gedib onlara çatacam". Onlar Mədinədən çıxdıqdan sonra mən yenə də

hazırlıq görmək üçün evdən çıxdım və heç bir iş görmədən axşam evə qayıtdım. (Ertəsi gün yenə) hazırlıq görmək üçün evdən çıxdım və heç bir iş görmədən axşam evə qayıtdım. Bu hal məndə, onların tez bir zamanda düşmənlə qarşılaşdıqları anacan davam etdi və mən bu döyüşdə iştirak etmək fürsətini əldən buraxdım. Bütün bunlara baxmayaraq, mən yenə də onlara çatmaq fikrində idim. Kaş ki, bu fikrimi doğruldaydım. Lakin bu mənə müyəssər olmadı. Peyğəmbər ﷺ Mədinədən çıxıb döyüşə getdikdən sonra insanlar arasına çıxdıqda məni ən çox kədərləndirən o idi ki, burada yalnız münafiqlikdə ittiham olunanlar və Allahın döyüşə getməməyə rüsxət verdiyi zəiflər qalmışdı. Peyğəmbər ﷺ Təbuka gəlib çatana qədər mənim barəmdə düşünmədi. Təbukda ikən səhabələr arasında olduqda məni xatırlayıb dedi: "Kəb nə etdi?" Bəni Sələmə qəbiləsindən olan bir nəfər dedi: "Ya Rəsulullah, Kəbi iki gözəl libası və yan-yörəsinə özündən razı halda baxması Mədinədə saxladı." Muaz ibn Cəbəl dedi: "Sənin dediyin söz necə də pisdir! Vallahi, ya Rəsulullah, biz Kəbdən yaxşılıqdan başqa bir şey görməmişik." Peyğəmbər ﷺ heç nə demədi. Onların Mədi-

nəyə qayıtma xəbərini eşitdikdə kədər məni bürüdü. Artıq yalan danışmaq barəsində düşünməyə başladım və öz-özümə dedim: “Mən nə edim ki, sabah onun qəzəbindən xilas olum?” Sonra mən bu iş barəsində təcrübəsi olan yaxınlarımla məsləhətləşdim. Peyğəmbərin ﷺ Mədinəyə yaxınlaşması xəbəri mənə yetişdikdə bütün batil fikirləri özümdən uzaqlaşdırdım və başa düşdüm ki, uydurduğum yalan fikirlərlə özümə bəraət qazandıra bilməyəcəyəm. Ona görə də qərara gəldim ki, hər şeyi olduğu kimi Peyğəmbərə ﷺ söyləyim. Səhəri gün Peyğəmbər ﷺ Mədinəyə gəldi və adəti üzrə məscidə daxil olub iki rükət namaz qıldı. Sonra da orada olan camaatla (hal-əhval tutmaq üçün) birgə oturdu. Bu vaxt Təbuk döyüşündən yayınan səksəndən artıq kişi gəlib Peyğəmbərə ﷺ müxtəlif bəhanələr gətirməklə və and içməklə üzrxahlıq etməyə başladılar. Allahın elçisi onların aşkarda dediklərini qəbul etdi, onlardan bir daha vəd aldı, onlar üçün bağışlanma dilədi, qəlblərində gizlətdiklərini isə Allaha həvalə etdi. Bu zaman mən də Peyğəmbərin ﷺ hüzuruna gəlib ona salam verdim. Peyğəmbər ﷺ məni görcək gülümsədi, lakin qəzəbli olduğu hiss olunurdu. Peyğəm-

bər ﷺ: "Gəl!"– deyə məni çağırdı. Mən yaxınlaşıb onun qarşısında oturdum və o mənə dedi: "Bu döyüşdən yayınmağının səbəbi nə idi? Məgər sən bundan öncə (İslamı yaşatmağa) söz verməmişdin?" Mən dedim: "Elədir, (ya Rəsulullah,) vallahi ki, mən başqa birisinin hüzurunda olsaydım, bir bəhanə gətirməklə onun qəzəbindən canımı necə qurtaracağımı görərdin. Doğrudan da, mənim çox fəsahətli danışıq qabiliyyətim var. Vallahi, mən başa düşdüm ki, əgər mən bu gün yalan danışmaqla səni razı salsam, sonra Allah sənə həqiqəti bildirdikdə mənə qəzəblənəcəksən, lakin sənə həqiqəti söyləsəm, sənin mənə qəzəbin tutsa da Allahın məni bağışlayacağına ümid edəcəm. Xeyr, vallahi ki, mənim bu döyüşdən yayındığıma bəraət qazandıracaq heç bir üzürlü səbəbim yoxdur. Çünki mən heç vaxt özümü indiki kimi qüvvətli və gümrah hiss etməmişdim." Peyğəmbər ﷺ dedi: "Bu doğru söylədi. Ey Kəb, get, Allah sənin barəndə hökm verənə qədər səbir et." Mən çıxıb getdikdə Bəni Sələmə qəbiləsindən olan bir dəstə kişi tələsik arxamca gəlib mənə dedi: "Vallahi, biz səni bundan əvvəl günahkar bir şəxs kimi tanımırdıq. Sən döyüşdən yayınan şəxslər kimi

Peyğəmbərə ﷺ üzrxahlıq etməyib aciz qaldın. Halbuki, sənin bu günahın üçün Peyğəmbərin ﷺ bağışlanma diləməyi kifayət edərdi.” Vallahi, onlar məni o qədər qınadılar ki, qayıdıb yalan söylədiyimi bildirmək istədim. Sonra da: “Məndən başqa belə hərəkət edən bir kimsə varmı?”– deyə soruşdum. Onlar dedilər: “Bəli, iki nəfər də sən dediyin kimi həqiqəti söylədi və sənə deyilənlər onlara da deyildi.” Mən onların kim olduğunu soruşduqda onlar: “Bu, Murara ibn Rəbi əl-Amri və Hilal ibn Ümeyyə əl-Vaqifidir”– deyib, Bədr döyüşündə iştirak etmiş, nümunəvi olan iki səhabəni mənə bildirdilər. Onlar bunu mənə söylədikdən sonra (fikrimdən dönməyib) çıxıb getdim. Peyğəmbər ﷺ döyüşdən yayınanlar arasında yalnız bizim üçümüzlə danışmağı müsəlmanlara qadağan etdi. Camaat bizdən uzaqlaşdı və onların bizə qarşı olan münasibəti dəyişdi. Hətta, bu yerlər mənim üçün qəribləşdi. Bu vəziyyət əlli gün davam etdi. Bu müddət ərzində Murara və Hilal Allahın qədərinə boyun əyməklə evlərində oturub ağlayırdılar. Mən isə onlardan daha gənc və daha dözümlü olduğum üçün müsəlmanlarla birlikdə namazlarda iştirak edir və bazarlarda gəzib dolaşırdım,

lakin mənimlə heç kəs danışmırdı. Namazdan sonra Peyğəmbərin ﷺ yanına gəlib salam verər və öz-özümə deyərdim: "Görəsən onun dodaqları tərpəndimi, mənim salamımı aldımı?" Sonra onun yaxınlığında namaz qılar və gizlincə ona nəzər salardım. Namaza gəldiyim zaman Peyğəmbər ﷺ mənə tərəf baxardı, ancaq mən ona tərəf baxdıqda o məndən üz çevirərdi. İnsanların məndən üz çevirməsi və mənə qarşı olan soyuq münasibətləri beləcə davam etdi. Bir gün mən əmim oğlu Əbu Qətadənin həyət divarını aşıb onun yanına gəldim. Əbu Qətadə ən çox sevdiyim insanlardan biri idi. Mən ona salam verdim, ancaq vallahi ki, o, mənim salamımı almadı. Mən dedim: "Ey Əbu Qətadə! Səni Allaha and verirəm, de görüm mənim Allahı və Onun Rəsulunu ﷺ sevən bir bəndə olduğumu bilirsənmi?" O susdu.

Mən bir daha Allaha and verib soruşduqda, o yenə də cavab vermədi. Mən üçüncü dəfə Allaha and verib soruşdum. O dedi: "Allah və Onun Rəsulu daha yaxşı bilir!" Bu cavabdan sonra gözlərim yaşla doldu, sonra hasarı aşıb oradan uzaqlaşdım. Bir gün mən Mədinə bazarında gəzib dolaşdığım zaman ora ticarət üçün

gəlmiş, Şam əhlindən olan bir nəsrani əkinçi: "Mən Kəb ibn Maliki necə tapa bilərəm?"– deyə soruşduqda, bazardakılar işarə edib məni ona göstərdilər. O yaxınlaşıb Ğəssan vilayətinin hökmdarının məktubunu mənə təqdim etdi. Orada bu sözlər yazılmışdı: "Sonrasına gəlincə... Məndə olan məlumatlara görə dostun səninlə çox sərt davranır. Doğrusu, Allah səni təhqir olunacağın və sıxıntı çəkəcəyin bir yerdə qalmaq üçün yaratmamışdır. Elə isə bizim yanımıza gəl, sənə layiqincə hörmət edək." Bu məktubu oxuduqdan sonra mən: "Bu da bir imtahandır"– deyib, onu təndirə atıb yandırdım. Qırx gün keçdikdən sonra Peyğəmbərin ﷺ göndərdiyi adam[1] gəlib mənə dedi: "Allahın elçisi sənə həyat yoldaşından uzaqlaşmağı əmr edir." Mən dedim: "Onu boşayım, ya yox?" Dedi: "Yox, (boşama), lakin ondan uzaq dur və onunla yaxınlıq etmə!" Peyğəmbər ﷺ bu xəbəri Murara və Hilala da göndərmişdi. Mən həyat yoldaşıma dedim: "Atanın evinə get və Allahın hökmü gələnə qədər orada qal!" Hilal ibn Ümeyyənin zövcəsi Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, Hilal artıq qocalmış və əldən

---

[1] Xuzeymə ibn Sabit رضي الله عنه.

düşmüşdür. Ona xidmət edəcək bir kimsə yoxdur. Ona xidmət göstərməyimə də qadağa qoyursan?" O dedi: "Xeyr, lakin səninlə yaxınlıq etməsin." Hilalın zövcəsi dedi: "Vallahi ki, onun heç hərəkət etməyə taqəti qalmayıb. Bu hadisə baş verəndən bəri o, dayanmadan ağlayır." Mənim də yaxınlarımdan bəziləri mənə dedilər: "Bəlkə sən də Peyğəmbərdən ﷺ izn istəyəsən və o, Hilal ibn Ümeyyənin zövcəsinə ona xidmət etmək üçün izn verdiyi kimi sənin zövcənə də izn versin." Mən dedim: "Vallahi, mən bu barədə Peyğəmbərdən ﷺ izn istəməyəcəm. Mən nə bilim ki, o nə cavab verəcək. Bundan başqa mən hələ gəncəm." Mən on gün də gözlədim və artıq Peyğəmbərin ﷺ qadağan etdiyi günlərin sayı əlliyə çatdı. Mən əllinci gün sübh namazını qılıb, evlərimizdən birinin damının üstündə Allahın ayədə zikr etdiyi vəziyyətdə, yəni ürəyim təngə gəlib sıxılmış və gen dünya mənə dar olmuş bir halda oturmuşdum ki, birdən Səl dağının üstünə çıxıb uca səslə çağıran carçının: "Ey Kəb ibn Malik, sevin!"– dediyini eşitdim. Mən dərhal səcdə etdim və anladım ki, artıq sevinc və fərəh gəlmişdi. Peyğəmbər ﷺ sübh namazını qıldıqdan sonra Allahın

bizim tövbələrimizi qəbul etdiyini insanlara bəyan etmiş və onlar da bu şad xəbəri bizə çatdırmağa tələsmişlər. Bəziləri Muraranı və Hilalı müjdələmək üçün onların yanına getmişlər. Onlardan biri atını çaparaq məni müjdələməyə gəlmiş, digəri isə Səl dağına qalxıb oradan bu müjdəni mənə daha tez çatdırmışdı. Çünki səsin sürəti atın sürətindən daha tez çatır. Səsini eşitdiyim müjdəçi mənim yanıma gəldikdə libasımı ona verdim. Vallahi, özümün bundan başqa libasım olmadığı üçün Əbu Qətadədən libas aldım və onu geyib Peyğəmbərin ﷺ yanına getdim. Əshabələr dəstə-dəstə məni qarşılayır və tövbəmin qəbul olunması münasibətilə məni təbrik edib deyirdilər: "Allahın tövbəsi sənə xeyirli olsun!" Mən məscidə daxil olduqda, Peyğəmbər ﷺ orada oturmuş və camaat da onun ətrafına toplaşmışdı. Təlhə ibn Ubeydullah qalxaraq sürətlə mənə tərəf gəlib əlimi sıxdı və məni təbrik etdi. Allaha and olsun ki, ondan başqa mühacirlərdən heç kəs məni təbrik etmək üçün ayağa qalxmadı. Mən onun bu münasibətini heç vaxt unutmaram. Mən Peyğəmbərə ﷺ salam verdikdə, o, sevinclə parlayan üzünü mənə tərəf çevirib dedi: "Anan səni dünyaya gətirdiyi

gündən bəri sənin üçün ən xeyirli olan bu günün səadətilə sevin!" Mən: "Ya Rəsulullah, bu müjdə sənin tərəfindəndir, yoxsa Allahın?"– deyə soruşduqda o dedi: "Xeyr, əksinə bu Allah tərəfindən olan müjdədir." Adətən Peyğəmbər ﷺ sevindikdə onun üzü ay parçası kimi parlayardı. Biz də onun sevindiyini bu görkəmindən hiss edərdik. Mən Peyğəmbərin ﷺ qarşısında oturub dedim: "Ya Rəsulullah, tövbəm qəbul olunduğu üçün var-dövlətimi Allah və Onun rəsuluna sədəqə etmək istəyirəm." Peyğəmbər ﷺ dedi: "Var-dövlətinin bir hissəsini özündə saxla. Bu sənin üçün daha xeyirlidir." Mən dedim: "Xeybər döyüşündə əldə olunmuş qənimətdən payıma düşən hissəni özüm üçün saxlayıram. Ya Rəsulullah! Həqiqətən, Allah məni bu sıxıntıdan yalnız doğru danışdığım üçün qurtardı. Elə buna görə də bundan sonra yalnız doğru danışacağam." Allaha and olsun ki, Peyğəmbərə ﷺ doğru söylədiyim vaxtdan bəri Allahın kimisə doğru danışmaqda məni imtahana çəkdiyindən daha gözəl imtahana çəkdiyini bilmirəm. Bütün bunları Peyğəmbərə ﷺ söylədikdən sonra bu günədək yalan danışmaq niyyətində olmadım və Allahdan istəyirəm ki, bun-

dan sonra da bu işdə məni qorusun. Buna görə də Allah Peyğəmbərinə ﷺ bu ayəni nazil etdi:

﴿ لَّقَد تَّابَ ٱللَّهُ عَلَى ٱلنَّبِيِّ وَٱلْمُهَٰجِرِينَ وَٱلْأَنصَارِ ٱلَّذِينَ ٱتَّبَعُوهُ فِي سَاعَةِ ٱلْعُسْرَةِ مِنۢ بَعْدِ مَا كَادَ يَزِيغُ قُلُوبُ فَرِيقٍ مِّنْهُمْ ثُمَّ تَابَ عَلَيْهِمْ إِنَّهُۥ بِهِمْ رَءُوفٌ رَّحِيمٌ ﴿١١٧﴾ وَعَلَى ٱلثَّلَٰثَةِ ٱلَّذِينَ خُلِّفُوا۟ حَتَّىٰٓ إِذَا ضَاقَتْ عَلَيْهِمُ ٱلْأَرْضُ بِمَا رَحُبَتْ وَضَاقَتْ عَلَيْهِمْ أَنفُسُهُمْ وَظَنُّوٓا۟ أَن لَّا مَلْجَأَ مِنَ ٱللَّهِ إِلَّآ إِلَيْهِ ثُمَّ تَابَ عَلَيْهِمْ لِيَتُوبُوٓا۟ إِنَّ ٱللَّهَ هُوَ ٱلتَّوَّابُ ٱلرَّحِيمُ ﴿١١٨﴾ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوا۟ ٱتَّقُوا۟ ٱللَّهَ وَكُونُوا۟ مَعَ ٱلصَّٰدِقِينَ ﴿١١٩﴾ ﴾

**“Allah, *müsəlmanlardan* bəzilərinin qəlbi *cihaddan* yayınmaq üzrə olduqdan sonra, Peyğəmbərin də, çətin vaxtda onun ardınca gedən mühacirlərin və ənsarların da *əvvəlcə* tövbəsini qəbul etdi, sonra da onları bağışladı. Çünki *Allah* onlara qarşı Şəfqətlidir, Rəhmlidir. Geri qalmış üç nəfəri də *bağışladı*. Hətta yer üzü öz genişliyinə baxmayaraq onlara dar gəlmiş, ürəkləri *kədərdən* sıxılmış və yəqin bilmişdilər ki, Allahın *əzabından*, ancaq Onun Özünə sığınmaqdan başqa çarələri yoxdur. Sonra *Allah* peşman olsunlar deyə onların tövbəsini qəbul etdi. Həqiqətən, Allah tövbələri qəbul**

**Edəndir, Rəhmlidir. Ey iman gətirənlər! Allahdan qorxun və düz danışanlarla birlikdə olun".**[1]

Allaha and olsun ki, İslam nemətindən sonra Allahın mənə bəxş etdiyi nemətlərdən ən gözəli Peyğəmbərə ﷺ doğru danışmaqdır ki, yalan danışıb həlak olanlardan olmayım. Uca Allah yalan danışanları məzəmmət edərək onlar barəsində bu ayəni nazil etmişdir:

﴿ سَيَحْلِفُونَ بِاللَّهِ لَكُمْ إِذَا انقَلَبْتُمْ إِلَيْهِمْ لِتُعْرِضُوا عَنْهُمْ ۖ فَأَعْرِضُوا عَنْهُمْ ۖ إِنَّهُمْ رِجْسٌ ۖ
وَمَأْوَاهُمْ جَهَنَّمُ جَزَاءً بِمَا كَانُوا يَكْسِبُونَ ﴿٩٥﴾ يَحْلِفُونَ لَكُمْ لِتَرْضَوْا
عَنْهُمْ ۖ فَإِن تَرْضَوْا عَنْهُمْ فَإِنَّ اللَّهَ لَا يَرْضَىٰ عَنِ الْقَوْمِ الْفَاسِقِينَ ﴿٩٦﴾ ﴾

**"Yanlarına qayıtdığınız zaman, onlardan əl çəkəsiniz deyə, qarşınızda Allaha and içəcəklər. Siz onlardan üz döndərin. Çünki onlar murdardırlar. Qazandıqları *günahların* cəzası olaraq sığınacaqları yer Cəhənnəm olacaqdır. Qarşınızda and içəcəklər ki, onlardan razı qalasınız. Siz onlardan razı olsanız da, Allah fasiq camaatdan razı qalmaz".**[2]

Peyğəmbər ﷺ bizim üçümüzdən başqa döyüşdən yayınanların hər birindən and içib, üzr diləmələrini qə-

---

1 "ət-Tovbə" surəsi, 117-119.
2 "ət-Tovbə" surəsi, 95-96.

bul etdi, həmçinin onların beyətini qəbul edib onlar üçün bağışlanma dilədi. Lakin bizim barəmizdə olan hökmü Allahın əmri gələnə qədər təxirə saldı. Bu haqda Uca Allah belə buyurur: **"Geri qalmış üç nəfəri də *bağışladı...*"[1].** Bu ayədə qeyd olunmuş "geri qalanlar" ifadəsi heç də bizim Təbuk döyüşündən geri qalmağımıza işarə deyil. Əksinə, bu bizim barəmizdə olan hökmün, and içərək Peyğəmbərdən ﷺ üzr diləyənlər barəsində olan hökmdən (əlli gün) geri qalmasıdır".[2]

**– Əbu Zərin İslam dinini qəbul etməsi;**

Əbu Zər belə rəvayət etmişdir: "Mən Ğifar qəbiləsindən idim. (İslamın ilk günlərində) bizə xəbər gəlib çatdı ki, Məkkədə bir adam peyda olub, peyğəmbər olduğunu iddia edir. Onda mən qardaşıma dedim: "Get o adamın yanına, onunla danış və mənə ondan bir xəbər gətir!" Qardaşım (Məkkəyə) gedib onunla görüşdü, sonra geri qayıtdı. Mən soruşdum: "Nə xəbər (gətirmisən)?" Dedi: "Vallahi, mən (insanlara) yaxşı işlər görməyi buyuran və (onları) pis işlərdən çəkindirən birisini gördüm." Mən

---

[1] "ət-Tovbə" surəsi, 118.
[2] Səhih əl-Buxari, 4418.

(ona): “Sən mənə lazım olan xəbərləri gətirməmisən?”– dedim, sonra da bir cürdək su və bir əl ağacı götürüb Məkkəyə yola düşdüm. Mən Peyğəmbəri ﷺ tanımırdım və heç bir kimsədən onun haqqında soruşmaq da istəmirdim. Mən Zəm-zəm suyundan içirdim və Məscidülhəramda qalırdım. (Həmin vaxt) Əli gəlib mənim yanımdan keçdi və (mənə): “Qərib adama oxşayırsan”– dedi. Mən: “Bəli!”– dedim. O (mənə): “Elə isə gedək evə!”– dedi, mən də onunla getdim. O məndən bir söz soruşmadı, mən də ona heç nə demədim. Səhər açıldıqda mən Peyğəmbəri ﷺ soraqlamaq üçün məscidə gəldim, lakin heç kəs mənə onun haqqında bir söz demədi. (Yenə) Əli mənim yanımdam keçdi və soruşdu: “Sən (qonaq) qalmaq üçün hələ özünə bir yer tapa bilməmisən?” Dedim: “Xeyr!” Dedi: “Gedək mənimlə!” (Yolda) məndən soruşdu ki: “Sən nə gəzirsən? Bu şəhərə gəlməyinin səbəbi nədir?” Dedim: “Heç kimə deməyəcəksənsə, sənə (məqsədimi) bildirim.” Əli: “Baş üstə!”– dedi. Dedim: “Bizə xəbər çatıb ki, Məkkədə bir adam peyda olub, peyğəmbər olduğunu iddia edir. Mən qardaşımı göndərmişdim ki, onunla danışsın (və onun barəsində mənə bir xəbər gətir-

sin), lakin o qayıdıb mənə lazımi xəbərləri çatdırmadı. Odur ki, mən özüm onunla görüşmək istədim. Əli dedi: "Sən düz yol tutmusan! İndi mən onun yanına gedəcəm, sən də mənim dalımca gələrsən. Mən hara girsəm, sən də ora girərsən. Əgər yolda sənə xətər toxundura biləcək birisini görsəm, dayanıb divarın dibinə çəkiləcəyəm ki, guya ayaqqabımın bağını bağlayıram, sənsə yoluna davam edərsən." (Bunu deyəndən) sonra o getdi, mən də onun dalınca getdim. O gedib bir evə daxil oldu, mən də onun dalınca Peyğəmbərin ﷺ yanına daxil oldum və ona: "Mənə İslam haqqında danış!"– dedim. O mənə İslam dinini başa saldı və mən elə yerimdəcə bu dini qəbul etdim. Peyğəmbər ﷺ mənə dedi: "Ey Əbu Zər, bunu heç kəsə bildirmə, qayıt öz qəbilənə. Elə ki bizim açıq-aydın dəvət etdiyimizi eşitdin, gəl qoşul (bizə)". Mən dedim: "Səni haqq ilə göndərən Allaha and olsun ki, mən bunu onların[1] arasında açıq-aydın elan edəcəyəm".

Bundan sonra Əbu Zər məscidə gəldi. (Həmin vaxt) qureyşlilər orada idilər. (Əbu Zər uca səslə) dedi: "Ey qureyşlilər! Mən şahidlik edirəm ki, Allahdan başqa mə-

[1] Yəni müşriklərin arasında.

bud yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir". Müşriklər (bir-birilərinə): "Qalxın bu sabiinin[1] dərsini verək!"– dedilər.

(Əbu Zər) dedi: "Onlar qalxıb məni o ki var döydülər. Bu vaxt Abbas sinəsini qabağa verib məni müdafiə etdi və üzünü onlara tutub dedi: "Vay sizin halınıza! Siz Ğifar qəbiləsindən olan bir adamı öldürmək istəyirsiniz? Halbuki sizin həm ticarət yollarınız, həm də özünüzün gediş-gəlişiniz oradan keçir." (Bunu eşidəndə) onlar məndən əl çəkdilər. Səhəri gün mən onların yanına qayıdıb dünən dediklərimi təkrar etdim. Onlar (yenə): "Qalxın bu sabiinin dərsini verək!"– dedilər və məni dünənki kökə saldılar. Yenə Abbas sinəsini qabağa verib məni müdafiə etdi və dünən dediklərini bir daha təkrar etdi."

Beləcə, Əbu Zər İslam dinini qəbul etdi. Allah ona rəhmət eləsin!"[2]

**– Salman Farisinin çəkdiyi əziyyətlər;**

Salman Farisi belə rəvayət etmişdir: "Mən İsfahanda Cey deyilən bir məmləkətdə yaşayırdım. Atam da hə-

---

[1] Sabii – Bir dindən başqa bir dinə meyl edən kimsəyə deyilir.
[2] Səhih əl-Buxari, 3522.

min məmləkətin böyüyü, həm də ən zəngin adamlarından biri idi. O məni hamıdan çox sevirdi, günü-gündən də mənə olan məhəbbəti artırdı. O məni heç yerə buraxmırdı, cariyə kimi evdə saxlayırdı. Getdikcə mən əqidəli bir atəşpərəstə çevrilirdim. İş o yerə gəlib çatmışdı ki, mən bircə saat belə oddan ayrı qala bilmirdim. O vaxtlar atamın ağalıq yerləri[1] var idi. Bir gün onun başı işə bərk qarışmışdı deyə məni yanına çağırıb: "Oğlum, mənim evdə bir az işlərim var, bəlkə bu gün gedib çöldəki yerlərimizə bir baş çəkəsən"- dedi və orada bəzi işləri görməyi mənə tapşırdı. Mən oraya gedərkən yolda nəsranilərin kilsəsinin yanından keçdim və onların səslərini eşitdim, içəri daxil olub onların namaz qıldıqlarını gördüm. Atam məni ev dustağı etmişdi deyə mənim belə şeylərdən xəbərim yox idi. Onların namazı mənim xoşuma gəldi, məndə bu dinə rəğbət oyandı və mən öz-özümə dedim: "Vallahi, bu din bizim sitayiş etdiyimiz oddan daha xeyirlidir". Mən çöldəki yerlərimizə getməyib gün batanadək nəsranilərin yanında qaldım. Sonra onlardan: "Bu dinin əsli haradadır?"- deyə soruşdum. Onlar: "Şamda-

[1] Müasir dildə buna ferma deyilir.

dır"- dedilər. Beləcə, mən atamın tapşırdığı işi yerinə yetirməyib onun yanına qayıtdım. Mən evə gəldikdə atam dedi: "Oğlum, harda idin? Məgər mən səni iş dalınca göndərməmişdim?" Dedim: "Atacan! Mən kilsədə namaz qılan insanlara rast gəldim və onların dini mənim xoşuma gəldi. Mən belə bir din görməmişdim. Odur ki, axşamadək onların yanında idim". Atam dedi: "Oğlum! O dində heç bir xeyir yoxdur. Sənin və ata-babalarının dini bundan daha xeyirlidir". Mən dedim: "Xeyr, vallahi ki, bu din bizim dinimizdən daha xeyirlidir". Onda atamın canına qorxu düşdü, (atəşpərəstlikdən üz döndərəcəyimdən qorxdu) və elə buna görə də məni ev dustağı edib əl-ayağımı bağladı ki, heç yerə qaçıb gedə bilməyim. Mən (fürsət tapıb) nəsranilərə xəbər göndərdim ki, əgər Şama bir karvan getsə, mənə xəbər versinlər. Çox keçmədi ki, nəsranilər Şam karvanının gəldiyini mənə bildirdilər. Mən onlara xəbər göndərdim ki, Şam tacirləri alış-verişlərini qurtarıb Şama qayıtmaq istədikdə mənə xəbər versinlər. Nəhayət onlar mənə tacirlərin yola düşmək istədiyini bildirdilər. Mən ayağımdakı qandalları açıb evdən qaçdım və özümü həmin karvana yetirib onlarla bərabər

Şama yollandım. Şama çatdıqda dedim: "Bu dini bilən ən savadlı adamı mənə göstərin". Mənə kilsədəki baş keşişi göstərdilər. Mən onun yanına gedib dedim: "Mən bu dini qəbul etmişəm, qəlbimi ona bağlamışam və istəyirəm ki, sənin yanında qalıb sənə xidmət edim, səndən savad alım və səninlə birgə namaz qılım". Baş keşiş mənə yanında qalmağa izn verdi. O çox yaramaz adam idi. O, öz havadarlarına Allah yolunda sədəqə verməyi əmr edir, lakin yığılan sədəqəni özünə götürürdü, kasıblara heç nə vermirdi. İş o yerə gəlib çatmışdı ki, bu yaramaz adam yeddi küp qızıl-gümüş yığmışdı. Bu əməlinə görə mən ona nifrət edirdim. Nəhayət, baş keşiş öldükdən sonra nəsranilər onu dəfn etmək üçün onun başına yığışdılar. Onda mən onlara dedim: "Sizin bu keşişiniz çox dələduz adam idi. O sizi sədəqə verməyə təhrik edir, sonra da verdiyiniz sədəqələri özünə götürür və kasıblara heç nə vermirdi". Onlar soruşdular: "Nə bilirsən ki, o belə edirdi?" Dedim: "İstəyirsinizsə, onun yığdığı pulların yerini sizə göstərim?" Onlar: "Göstər!"- dedilər. Mən onlara onun xəzinəsinin yerini göstərdim və onlar oradan yeddi küp qızıl-gümüş çıxartdılar. Həqiqət bəlli olduqdan sonra onlar: "Allaha

and olsun ki, biz bunu basdırmayacağıq"– dedilər və çarmıxa çəkib daş-qalaq etdilər.

Bundan sonra onun yerinə başqa birisini seçdilər və mən uzun müddət onun yanında qaldım. Mən, namazlarını vaxtlı-vaxtında qılan, dünyaya könül bağlamayıb axirətə can atan, gecə-gündüz Allahın itaətində duran onun tək dindar birisini görməmişdim. Mən onu çox sevirdim. Nəhayət, ölüm onu haqladıqda mən dedim: "Ey filankəs! Mən uzun müddət sənin yanında qaldım, səni səmimi-qəlbdən sevdim, heç kəsi sənin qədər sevməmişdim. Budur, Allahın əmri ilə ölüm səni haqlayıb. Mənə nə nəsihət edirsən, de görüm, (sən öləndən sonra) kimin yanına gedim?" O dedi: "Oğlum, əsl dindarlar ölüb getmiş və insanlar bu dini təhrif etmiş, həqiqəti gizlətmişlər. Vallahi, mən bu əqidədə olan yalnız bir nəfəri tanıyıram, o da Mövsul şəhərində yaşayan filankəsdir. Gedərsən onun yanına!" O vəfat etdikdən sonra mən Mövsulda yaşayan adamın yanına gəlib dedim: "Ey filankəs! Filankəs ölüm ayağında ikən mənə sənin tövhid dinində[1] olduğunu xəbər vermiş və mənə sənin yanına gəlməyi

[1] Bütün başqa batil inanclardan uzaq olub, ibadətdə, hökmranlıqda, ən gözəl adlara və sifətlərə sahib olmaqda Uca Allahın təkliyini təsdiq etmə.

tövsiyə etmişdir". O mənə yanında qalmağa izn verdi və mən (bir müddət) onun yanında qaldım. Mən onun çox mehriban, xeyirxah bir insan olduğunu gördüm. Nəhayət, ona da ölüm yetişdikdə mən dedim: "Ey filankəs! Filankəs mənə sənin yanında qalmağı nəsihət etmişdi. Budur, Allahın əmri ilə ölüm səni haqlayıb. İndi mən nə edim, (sən öləndən sonra) kimin yanına gedim?" O dedi: "Oğlum! Vallahi, mən bizim əqidədə olan yalnız bir nəfəri tanıyıram, o da Nəsibin şəhərində yaşayan filankəsdir. Gedərsən onun yanına!" O vəfat etdikdən sonra mən Nəsibində yaşayan adamın yanına gəlib dostumun dediklərini ona xəbər verdim. O mənə yanında qalmağa izn verdi və mən (bir müddət) onun yanında qaldım. Mən onun əvvəlki iki kişi kimi tövhid əhli olduğunu, çox mehriban, xeyirxah bir insan olduğunu gördüm. Çox keçmədi ki, onun da əcəli çatdı. Ölüm ayağında ikən mən ona dedim: "Ey filankəs! Filankəs mənə filankəsin yanına getməyi, o da mənə sənin yanına gəlməyi nəsihət etmişdi. Sən mənə nə əmr edirsən, (sən öləndən sonra) mən kimin yanına gedim?" O dedi: "Oğlum! Vallahi ki, mən bizim əqidədə olan yalnız bir nəfəri tanıyıram, o da Əmmuriyyə

şəhərində yaşayır. İstəyirsənsə, onun yanına get!" O vəfat etdikdən sonra mən Əmmuriyyədə yaşayan adamın yanına gəlib dostumun dediklərini ona xəbər verdim. O mənə yanında qalmağa izn verdi və mən (bir müddət) onun yanında qaldım. Onun yanında qaldığım müddətdə (Allah) mənə çoxlu mal-qara və qoyun nəsib etdi. Çox keçmədi ki, bu kişinin də əcəli yetişdi. Ölüm ayağında ikən mən ona dedim: "Ey filankəs! Mən filankəsin yanında idim. O mənə filankəsin yanına getməyi, filankəs də mənə filankəsin yanına getməyi, o da mənə sənin yanına gəlməyi nəsihət etmişdi. Bəs sən mənə nə buyurursan, (sən öləndən sonra) mən kimin yanına gedim?" O dedi: "Oğlum! Vallahi, mən bizim əqidəmizdə olan elə bir adam tanımıram ki, səni onun yanına göndərim. Lakin (ümidini üzmə), İbrahimin dinində olan peyğəmbərin göndəriləcəyi vaxt artıq yaxınlaşıb. O, ərəblərin arasından çıxacaq, (qövmü onu qovub yurdundan çıxartdıqdan sonra) Hərraya,[1] xurmalıqlar olan bir yerə hicrət edəcək. Onun hamıya bəlli olan peyğəmbərlik əlamətləri vardır: hədiyyəni ye-

[1] Hərra deyildikə Mədinə yaxınlığında yerləşən, qaralmış daş-kəsəklərlə dolu bir sahə nəzərədə tutulur.

yər, sədəqəni isə yeməz və bir də çiyinləri arasında peyğəmbərlik nişanəsi vardır. O yerlərə gedə bilərsənsə, get!"

O vəfat etdikdən sonra mən Allahın qədərə yazdığı qədər Əmmuriyyədə qaldım. Nəhayət, bir gün mən Kəlb qəbiləsindən olan tacirlərə rast gəldim və onlara: "Məni ərəblərin diyarına aparmağa razılıq versəniz, mal-qaramı və qoyunlarımı sizə verərəm". Onlar mənim təklifimlə razılaşdılar və mən bütün varidatımı onlara verdim. Tacirlər məni (Mədinə) yaxınlığındakı bir vadiyə gətirdilər və haqsızlıq edib məni kölə olaraq bir yəhudiyə satdılar. Mən onun yaşadığı yerə gəlib çatdıqda xurma ağaclarını gördüm və ürəyimə damdı ki, bu, dostumun mənə vəsf etdiyi yerlərdir. Mən içimdə rahatlıq tapa bilmirdim. Elə bu dəm ağamın mədinəli – bəni-qüreyzəli əmisi oğlu onun yanına gəldi və məni satın alıb Mədinəyə apardı. Vallahi, mən Mədinəni görəndə keşişin sözləri yadıma düşdü və axtardığım yeri tapdığımı güman etdim. Həmin ərəfədə artıq Allah Öz Peyğəmbərini ﷺ insanlara göndərmişdi. Peyğəmbər ﷺ bir müddət Məkkədə dəvət apardı. Mən kölə idim deyə, onun haqqında heç bir məlumatım yox idi. Sonra Peyğəmbər ﷺ Mədinəyə hicrət etdi. Bu

ərəfədə mən ağam üçün ağacdan xurma yığırdım. Həmin vaxt ağamın əmisi oğlu onun yanına gəldi və onlar ağacın altında durub söhbət etməyə başladılar. Biri o birinə dedi: "Allah Bəni-Qiylə qəbiləsini öldürsün! Bu dəqiqə onlar Qubada Məkkədən gəlmiş o kişinin başına toplaşıb onun peyğəmbər olduğunu iddia edirlər". Mən bu sözləri eşidəndə bədənimdən isti bir üşütmə keçdi və az qaldım ki, ağacdan ağamın üstünə düşüm. Mən dərhal yerə enib ağamın əmisi oğluna yaxınlaşdım və ondan: "Sən nə dedin? Nə dedin?"- deyə soruşdum. Bunu eşidəndə ağam qəzəbləndi və məni əməllicə kötəklədi. Sonra üstümə qışqırıb dedi: "Bunun sənə dəxli yoxdu, get işinlə məşğul ol!" Mən ona: "Sadəcə onun dediyini bilmək istəyirdim"- dedim, (sonra da gedib işimlə məşğul oldum). Axşam düşdükdə mən bir qədər xurma götürüb Peyğəmbərin ﷺ yanına getdim. Həmin vaxt Peyğəmbər ﷺ Qubada idi. Mən onun yanına gəlib dedim: "Sənin əməlisaleh insan, ətrafındakı səhabələrin də ehtiyac içində olduğunu eşitmişəm. Odur ki, sədəqə vermək üçün saxladığım bu xurmaları sizə gətirmişəm. Sizin buna daha çox haqqınız çatır". Bunu deyəndən sonra mən xurmaları Peyğəmbərə ﷺ

uzatdım. Peyğəmbər ﷺ səhabələrinə: "Yeyin!"- dedi, özü isə bundan yemədi. Onda mən öz-özümə: "Bu, biri!"- dedim və çıxıb getdim, Peyğəmbər ﷺ də Mədinəyə getdi. Sonra mən yenə bir qədər xurma götürüb onun yanına gəldim və dedim: "Görürəm, siz sədəqə yemirsiniz. Odur ki, bu xurmaları sizə hədiyyə edirəm". Onda Peyğəmbər ﷺ xurmadan yedi və səhabələrinə də ondan yeməyi buyurdu. Mən yenə öz-özümə dedim: "Bu da ikincisi". Bir müddətdən sonra mən yenə onun yanına gəldim. Həmin vaxt o, Bəqi qəbirstanlığında, səhabələrindən birinin dəfnində idi. O, səhabələri ilə birlikdə yerdə oturmuşdu, əbasını da çiyninə atmışdı. Bu vaxt mən onun arxa tərəfinə keçdim ki, bəlkə keşişin mənə vəsf etdiyi peyğəmbərlik nişanəsini görəm. Mən Peyğəmbərin ﷺ arxa tərəfinə keçdikdə o mənim nə istədiyimi başa düşdü və əbasını çiynindən yerə saldı. Mən onun çiyinləri arasındakı peyğəmbərlik əlamətini görən kimi onu qucaqlayıb öpdüm və hönkür-hönkür ağlamağa başladım. Peyğəmbər ﷺ mənə: "Gəl otur!"- dedi, mən də oturub əvvəldən axıradək başıma gələnləri ona danışdım. Bu əhvalat Peyğəmbərə

təsir etdi və o məndən başıma gələnləri səhabələrə də danışmağı xahiş etdi.

İbn Abbas demişdir: "Salman Uhud döyüşünədək kölə olaraq qaldı".

Sonra Salman rəvayətinə davam edib dedi: "Bir gün Peyğəmbər ﷺ mənə dedi: "Ey Salman, ağanla (müəyyən miqdar pul müqabilində) azad olunmağına dair razılaş". Mən gedib ağamdan üç yüz xurma zoğu[1] əkmək və min altı yüz dirhəm ödəmə şərtilə azad ediləcəyimə dair razılıq aldım. Onda Peyğəmbər ﷺ səhabələrinə: "Qardaşınıza yardım edin!"- deyə buyurdu, səhabələr də mənə yardım etdilər. Kimisi otuz, kimisi iyirmi, kimisi on beş, kimisi on, kimisi də imkanı daxilində bir neçə zoğ verdi. Beləliklə, üç yüz zoğ yığıldı. Sonra Peyğəmbər ﷺ mənə dedi: "Ey Salman, get bu zoğların yerini qaz, işini qurtardıqdan sonra gəl mənə xəbər ver ki, onları mən öz əllərimlə əkim". Mən səhabələrlə birlikdə zoğlarını yerini qazıb qurtardıqdan sonra Peyğəmbərin ﷺ yanına gəlib (işimizi qurtardığımızı) ona xəbər verdim. Peyğəmbər ﷺ qalxıb mənimlə getdi. Biz zoğları bir-bir ona uzadır, o da onu

[1] Ağacda və başqa bitkilərdə yenicə cücərən göy qabıqlı incə budaqların hər biri.

yerə sancırdı. Beləcə, Peyğəmbər ﷺ zoğların hamısını öz əlləri ilə yerə basdırdı. Salmanın canı Əlində olan Allaha and olsun ki, o zoğlardan heç biri tələf olmadı. Beləliklə də, mən ağama xurma ağaclarını ödədim. Lakin min altı yüz dirhəmi ödəmək sonraya qaldı. Döyüşlərin birindən sonra Peyğəmbər ﷺ məni yanına çağırtdırıb mənə yumurta boyda qızıl külçə verdi və dedi: "Al bunu, borcunu ödə, ey Salman!" Dedim: "Bu bəs edəcəkmi, ya Rəsulullah?" Peyğəmbər ﷺ dedi: "Götür bunu, qüdrət və qüvvət sahibi olan Allah sənin borcunu ödəyəcək". Mən bu qızıl külçəni götürüb tərəzidə çəkdirdim. Salmanın canı Əlində olan Allaha and olsun ki, düz qırx övqiyə[1] gəldi. Beləcə, mən borcumu ödəyib azad oldum".[2]

Beləsinin xoş halına! Bir zaman Peyğəmbər ﷺ bu səhabəni göstərib demişdir: "Hərgah iman Sürəyya ulduzunun yanında olsaydı, bu adamlar ora da gedib çıxardılar"[3]. O həmçinin demişdir: "Cənnət üç nəfər üçün darıxır: Əli İbn Əbu Talib, Əmmar ibn Yasir və Salman Farisi!"[4]

---

[1] Övqiyə çəki vahididir və bir övqiyə 40 dirhəmə bərabərdir.

[2] Müsnəd imam Əhməd, 5/441-444; Silsilətul Əhadis əs-Səhihə, 894-cü hıdis.

[3] Səhih əl-Buxari, 4897.

[4] Müstədrək, 3/148; "Səhih əl-Cami", 1/331.

**– Möminlərin anasına[1] atılan böhtanlar;**

Aişə ﵂ demişdir: “Peyğəmbər ﷺ səfərə çıxmaq istədikdə zövcələri arasında püşk atardı. Püşk kimə düşsəydi, onu da özü ilə səfərə apارardı. Döyüşlərin birində o yenə bizim aramızda püşk atdı və bu dəfə püşk mənə düşdü. Mən onunla birgə səfərə çıxdım. Həmin vaxt artıq hicab ayəsi nazil olmuşdu. (Bu səbəbdən də) məni kəcavənin[2] içərisində apardılar. (Yol boyu lazım gəldikcə) məni kəcavə ilə birgə yerə endirirdilər. Səfərimiz beləcə davam etdi. Nəhayət, Peyğəmbər ﷺ döyüşü başa vurub geri qayıtdı. Biz Mədinəyə yaxın bir yerdə (dincəlmək üçün) dayandıq. Peyğəmbər ﷺ orada gecələməyib səfərə çıxmağı əmr etdi. Camaat yola düşməyə hazırlaşarkən Mən (təbii ehtiyacımı rəf etmək üçün təkbaşına su başına çıxdım və) qoşundan uzaqlaşdım. Ehtiyacımı ödəyib qoşunun yanına qayıtdıqda, yolda əlimi sinəmə

[1] **“Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır. Zövcələri isə möminlərin analarıdır...”** əl-Əhzab surəsi, 6.

[2] Səfərə çıxan adam üçün minik heyvanlarının, adətən, dəvənin üstündə düzəldilən örtülü yer.

toxundurub gördüm ki, Yəmən əqiqindən[1] olan boyunbağım qırılıb düşüb. Mən geri qayıdıb onu axtarmağa başladım və bu səbəbdən də yolumdan qaldım. Bu əsnada, məni müşayiət edən əshabələr mənim kəcavənin içərisində olduğumu güman etdilər və onu götürüb mindiyim dəvənin üstünə qoydular. O zamanlar qadınlar az yedikləri üçün yüngül çəkili və incəbelli olurdular. Elə bu səbəbdən də məni müşayiət edənlər kəcavəni qaldırarkən onun çəkisindəki fərqi hiss etməmişdilər. Mən də o vaxt çox cavan idim. Beləcə, onlar dəvəni sürüb apardılar. Qoşun çıxıb getdikdən sonra mən boyunbağımı tapıb düşərgəyə qayıtdım, lakin artıq orada heç kəs qalmamışdı. Mən onların məni yerimdə tapmadıqları üçün mütləq dönəcəklərini güman edib kəcavəmin dayandığı yerə gəldim. Az sonra oturduğum yerdə yuxuladım. Həmin vaxt Səfvan ibn Muəttil əs-Suləmi əz-Zəkvani (qoşundan qalan əşyaları toplayıb sahiblərinə qaytarmaq üçün) qoşunun ardınca gəlirdi. O, səhərə yaxın gəlib mən olan yerə çatdı və yatmış bir insan qaraltısı gö-

[1] Əqiq: müxtəlif rənglərə çalan laylardan ibarət olan, qiymətli daş kimi müxtəlif bəzək şeyləri hazırlanmasında və s.-də istifadə edilən bərk mineral. Yəmən əqiqi – əqiqin qırmızı rəngli əla növü.

rüb mənə yaxınlaşdı. O, hicab ayəsi nazil olmamışdan əvvəl məni görmüşdü (deyə dərhal məni tanıdı). Mən onun: "İnnə lillahi və innə ileyhi raciun"[1] deməsinə oyandım (və dərhal çarşabla üzümü örtdüm). O, dəvəsini yerə çökdürüb ayağını dəvənin qabaq ayağının üstünə qoydu və mən dəvəyə mindikdən sonra (onun noxtasından) tutaraq sürüb apardı. Nəhayət, biz, şiddətli isti olduğundan çayın qırağında oturub dincini alan orduya yetişdik. Həmin vaxt bir çoxları (mənə iftira atmaqla) bədbəxt oldu. Böhtan atanların başçısı Abdullah ibn Ubey ibn Səlul idi. Mədinəyə çatdıqdan sonra mən bir ay xəstə oldum. Bu əsnada camaat böhtan atanların söz-söhbətlərini orada-burada danışırdılar. Həmişə xəstələndiyim zaman Peyğəmbərin ﷺ mənə göstərdiyi qayğını indi ondan görməməyim məni şübhələndirirdi. O, sadəcə olaraq yanıma gəlib salam verir və: "Vəziyyətin necədir?"– deyib çıxıb gedirdi. Mən sağalanadək bu şərdən xəbərim olmadı. Sağaldıqdan sonra mən Ummu Mistah-

---

[1] Ərəbcəsi: إِنَّا لِلَّهِ وَإِنَّآ إِلَيْهِ رَٰجِعُونَ .

Tərcüməsi: "Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!" Bu sözlər təəccüb doğuran bir şey gördükdə və ya hər hansı bir müsibət üz verdikdə deyilir. Əslində bu, "əl-Bəqərə" surəsinin 156-cı ayəsidir.

la birgə əl-Mənasi deyilən bir yerə getdim. Bura bizim gecədən-gecəyə təbii ehtiyacımızı rəf etmək üçün gəldiyimiz yer idi. O vaxtlar hələ evlərin yaxınlığında ayaqyolular tikilməmişdi və bütün bunlar əvvəlki ərəblərin adətlərinə görə idi. Mən Ummu Mistah bint Əbu Ruhm ilə yol gedərkən onun ayağı əbasına ilişdi və dedi: "Məhv olsun Mistah!" Mən ona dedim: "Sənin dediyin necə də pisdir! Sən Bədr döyüşündə iştirak etmiş bir adamı söyürsən?!" Ummu Mistah: "Ay qız, məgər sən onların nə dediyini eşitməmisənmi?"– deyə soruşdu, sonra da iftiraçıların dediklərini mənə xəbər verdi. Xəstəliyim daha da şiddətləndi. Evə gəldikdən sonra Peyğəmbər ﷺ yenə mənim yanıma gəldi. O əvvəlki kimi salam verdikdən sonra: "Vəziyyətin necədir?"– deyə soruşdu. Mən ona dedim: "İzn ver, valideynlərimin yanına gedim!" Mənim niyyətim o idi ki, bu xəbərin doğru olub-olmadığını valideynlərimdən öyrənib dəqiqləşdirim. Peyğəmbər ﷺ mənə izn verdi. Onda mən valideynlərimin yanına gəldim və anamdan: "Camaat nə danışır?"– deyə soruşdum. Anam dedi: "Qızım, özünü üzmə. Vallahi, çox nadir hallarda rast gəlmək olar ki, gözəl qadını əri sevsin və ərin

başqa zövcələri onun əleyhinə danışmasınlar.” Mən dedim: “Sübhanəllah! Demək, camaat bunu danışırmış.” Mən bütün gecəni ağladım, səhərə qədər göz yaşım dayanmadı və bir anlıq belə yuxulaya bilmədim. Vəhyin nazil olması gecikirdi deyə Peyğəmbər ﷺ Əli ibn əbu Talibi və Usamə bin Zeydi zövcəsini tərk edib-etməməsi barədə məsləhət almaq üçün yanına dəvət etdi. Usaməyə gəlincə, Peyğəmbərə ﷺ mənim namuslu olduğumu və bizi ürəkdən sevdiyini bildirərək dedi: “Ya Rəsulullah, sənin əhli-əyalın barəsində zərrə qədər də pis bir şey eşitməmişəm!” Əli ibn əbu Talibin cavabı isə belə oldu: “Ya Rəsulullah, Allah sənə (bu xüsusda) heç bir hədd qoymamışdır, ondan başqa nə çox qadın var. Sən Aişənin xidmətçisindən soruş, o sənə düzünü deyər.” Peyğəmbər ﷺ (Aişənin xidmətçisi) Bərirəni çağırıb soruşdu: “Ey Bərirə, onda səni şübhələndirəcək bir şey görmüsənmi?” Bərirə dedi: “Xeyr! Səni haqq ilə göndərən Allaha and olsun ki, ondan bir qəbahət iş görsəydim, onu qınayardım. Yalnız onu deyə bilərəm ki, az yaşlı qız uşağı olduğu üçün mən yoğurduğum xəmiri qorumağı ona tapşırdıqda o yatar və qoyun gəlib xəmiri yeyərdi.”

Abdullah ibn Ubey ibn Səlul dediyinə görə üzrxahlıq istəsin deyə, həmin gün Peyğəmbər ﷺ minbərə qalxıb dedi: "(Ey müsəlmanlar!) Kim mənim zövcəmə əziyyət verən adamın ittihamlarını rədd edib zövcəmə bəraət qazandıra bilər? Vallahi, mən zövcəmdən xeyirdən başqa bir şey görməmişəm. Eləcə də ittiham olunan kişinin (Səfvan ibn Müəttilin) pis bir hərəkət etdiyi də mənə məlum deyil. O heç vaxt mənsiz bizim evə daxil olmayıb." Bu vaxt Səd ibn Muaz ayağa qalxıb dedi: "Ya Rəsulullah, vallahi ki, mən sənə haqq qazandırmaq istəyirəm. Əgər ittiham edən şəxs Ovs qəbiləsindəndirsə, biz onun boynunu vurarıq, yox əgər qardaşlarımız olan Xəzrəc qəbiləsindəndirsə əmr et, sənin əmrini yerinə yetirək." Bu vaxt Xəzrəc qəbiləsinin başçısı Səd ibn Ubadə dedi: "Vallahi, sən yalan danışdın! Sən onu nə öldürənsən, nə də öldürməyə qadirsən!" O, əməlisaleh adam idi, lakin buna rəğmən tayfabazlıq etdi. Bu sözdən sonra (Səd ibn Muazın əmisi oğlu) Useyd ibn Xudeyr qalxıb (Səd ibn Ubadəyə) dedi: "Vallahi, sən yalan danışdın! Biz onu mütləq öldürərik. Həqiqətən də, sən münafiqsən və münafiqləri müdafiə edirsən". Beləliklə, Xəzrəc və Ovs qəbilələri arasın-

da elə bir çaxnaşma düşdü ki, az qala bir-birlərini öldürəcəkdilər. Bu vaxt Peyğəmbər ﷺ minbərdə idi. O, dərhal minbərdən enib onları sakitləşdirdi və özü də susdu. Mən daha bir gün dayanmadan ağladım və bütün gecəni oyaq qaldım. Səhərisi gün valideynlərim mənim bir gün yarım dayanmadan ağladığımın şahidi olduqda elə zənn etdilər ki, ciyərim parça-parça olacaq. Onlar mənim yanımda ikən, ənsar qadınlarından biri mənim yanıma gəlmək üçün izn istədi və gəlib mənimlə bərabər ağladı. Elə bu vaxt Peyğəmbər ﷺ içəri daxil oldu və (salam verib) oturdu. Bu söz-söhbət başlanandan bəri o mənim yanımda oturmamışdı. Bir ay keçməsinə baxmayaraq, mənim barəmdə heç bir ayə nazil olmamışdı. O, şəhadət gətirdikdən sonra dedi: "Ey Aişə, sənin barəndə mənə filan-filan xəbərlər çatıb. Əgər günahkar deyilsənsə, Allah səni təmizə çıxardacaq. Yox, əgər günah iş görmüsənsə, Allahdan bağışlanma dilə, tövbə et! Həqiqətən, əgər bəndə öz günahını etiraf edib tövbə edərsə, Allah onun tövbəsini qəbul edər." Peyğəmbər ﷺ sözünü qurtardıqdan sonra mənim göz yaşım kəsildi və gözümdən bir damla yaş belə çıxmadı. Mən atama: "Allahın elçisinə ﷺ cavab

ver!"– dedim. O dedi: "Vallahi, Mən bilmirəm, Allahın elçisinə ﷺ nə deyim." Sonra mən anama: "Allahın elçisinə ﷺ cavab ver"– dedim. O dedi: "Vallahi, mən bilmirəm, Allahın elçisinə ﷺ nə deyim." Mən az yaşlı qız uşağı olduğum üçün, Qurandan çox dəlil-sübut bilmədiyimə görə dedim: "Vallahi, hər şey mənə bəlli oldu. Siz insanların danışdıqları bütün bu söhbətləri eşitdiniz, bu sizin qəlbinizdə özünə yer tapdı və siz onu təsdiq etdiniz. Əgər mən sizə günahsız olduğumu desəm, – Allah da bilir ki, həqiqətən, mən günahsızam, – siz mənə inanmayacaqsınız. Yox əgər günahkar olduğumu etiraf etsəm, – Allah da bilir ki, mən o günahdan uzağam, – siz buna inanacaqsınız. Vallahi, mən həm özümə, həm də sizə ancaq Yusufun atası Yaqubun dediyini misal çəkə bilərəm. Bir zaman o belə demişdir: **"Mənə gözəl səbir gərəkdir. Söylədiklərinizin müqabilində Allahdan kömək diləmək lazımdır."**[1]

(Bunları deyəndən) sonra mən gedib yerimə uzandım. Mən inanırdım ki, Allah mənim günahsız olduğumu üzə çıxardacaq. Lakin, vallahi, mən heç vaxt inanmazdım

[1] "Yusuf" surəsi, 18.

ki, Allah mənim günahsız olduğum barədə vəhy nazil edəcək. Quranda mənim bu işim haqqında danışılacağını mən özümə rəva bilmirdim. Mən ümid edirdim ki, Allahın elçisi ﷺ mənə bəraət qazandıracaq bir yuxu görəcək. Vallahi, Rəsulullah ﷺ heç yerindən qalxmamış və ev əhlindən də hələ bir kəs çolə çıxmamış ona vəhy nazil oldu. O, hər dəfə vəhy nazil olduğu zaman düşdüyü görkəmi aldı. Endirilən kəlamın ağırlığından o çox şiddətli sıxıntı keçirdi və qış günündə belə ondan mirvari dənəsi kimi damla-damla tər tökülməyə başladı. Vəhy nazil olduqdan sonra o güldü. Mənə dediyi ilk söz isə bu oldu: “Ey Aişə, Allaha həmd et! Allah səni təmizə çıxartdı.” Anam mənə dedi: “Qızım, qalx Allahın elçisinə ﷺ (təşəkkür et)!” Mən dedim: “Vallahi, mən nə ona təşəkkür edəcəyəm, nə də Allahdan başqa bir kimsəyə həmd edəcəyəm!” Uca Allah da bu ayələri nazil etdi:

﴿إِنَّ ٱلَّذِينَ جَآءُو بِٱلۡإِفۡكِ عُصۡبَةٞ مِّنكُمۡۚ لَا تَحۡسَبُوهُ شَرّٗا لَّكُمۖ بَلۡ هُوَ خَيۡرٞ لَّكُمۡۚ لِكُلِّ ٱمۡرِيٕ
مِّنۡهُم مَّا ٱكۡتَسَبَ مِنَ ٱلۡإِثۡمِۚ وَٱلَّذِي تَوَلَّىٰ كِبۡرَهُۥ مِنۡهُمۡ لَهُۥ عَذَابٌ عَظِيمٞ ﴿١١﴾ لَّوۡلَآ إِذۡ سَمِعۡتُمُوهُ ظَنَّ
ٱلۡمُؤۡمِنُونَ وَٱلۡمُؤۡمِنَٰتُ بِأَنفُسِهِمۡ خَيۡرٗا وَقَالُواْ هَٰذَآ إِفۡكٞ مُّبِينٞ ﴿١٢﴾ لَّوۡلَا جَآءُو عَلَيۡهِ بِأَرۡبَعَةِ
شُهَدَآءَۚ فَإِذۡ لَمۡ يَأۡتُواْ بِٱلشُّهَدَآءِ فَأُوْلَٰٓئِكَ عِندَ ٱللَّهِ هُمُ ٱلۡكَٰذِبُونَ ﴿١٣﴾ وَلَوۡلَا فَضۡلُ ٱللَّهِ

عَلَيْكُمْ وَرَحْمَتُهُۥ فِى ٱلدُّنْيَا وَٱلْـَٔاخِرَةِ لَمَسَّكُمْ فِى مَآ أَفَضْتُمْ فِيهِ عَذَابٌ عَظِيمٌ ﴿١٤﴾ إِذْ تَلَقَّوْنَهُۥ
بِأَلْسِنَتِكُمْ وَتَقُولُونَ بِأَفْوَاهِكُم مَّا لَيْسَ لَكُم بِهِۦ عِلْمٌ وَتَحْسَبُونَهُۥ هَيِّنًا وَهُوَ عِندَ ٱللَّهِ عَظِيمٌ
﴿١٥﴾ وَلَوْلَآ إِذْ سَمِعْتُمُوهُ قُلْتُم مَّا يَكُونُ لَنَآ أَن نَّتَكَلَّمَ بِهَٰذَا سُبْحَٰنَكَ هَٰذَا بُهْتَٰنٌ عَظِيمٌ ﴿١٦﴾
يَعِظُكُمُ ٱللَّهُ أَن تَعُودُوا۟ لِمِثْلِهِۦٓ أَبَدًا إِن كُنتُم مُّؤْمِنِينَ ﴿١٧﴾ وَيُبَيِّنُ ٱللَّهُ لَكُمُ ٱلْـَٔايَٰتِ ۚ وَٱللَّهُ عَلِيمٌ
حَكِيمٌ ﴿١٨﴾ إِنَّ ٱلَّذِينَ يُحِبُّونَ أَن تَشِيعَ ٱلْفَٰحِشَةُ فِى ٱلَّذِينَ ءَامَنُوا۟ لَهُمْ عَذَابٌ أَلِيمٌ فِى
ٱلدُّنْيَا وَٱلْـَٔاخِرَةِ ۚ وَٱللَّهُ يَعْلَمُ وَأَنتُمْ لَا تَعْلَمُونَ ﴿١٩﴾ وَلَوْلَا فَضْلُ ٱللَّهِ عَلَيْكُمْ وَرَحْمَتُهُۥ
وَأَنَّ ٱللَّهَ رَءُوفٌ رَّحِيمٌ ﴿٢٠﴾ ۞ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوا۟ لَا تَتَّبِعُوا۟ خُطُوَٰتِ ٱلشَّيْطَٰنِ ۚ وَمَن يَتَّبِعْ
خُطُوَٰتِ ٱلشَّيْطَٰنِ فَإِنَّهُۥ يَأْمُرُ بِٱلْفَحْشَآءِ وَٱلْمُنكَرِ ۚ وَلَوْلَا فَضْلُ ٱللَّهِ عَلَيْكُمْ وَرَحْمَتُهُۥ مَا زَكَىٰ مِنكُم
مِّنْ أَحَدٍ أَبَدًا وَلَٰكِنَّ ٱللَّهَ يُزَكِّى مَن يَشَآءُ ۗ وَٱللَّهُ سَمِيعٌ عَلِيمٌ ﴿٢١﴾

**“Şübhəsiz ki, *Aişə barəsində* yalan xəbər gətirənlər özünüzdən olan bir dəstədir. Onu özünüz üçün pis bir şey hesab etməyin. Əksinə, bu sizin üçün xeyirlidir. O dəstədən olan hər bir şəxsin qazandığı günahın cəzası vardır. İçərilərindən günahın böyüyünü öz üstünə götürəni isə böyük bir əzab gözləyir. Nə üçün siz bunu eşitdiyiniz zaman mömin kişilər və qadınlar bir-biriləri haqda yaxşı fikirdə olub: “Bu, açıq-aydın bir böhtandır!”– demədilər? Nəyə görə onlar buna dair dörd şahid gətirmədilər? Madam ki, şahid gətirmədilər, deməli,**

**onlar Allah yanında əsl yalançıdırlar. Əgər Allahın dünyada və axirətdə sizə lütfü və mərhəməti olmasaydı, dedi-qodularınıza görə sizə böyük bir əzab toxunardı. O zaman siz bunu dilinizə gətirir, bilmədiyiniz sözü danışır və onu əhəmiyyətsiz bir şey hesab edirdiniz. Halbuki bu, Allah yanında çox böyük günahdır. Nə üçün siz onu eşitdiyiniz zaman: "Bizə bunu danışmaq yaraşmaz. *Ey Allah!* Sən pak və müqəddəssən! Bu, çox böyük bir böhtandır!"– demədiniz? Əgər möminsinizsə, *bilin ki,* Allah sizə bir daha buna bənzər şeyləri təkrarən etməməyinizi nəsihət edir. Allah Öz ayələrini sizə belə izah edir. Allah Biləndir, Müdrikdir. Möminlər barəsində iyrənc şayiələrin yayılmasını istəyənlər üçün dünyada və axirətdə acılı-ağrılı bir əzab vardır. Allah bilir, siz isə bilmirsiniz. Əgər Allahın sizə lütfü və mərhəməti olmasaydı, Allah Şəfqətli və Rəhmli olmasaydı, *yaydığınız şayiələrə görə sizi məhv edərdi*. Ey iman gətirənlər! Şeytanın izi ilə getməyin. Kim şeytanın izi ilə getsə, *bilsin ki,* o *şeytan* iyrənc və yaramaz işlər görməyi əmr edir. Əgər Allahın sizə lütfü və mərhəməti olmasaydı,**

**sizdən heç kəs heç vaxt təmizə çıxmazdı. Lakin Allah istədiyini təmizə çıxardır. Allah Eşidəndir, Biləndir".**[1]

Allah mənə bəraət qazandıran bu ayələri nazil etdikdən sonra, qohumluq əlaqələri xatirinə və kasıb olduğuna görə, öz malından Mistah bin Usasəyə xərcləyən Əbu Bəkr əs-Siddiq dedi: "Vallahi, Mistah Aişə barəsində belə dedikdən sonra mən ona malımdan heç bir şey verməyəcəyəm." Uca Allah da bu ayəni nazil etdi:

﴿ وَلَا يَأْتَلِ أُوْلُوا۟ ٱلْفَضْلِ مِنكُمْ وَٱلسَّعَةِ أَن يُؤْتُوٓا۟ أُو۟لِى ٱلْقُرْبَىٰ وَٱلْمَسَٰكِينَ وَٱلْمُهَٰجِرِينَ فِى سَبِيلِ ٱللَّهِ ۖ وَلْيَعْفُوا۟ وَلْيَصْفَحُوٓا۟ ۗ أَلَا تُحِبُّونَ أَن يَغْفِرَ ٱللَّهُ لَكُمْ ۗ وَٱللَّهُ غَفُورٌ رَّحِيمٌ ﴿٢٢﴾ ﴾

**"Qoy aranızda olan fəzilət və sərvət sahibləri qohumlara, miskinlərə və Allah yolunda hicrət edənlərə** ***heç bir şey*** **verməyəcəklərinə and içməsinlər. Qoy əfv edib bağışlasınlar. Məgər siz Allahın sizi bağışlamasını istəmirsinizmi? Allah Bağışlayandır, Rəhmlidir."**[2]

Əbu Bəkr dedi: "Xeyr, vallahi, mən istəyirəm ki, Allah məni bağışlasın!" O, yenə də malından xərcləməyi-

---

[1] "ən-Nur" surəsi, 11-21.
[2] "ən-Nur" surəsi, 22.

nə davam etdi (və dedi: “Vallahi, mən heç vaxt malımı Mistahdan əsirgəməyəcəyəm!)”

Allahın elçisi ﷺ Zeynəb bint Cəhşdən mənim barəmdə soruşub dedi: “Ey Zeynəb, sən nə deyə bilirsən, nə görmüsən?” O dedi: “Ey Allahın elçisi, mən gözümü, qulağımı (görmədiyim və eşitmədiyim şeylərdən) qoruyuram! Mən onun barəsində xeyirdən başqa bir şey bilmirəm.”

Bu həmin Zeynəbdir ki, Peyğəmbərin ﷺ zövcələri arasında gözəlliyi və Peyğəmbərin ﷺ yanında olan mövqeyi ilə mənimlə rəqabət aparırdı. Lakin bunun pis aqibətindən qorxduğuna və gözəl dindar olduğuna görə Allah onu qorudu”.[1]

---

[1] Səhih əl-Buxari, 2661.

# İmam Hüseynin ﵁ zövcələri və övladları

1 - Rabəb bint İmrul-Qeys ibn Udey.

İmrul-Qeys Ömər ibn Xəttabın yanına gəlib İslam ordusuna qoşulmaq istəyərkən Allah ona hidayət vermişdir. Ömər də onu mükafatlandırmaq üçün öz qəbiləsinə əmir təyin etmişdi. Ömərin yanından çıxdıqda Əli ibn Əbu Talib ondan Həsənlə Hüseynə qızlarını ərə verməsini istəmiş o da, Həsənə qızı Səlmanı, Hüseynə də Rabəbi ərə vermişdi. Rabəb Hüseynə ərə gəldikdən sonra onu çox sevmişdi. Hüseyn də öz növbəsində onu sevib qayğısını çəkirdi. Hüseyn Kərbəlada şəhid olarkən Rabəb onun yanında idi. Hüseynin ölümündən sonra bir çox Qureyşli gənclər onunla ailə həyatı qurmaq istəsələr də, o bunu rədd edərək demişdir: "Mən Peyğəmbərdən ﷺ başqa heç kimin gəlini olmaq istəmirəm. Vallahi ki, Hüseyndən sonra mən heç bir kişi ilə bir çardaq altında olmayacağam". Qısa bir müddət sonra o vəfat etdi. Onun Hüseyndən olan

Səkinə adlı qızı zamanının ən gözəl qadınlarından idi. Ondan başqa onun Abdullah adlı oğlu da var idi.[1]

2 - Sülafə (Şah Zanən və ya Şəhrəbanu)

Sonuncu fars imperatoru Yezdəcird məhv olunduqdan sonra onun ailə üzvləri və əyanları müsəlmanların əlinə əsir düşdülər. Möminlər də onları bütlərə sitayişdən, atəşpərəstlikdən və məcusilikdən qurtarmaq istəyirdilər. Qənimətlər Mədinəyə gəlib çatdı. Mədinə şəhəri o vaxta qədər o qədər çox qənimət görməmişdi. Əsirlərin arasında Yezdəcirdin 3 qızı da var idi. İnsanlar bir neçə saat içərisində əsirləri pulla alıb haqqını beytul mala köçürdülər. Təkcə Xosrovun qızları qaldı. Onlar çox gözəl idilər. Ataları onları gənc ikən qoyub getmişdi. Fars imperatorluğu dağıldıqdan sonra onların gözlərini kədər və həsrət bürümüşdü. Əli ibn Əbu Talib onları saxlaya biləcək şəxslərin onlara sahib çıxmasını istəyirdi. Axı Peyğəmbər ﷺ belə demişdir: "Zillətə düşmüş böyük adamlara qarşı rəhmli olun". Əli Ömər ibn Xəttabın yanına gəlib dedi: "Ey möminlərin əmiri, padşahın qızları ilə başqaları kimi davranmaq olmaz". Ömər dedi:

[1] Tarix Dəməşq, 69/119-120.

"Düz deyirsən, bəs necə edək?" Əli dedi: "Gəl onların qiymətlərini qaldıraq, sonra onlar həmin məbləği ödəyənlərin arasında seçim etsinlər". Ömər Əlinin bu təklifini bəyənərək dərhal həyata keçirdi. Qızlardan birini Əbu Bəkrin oğlu Muhəmməd, ikincisini Ömərin oğlu Abdullah, üçüncüsünü isə Əlinin oğlu Hüseyn aldı. Həmin Sulafə də Hüseynə Səccad[1] və ya Zeynul-Abidin[2] ləqəbi ilə tanınmış Əli Əsğəri[3] dünyaya gətirdi. İkinci xanım Abdullah ibn Ömərdən Salimi, sonuncu isə Muhəmməd ibn Əbu Bəkrdən Qasimi dünyaya gətirdi. Bu üç xalauşaqları böyük alimlərdən olublar.[4]

Şah Zanən fars sözüdür və xanımların şahı mənasını verir. Qadın İslamı qəbul etdikdən sonra azad xanıma çevrildi. Daha sonra o bütpərəst olan əslindən daha da uzaqlaşmaq məqsədi ilə Şah Zanən adından da imtina etdi. Sülafə Hüseynlə çox xoşbəxt bir həyat sürmüşdü. Çünki Hüseyn padşah qızına ən layiqli ər idi. Onların oğlu dünyaya gəldikdə ona babalarının adını verdi-

---

1 Səcdəyə qapılan.
2 Abidlərin şərəflisi.
3 Yəni kiçik oğlu Əli.
4 Vəfəyat əl-Əyan, 3/267.

lər. Lakin Sülafənin bu sevinci uzun sürməmiş və o nifas[1] qızdırmasından dünyasını dəyişmişdir.

3 - Leyla bint Əbu Murra ibn Urva ibn Məsud əs-Səqəfi. Hüseynin bu zövcəsi əhli-beytdən Kərbəlada birinci şəhid olan Əli Əkbərin[2] anasıdır.

4 - Ummu İshaq bint Təlhə ibn Ubeydullah. O qardaşı Həsənin xanımı idi. Vəfatından qabaq qardaşı Hüseynə onunla evlənməyi vəsiyyət etmişdi. Ondan da Fatimə adlı qızı dünyaya gəlmişdi.

---

[1] Nifas, doğuşdan sonra qadının uşaqlığından gələn qandır.

[2] Yəni böyük oğlu Əli.

# İmam Hüseynin ﵁ rəvayət etdiyi bəzi hədislər

عَنْ الحُسَين ﵁ عَنْ عَلِيِّ بْنِ أَبِى طَالِب ﵁ أَخْبَرَهُ أَنَّ رَسُولَ اللَّه ﷺ طَرَقَهُ وَفَاطِمَةَ بِنْتَ النَّبِىِّ ﷺ لَيْلَةً فقَالَ: ﴿أَلاَ تُصَلِّيَان﴾ فَقُلْتُ يَا رَسُولَ اللَّه، أَنْفُسُنَا بِيَدِ اللَّه، فَإِذَا شَاءَ أَنْ يَبْعَثَنَا بَعَثَنَا. فَانْصَرَفَ حِينَ قُلْنَا ذَلِكَ وَلَمْ يَرْجِعْ إِلَىَّ شَيْئًا. ثُمَّ سَمِعْتُهُ وَهُوَ مُوَلٍّ يَضْرِبُ فَخِذَهُ وَهُوَ يَقُولُ: ﴿ وَكَانَ الإِنْسَانُ أَكْثَرَ شَىْءٍ جَدَلاً﴾

“Hüseyn ﵁ rəvayət edir ki, Əli ibn Əbu Talib demişdir: “Bir dəfə gecə Peyğəmbər ﷺ mənim və qızı Fatimənin yanına gəlib dedi: “Siz *gecələr* namaz qılmırsınızmı?” Mən dedim: “Ya Rəsulullah, bizim canımız Allahın Əlindədir. Əgər O, bizi oyatmaq istəsə, oyadar.” Belə deyəndə o, mənə heç bir söz deməyib çıxıb getdi. Sonra mən onun dönüb gedərkən ombasına vura-vura: “İnsan necə də çox mübahisə edərmiş!”[1]– dediyini eşitdim”.[2]

Rəvayət edilir ki, Hüseyn ﵁ demişdir: “Bir dəfə mən atamdan Peyğəmbər ﷺ haqqında soruşdum. O dedi: “Peyğəmbər ﷺ həmişə gülərüz, həlim xasiyyətli, müla-

[1] “əl-Kəhf” surəsi, 54.
[2] Səhih əl-Buxari, 1127.

yim rəftar edən bir adam idi. O əsla kobudluq, pislik, aravuranlıq etməz və eyib tutmazdı. Birinin könlündən bir şey keçdikdə dərhal onu hiss edərdi. O heç kəsi bezdirməz və heç kəsə səhv yol göstərməzdi. Üç şeydən həmişə uzaq olardı: riyakarlıq, təkəbbürlük və ona aid olmayan məsələlərə qarışmaq. Yalnız savab olan məsələlər barəsində danışır, danışdıqda isə ətrafında oturanlar onu diqqətlə dinləyərdilər. O sözünü qurtardıqdan sonra ətrafındakılar danışar və heç vaxt onun hüzurunda mübahisə etməzdilər. Birisi danışdıqda hamı susub onu dinləyərdi. Onun danışığı hamıdan üstün sayılardı. Hamı ilə birlikdə gülər və təəccüblənərdi. Bədəvilərin ona qarşı etdiyi kobudluğa səbir edər və deyərdi: “Birinin nəyəsə ehtiyaclı olduğunu görsəniz, ona yardımçı olun”. O yalnız layiqli kəsdən tərif qəbul edər və heç kimin sözünü kəsməzdi”.[1]

عن الحسين بن علي رضي الله عنهما يحدث أن النبي ﷺ خبأ لابن صائد دخانا فسأله عما خبأ له فقال : دخ فقال: ﴿ اخسأ ﴾

[1] Səhih Muslim, 4/1896; Müxtəsər əş-Şəmail, 1/24-25.

“Rəvayət edilir ki, Hüseyn ibn Əli ﷺ demişdir: “(Bir dəfə) Peyğəmbər ﷺ ibn Sayyada[1] dedi: “Sənin üçün fikrimdə bir şey tutmuşam”. İbn Sayyad: “Bu, duxdur[2]”- deyə cavab verdi. Peyğəmbər ﷺ ona: “İtil buradan!”- deyə buyurdu”.[3]

---

[1] Bu, qeyri-adi zahiri görünüşü olan bir uşaq idi ki, əshabələr onun məsihi-dəccal olduğunu güman edirdilər.

[2] Peyğəmbər ﷺ 44-cü surənin 10-cu ayəsindəki “əd-Duxan” (yəni duman) sözünü qəsd edirdi ki, bunu da ibn Sayyad düzgün tələffüz edə bilmədi. Beləliklə də, Peyğəmbər ﷺ şeytanın ona qarmaqarışıq sözlər təlqin etdiyini sübuta yetirdi.

[3] Mocəmul-Kəbir, 3/146; Silsilətul-Əhadis əs-Səhihə, 3256. Daha geniş məlumat üçün aşağıdakı hədisə nəzər salın:

Rəvayət edilir ki, ibn Ömər ﷺ demişdir: “(Bir dəfə) Ömər Peyğəmbərlə ﷺ və başqa bir neçə adamla birlikdə ibn Sayyadın yanına getdi. Onlar onu Bəni Məğalə qəbiləsinin istehkamı yanında uşaqlarla oynayan yerdə tapdılar. (O vaxt) ibn Sayyad artıq həddi-büluğa çatmışdı. Peyğəmbər ﷺ əli ilə (yavaşca ibn Sayyadın çiyninə) vuranadək o, (onların gəldiyini) hiss etmirdi. Peyğəmbər ﷺ ibn Sayyaddan soruşdu: “Sən mənim Allahın elçisi olduğuma şahidlik edirsənmi?” İbn Sayyad ona baxıb dedi: “Mən şahidlik edirəm ki, sən ümmilərə göndərilmisən.” Sonra ibn Sayyad Peyğəmbərdən ﷺ soruşdu: “Sən mənim Allahın elçisi olduğuma şahidlik edirsənmi?” Peyğəmbər ﷺ ona cavab verməyib dedi: “Mən Allaha və onun elçilərinə iman gətirmişəm!” Sonra ondan soruşdu: “(Yuxuda) nə görürsən?” İbn Sayyad dedi: “(Yuxuda) mənə həm doğru xəbərlər, həm də yalan xəbərlər gəlir.” Peyğəmbər ﷺ dedi: “İşin qarışığa düşüb (gördüklərini şeytan sənə qarmaqarışıq göstərir).” Sonra Peyğəmbər ﷺ ona: “Sənin üçün fikrimdə bir şey tutmuşam”– dedi. İbn Sayyad: “Bu, əd-Duxdur”– deyə cavab verdi. Peyğəmbər ﷺ buyurdu: “İtil buradan! Sən heç vaxt həddini aşa bilməyəcəksən.” Ömər dedi: “Ya Rəsulullah, burax onun boynunu vurum.” Peyğəmbər ﷺ buyurdu: “Əgər o, odursa, sən ona bata bilməyəcəksən, yox əgər o deyilsə, onu öldürməyinin sənə heç bir xeyri yoxdur.”

عن الحسين بن علي رضي الله عنهما قال: قال رسول الله ﷺ: ﴿من ذكرت عنده فخطىء الصلاة علي خطىء طريق الجنة﴾

Hüseyn ibn Əli رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Mənim adım çəkildiyi zaman mənə salavat gətirməyən kəs Cənnətə gedən yoldan azar".[1]

عن الحسين بن علي رضي الله عنهما عن علي قال: قال رسول الله ﷺ: ﴿البخيل الذي من ذكرت عنده فلم يصل علي﴾

Hüseyn ibn Əli رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Paxıl o kimsədir ki, mənim adım çəkildiyi zaman mənə salavat gətirmir".[2]

عن الحسين بن علي رضي الله عنهما قال : جاء رجل إلى النبي ﷺ فقال : اني جبان واني ضعيف قال: ﴿هلم إلى جهاد لا شوكة فيه، الحج﴾

---

Rəvayət edilir ki, ibn Ömər demişdir: "Bundan sonra Peyğəmbər ﷺ və Ubey ibn Kəb رضي الله عنه ibn Sayyadın olduğu xurma bağına getdilər. Peyğəmbər ﷺ istəyirdi ki, ibn Sayyad onu görmədiyi halda onun nə danışdığını eşitsin. Peyğəmbər ﷺ onun bürüncəyinə bürünüb uzandığını və əcaib səslər çıxartdığını gördü. (Bu vaxt) ibn Sayyadın anası Peyğəmbərin ﷺ xurma ağacının arxasında gizləndiyini görüb ibn Sayyada: "Ey Safi! (Bu ibn Sayyadın adıdır). Muhəmməd buradadır"– dedi və ibn Sayyad dərhal sıçrayıb ayağa qalxdı. Peyğəmbər ﷺ buyurdu: "Əgər qadın onu oyatmasaydı, (onun kim olduğu bizə) bəlli olardı." (əl-Buxari, 1354-1355)

[1] Səhih Tərğib vət-Tərhib, 1681.

[2] Səhih Sünən ət-Tirmizi, 3546.

Rəvayət edilir ki, Hüseyn ibn Əli ﷺ demişdir: "(Bir dəfə) bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib dedi: "(Ya Rəsulullah!) Mən (döyüşməkdən) qorxuram, özüm də zəifəm." Onda Peyğəmbər ﷺ ona belə buyurdu: "Haydı, gedək təhlükəsiz bir cihada – (yəni) həccə."[1]

عن الحسين بن علي رضي الله عنهما قال: قال النبي ﷺ: ﴿طلب العلم فريضة على كل مسلم﴾

Hüseyn ibn Əli رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Elm öyrənmək hər bir müsəlmana vacibdir."[2]

عن الحسين بن علي رضي الله عنهما قال: قال النبي ﷺ: ﴿إن الله تعالى يحب معالي الأمور و أشرافها و يكره سفسافها﴾

Hüseyn ibn Əli رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Uca Allah şərəfli işləri sevər, yaramaz əməlləri isə bəyənməz."[3]

عن الحسين بن علي رضي الله عنهما قال: قال النبي ﷺ: ﴿من حسن إسلام المرء تركه ما لا يعنيه﴾

[1] Sünən əl-Beyhəqi, 4/350; İrva əl-Ğəlil, 4/152
[2] Mocəm əs-Səğir, 61; Səhih əl-Cami, 3913.
[3] əl-Cami əs-Səğir, 1890.

Hüseyn ibn Əli ﵄ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “(Özünü müsəlman sayan) kimsənin İslamının gözəlliyi ona aid olmayan işləri tərk etməsindədir.”[1]

عن الحسين بن علي ﵄ عن أمه فاطمة ابنة رسول الله ﷺ قالت: قال رسول الله ﷺ: ﴿ألا لا يلومن امرؤ إلا نفسه يبيت وفي يده ريح غمر﴾

Hüseyn ﵁ anası Fatimədən ﵂ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: “Əlindən yağ iyi gəldiyi halda yatan kimsə özündən başqa heç kəsi qınamasın.”[2]

عن الحسين بن علي ﵄ قال: دعاني أبي علي بوَضوء، فقربته، فبدأ فغسل كفيه ثلاث مرات قبل أن يدخلهما في وَضوئه، ثمّ مضمض ثلاثاً واستنثر ثلاثاً، ثمّ غسل وجهه ثلاث مرات، فمّ غسل يده اليمنى إلى الرفق ثلاثاً، ثمّ اليسرى كذلك، ثمّ مسح برأسه مسحة واحدة، ثمّ غسل رجله اليمنى إلى الكعبين ثلاثاً، ثمّ اليسرى كذلك، ثمّ قام قائماً فقال: ناولني، فناولته الإناء الذي فيه فضل وضوئه، فشرب من فضل وضوئه قائماً، فعجبت! فلما رآني قال: ﴿لا تعجب، فإني رأيت أباك النّبيّ ﷺ يصنع مِثلَما رأيتني صنعت، توضَّأ لوضوئه هذا وشُرْبِ فضلِ وَضوئه قائماً﴾.

Hüseyn ibn Əli ﵄ demişdir: “Atam Əli məndən dəstəmaz almaq üçün bir qab su gətirməyi xahiş etdi,

---

[1] Müsnəd imam Əhməd, 1646; Səhih əl-Cami, 5911.

[2] Səhih ibn Macə, 2665.

mən də ona su gətirdim. Atam əllərini su qabının içinə salmamışdan əvvəl onları üç dəfə yudu. Sonra üç dəfə ağzını yaxaladı və üç dəfə burnunun içini yudu; sonra üç dəfə üzünü yudu; sonra üç dəfə sağ qolunu dirsəyə qədər və üç dəfə sol qolunu dirsəyə qədər yudu; sonra başına bir dəfə məsh çəkdi; sonra üç dəfə sağ ayağını topuğa qədər və üç dəfə sol ayağını topuğa qədər yudu. Sonra ayağa qalxıb: "Qabı mənə ver"- dedi, mən də qabı ona uzatdım. O, qabı götürüb ayaqüstə ikən artıq qalmış sudan içdi. Onun bu hərəkəti məni təəccübləndirdi. Atam mənim təəccübləndiyimi görəndə dedi: "Təəccüblənmə! Mən sənin baban Peyğəmbərin ﷺ belə etdiyini görmüşəm. O da bu cür dəstəmaz aldıqdan sonra artıq qalmış sudan ayaqüstə içmişdir".[1]

[1] Sünən ən-Nəsai, 95; Müsənnəf Abdurrəzzaq, 123; Müsnəd əl-Cami, 9989; Səhih Əbu Davud, 1/200.

# İmam Hüseynin ﷺ söylədiyi bəzi şeirlər

Burax məxluqatı Xaliqə güvən,
Onda, seçəcəksən düzü əyridən.[1]
Rəhmanın[2] lütfündən ruzi dilə sən,
Bil, Ondan savayı yox ruzi verən.
Kim ki insanlardan umursa çörək,
Mərhəmətli Allaha inanmır demək.
Kim də mal-dövləti özünki[3] sayır,
Düz yol üstə ikən səhv addım atır.[4]

❁❁❁

Varlının nə zaman artsa sərvəti,
Artar həm qayğısı, həm də möhnəti.
Tanıdıq biz səni, ey fani dünya,
Getdikcə köhnələn, dərd verən dünya.

---

[1] Burada düz deyildikdə hər şeyə qadir olan Allah, əyri deyildikdə isə aciz məxluqat nəzərdə tutulur. Yəni belə etsən, yaradılanların aciz olduğunu, Allahın isə nəyə qadir olduğunu görə bilərsən.

[2] Ərəbcə ər-Rəhman Mərhəmətli Allah deməkdir. Bu da Allahın bizə məlum olan doxsan doqquz adından biridir.

[3] Uca Allah buyurur: **“Göylərin və yerin mülkü Allaha məxsusdur. Dönüş də Allahadır”.** ən-Nur, 42.

[4] əl-Bidayə vən-Nihayə, 8/208-209.

Zahiddir, dünyanı tərk edən insan,[1]
Ailə yükünü, daşıyan insan.[2]

❁❁❁

Vallahi ki, mənim, bir istəyim var,
Səkinə və Rabəb[3] olsun mənə yar.
Canım da, malım da, onlara qurban,
Yoxdur buna görə məni qınayan.
Qınasalar belə, fikir verməərəm,
Heç kəsə, heç zaman boyun əyməərəm.[4]

❁❁❁

Nəfis[5] sayırlarsa fani dünyanı,
Bil, daha üstündür Allah savabı.[1]

---

[1] Burada bəzi rahiblər kimi gününü məbəddə keçirməklə dünyanı tərk etmək deyil, əksinə, bu dünyanın naz-nemətindən və zövqü-səfasından istifadə etməklə yanaşı ona könül bağlamayıb axirət yurduna can atmaq nəzərdə tutulur.

[2] əl-Bidayə vən-Nihayə, 8/208-209.

[3] Səkinə imam Hüseynin qızı, Rabəb isə həyat yoldaşıdır. Burada imam Hüseyn bu dünyada da, axirətdə də, sevimli ailəsi ilə birgə olmaq istəyini bildirir.

[4] əl-Vafi vəl-Vəfəyat, 4/442.

[5] Son dərəcə zərif, incə, gözəl və qəşəng.

Ölümə məhkumsa insanın canı,
Bil, daha əfzəldir şəhidin qanı.[2]
Allah yazmışdırsa bizim ruzunu,
Bil, daha yaxşıdır axtarmaq onu.
Yığılan sərvətin yoxdusa sonu[3]
Niyə əbəs yerə yığırlar onu?[4]

---

[1] Uca Allah buyurur: **"Sizə verilən hər şey ancaq dünya həyatının keçici zövqü və onun bərbəzəyidir. Allah yanında olanlar isə daha xeyirli və daha sürəklidir. Məgər başa düşmürsünüz?"** əl-Qəsəs, 60.

[2] Allah yolunda vuruşub şəhid olmaq, əlbəttə ki, hər cür ölümdən daha əfzəl sayılır.

[3] Hər kəs Allah yolunda xərclədiyinin əvəzini Qiyamət günü artıqlaması ilə alacaq, bu mal-dövlət axırda yenə onun özünə qismət olacaq, yığıb saxladığı isə gec-tez varislərə nəsib olacaqdır. Rəvayət edilir ki, (bir dəfə) Peyğəmbərin ﷺ ailəsi bir qoç kəsib (Allah yolunda) payladı. Sonra Peyğəmbər ﷺ gəlib soruşdu ki: "(Özümüzə) nə qaldı?" Zövcəsi: "Onun bir kürəyi qaldı?"- deyə cavab verdi. Onda Peyğəmbər ﷺ buyurdu: "(Xeyr, bizə) payladığmız qaldı". Səhih Sunən ət-Tirmizi, 2470 və Səhih Tərğib vət-Tərhib, 859.

[4] əl-Bidayə vən-Nihayə, 8/208-209.

# İmam Hüseyn ﵁ haqqında deyilən bəzi şeirlər

Haqqı deyən bu adam yolmuza nur saçırdı,
Kərbəlada vuruldu çölün düzündə qaldı.
Allah əcrini versin, ey Peyğəmbər nəvəsi,
Ziyana uğramayan, nəvələrin nəvəsi!
Sanki möhkəm dağ idin daldalanırdım sənə,
Sən qayğımı çəkirdin, din öyrədirdin mənə.
Sənsən yetimə baxan dilənçiyə pay verən,
Əl açan hər yoxsula himayədarlıq edən.[1]

❁❁❁

Məhşərə gətrilərkən Hüseyni öldürənlər,
Nə üzlə babasından şəfaət diləyərlər?![2]

❁❁❁

---

[1] Bu şeiri Hüseynin zövcəsi Rabəb onun vəfatından sonra demişdir. əl-Vafi vəl-Vəfəyat, 4/442.

[2] Bu şeiri ibn Şəcərə nəql etmişdir. əl-Bidayə vən-Nihayə, 8/200;

Diqqət edin! Uhud döyüşündə Həmzəni ﵁ qətlə yetirən Vəhşi ibn Hərb əl-Həbəşi müsəlman olduqdan sonra tutduğu əməldən peşman olub üzrxahlıq diləmək üçün Peyğəmbərin ﷺ yanına gəlmişdi. Vəhşi hadisəni belə xatırlayır: "Peyğəmbər ﷺ məni görəndə soruşdu: "Vəhşi sənsənmi?" Mən: "Bəli!"– deyə cavab verdim. Soruşdu: "Həmzəni sənmi öldürmüsən?" Dedim: "Elədir ki var". Peyğəmbər ﷺ dedi: "Sən elə edə bilərsənmi ki, mən heç vaxt sənin üzünü görməyim?" Onda mən (məyus halda) dönüb getdim..."

Çox maraqlıdır, görəsən Peyğəmbərin ﷺ sevimli nəvəsini öldürənlərin məhşər günü aqibəti necə olacaq.

Bazarda Haninin boynun vurdular,[1]
Onu zəfəran tək qanına boyadılar.
Əzəldən, Peyğəmbərin davamçısıydı,
Həm comərd, həm də ki, çox məğrur idi.
Hüseynin hörməti yüksəlir ancaq,
Buna heyran qalır, hər yüksək, alçaq.
Şəhidliklə onun izzəti artdı,
Beləcə, bu igid kamına çatdı.[2]

❁❁❁

Bax, qovuşdu Hüseyn, xeyirxahlara,
Həm mömin, həm də ki, pak insanlara.
Məsləkli[3] olmağı Hüseyndən öyrən,
Sən də Hüseyn tək comərd olginən.
Analardı doğan gün işığını,[4]
Qiymətli daş-qaşın parıltısını.[5]

❁❁❁

---

[1] İbn Ziyadın adamları Hüseynin əmisi oğlu Muslim ibn Əqili edam etdikdən sonra Hani ibn Urvanı bazara gətirib qəbiləsinin gözü qabağında onun boynunu vurmuş, sonra da hər ikisinin cəsədini bazarın girəcəyində, camaatın gözü önündə asmışlar.

[2] Bu, Əbu Əsvəd əd-Deylinin şeiridir. ət-Təbəqat, 1/512.

[3] Əqidəsində möhkəm olub etiqadından dönməyən adam.

[4] Hüseyn kimi safqəlbli, səmimi insanları dünyaya gətirən analardır.

[5] Bu, Muhəmməd Əqbalın şeiridir. Dövhə ən-Nəbəviyyə, səh: 130.

Haşimini[1] tovlayıb hiylə qurdular,
Taf dedikləri yerdə onu vurdular.
Baxdım Peyğəmbərin, əhli-beytinə,
Acıdım onların aqibətinə.
Can-ciyərlərimiz, çox əzildilər,
Fəqət müsibətə sinə gərdilər.
Rahiblər[2] Allaha, ibadət etməz,
İbadət etsə də, xeyrini görməz.
Qeys[3] harınladı, həddini aşdı,
Bizə əl qaldırdı, bir az da azdı.
Qanımıza bulandı, zalımın əli,
Beləcə, puç oldu onun əməli.
Məgər görmürsən ki, torpaq zarıyır,
Hüseynin ölmünə, ellər ağlayır?[4]

---

[1] Haşimi deyildikdə Hüseyn nəzərdə tutulur. Bu, onun ata babasının babasının adıdır: Hüseyn ibn Əli ibn Əbu Talib ibn Abdul-Muttəlib ibn Haşim.

[2] Deyəsən, şair bu sözlərlə əhli-beytə zülm edənləri rahiblərə bənzədir.

[3] Olsun ki, burada xain kufəlilərdən olan Qeys ibn Əşəs nəzərdə tutulur.

[4] Bu, Süleyman ibn Qəttə ət-Teyminin şeiridir. ət-Təbəqat, 1/512.

## Son söz

Beləcə Allahın izni ilə bu risaləni sona yetirdik. Hər bir yaradılan sona məhkumdur, yalnız Yaradan Uca Allahdan  başqa. Ümid edirəm ki, bu risaləni oxuyan hər bir müsəlman bacı və qardaşlarım Allahın dinində sabitqədəm olacaq və qarşılaşdıqları çətinliklərdə və müsibətlərdə Peğəmbər ﷺ, onun nəvəsi İmam Hüseyn  və sıxıntıya düşmüş digər səhabələr kimi səbirli olacaq və köməyi yalnız Allahdan diləyəcəklər. Fikir verdinizsə imam Hüseyn rastlaşdığı çətinlikdə heç kəsə deyil məhz Allaha üz tutur. Çunki, bilir ki, qədər Allahındırsa onu heç kəs dəyişə bilməz. Uca Allahdan arzum da budur ki, bütün müsəlmanlara sıxıntı və çətinliklərdə yardımçı olsun. Qoy Uca Allah bizi parçalanmadan və ixtilafa düşməkdən hifz eləsin. Qoy Uca Allah bizi İmam Hüseynin də olacaği Peyğəmbər ﷺ hovuzu ətrafında Peğəmbərlə ﷺ birlikdə etsin. Amin!

# İstifadə olunmuş ədəbiyyat


- Qurani Kərimin Azərbaycan dilində mənaca tərcüməsi, Ə. Musayev, Bakı, 2008.
- əl-Bidayə vən-Nihayə, İbn Kəsir, Beyrut.
- əl-Cami əs-Səğir, Muhəmməd Abdul-Heyy əl-Kənəvi.
- Dövlə əl-Əməviyyə, Əli Muhəmməd əs-Səllabi, Qahirə.
- Əbnaun-Nəbi və Əhfadihi, Abdul-Munim, Kuveyt, 2008.
- Əxbar ət-Tival, Deynuri, Mövqu-Yəsubi.
- Ənsab əl-Əşraf, əl-Bələzuri, Dar-əl-Məarif, Misir.
- Ərşif Mültəqa Əhlil-Hədis, 1429 h.
- Fədail əs-Səhabə, Əhməd ibn Hənbəl, Beyrut, 1983.
- Fərq beynəl-Firəq, Abdul-Qadir əl-Bəğdadi, Beyrut, 1977.
- Xosrov və Şirin, Nizami Gəncəvi, Bakı, 1982.
- əl-İrşad, Əbu Yələ əl-Qəzvini, ər-Riyad, 1409 h.
- İrva əl-Ğəlil, əl-Albani, Beyrut, 1985.
- İskəndərnamə, Nizami Gəncəvi, Bakı, 1982.
- əl-İstiyab, ibn Abdul-Bərr, Mövqu-əl-Vərraq.
- əl-Kamil fit-Tarix, ibn əl-Əsir, Beyrut, 1995.
- Leyli və Məcnun, Nizami Gəncəvi, Bakı, 1982.
- Məcmə əz-Zəvaid, Heysəmi, Beyrut, 1992.
- Məcmu Fətava ibn Teymiyyə, ibn Qasim, Mədinə, 1995.

- Minhac əs-Sünnə, ibn Teymiyyə, Müssəsətu Qurtubə, 1406 h.
- Mişkatul-Məsabih, əl-Albani, Beyrut, 1985.
- Mocəm əl-Kəbir, Təbərani, Mövsul, 1983.
- Müxtəsər Tarix Dəməşq, əz-Zəhəbi, Beyrut.
- Müsənnəf Abdurrəzzaq, Beyrut, 1403 h.
- Müsənnəf ibn Əbu Şeybə, Dar-əl-Fikr, Misir.
- Müsnəd əl-Cami, Əbu əl-Fədl.
- Müsnəd, Əbu Yələ Əhməd ibn Əli, Dəməşq, 1984.
- Müsnəd, Əhməd ibn Hənbəl, Müəssəsə ər-Risalə, 1999.
- əl-Müstədrək, əl-Hakim, Beyrut, 1990.
- Neyl əl-Əvtar, əş-Şovkani, əl-Muniriyyə.
- Ras əl-Hüseyn, ibn Teymiyyə, Mövqu Yəsubi.
- Rəyu şeyxul-İslam, Əli ibn Nayif əş-Şəduh.
- Sünən əl-Beyhəqi, Əhməd ibn Hüseyn, Heydərabad, 1344.
- Səhih əl-Buxari, Muhəmməd ibn İsmail, dar Tovqu ən-Nəcat, 1422 h.
- Səhih əl-Cami əs-Səğir, əl-Albani, Beyrut, 1988.
- Səhih əl-Ədəb əl-Müfrəd, əl-Albani, dar-əs-Siddiq, 1421.
- Səhih ibn Hibban ət-Təmimi əl-Bəsti, Beyrut, 1993.
- Səhih ibn Macə, əl-Albani, Beyrut.
- Səhih Muslim, ibn Həccac əl-Quşeyri, dar əl-Ceyl, Beyrut.
- Səhih Sünən ən-Nəsai, əl-Albani, Beyrut.

- Silsilətul Əhadis əs-Səhihə, əl-Albani, ər-Riyad, 1995.
- Siyər Əlam ən-Nubələ, əz-Zəhəbi, Mövqu Yəsubi.
- Şöəbul-İman, Əhməd ibn Hüseyn, Məktəbə ər-Ruşd, ər-Riyad, 2003.
- Sünən ət-Tirmizi, Muhəmməd ibn İsa, dar İhaya Turas əl-Ərəbi, Beyrut.
- Şərh əs-Sünnə, əl-Bəğəvi, Beyrut, 1983.
- Tarix Bağdad, Əhməd ibn Əli, dar əl-Kutub əl-İlmiyyə, Beyrut.
- Tarix Xəlifətu ibn Xayyat, Əbu Amr əl-Leysi, Beyrut, 1397.
- Tarix əl-Uməm vər-Rusul vəl-Muluk, ət-Təbəri, dar əl-Kutub əl-İlmiyyə, Beyrut, 1407 h.
- ət-Təbəqat əl-Kubra, ibn Səd, Beyrut, 1968.
- Təfsir ət-Təbəri, Muhəmməd ibn Cərir ət-Təbəri, Müəssəsə ər-Risalə, 2000.
- Təhzib əl-Kəmal, Yusuf ibn Zəki əl-Mizzi, Beyrut, 1980.
- ət-Təmhid, Əbu Amr ibn Abdul-Bərr, əl-Məğrib, 1387.
- Tərğib vət-Tərhib, əl-Munziri, Beyrut, 1417.
- Tohfətul Əhvəzi bi-Şərh Cami ət-Tirmizi, əl-Mübarəkfuri, dar əl-Kutub əl-İlmiyyə, Beyrut.
- Vəfəyat əl-Əyan, ibn Xəlkan, dar Sadir, Beyrut.
- Yeddi Gözəl, Nizami Gəncəvi, Bakı, 1982.

## *Müəllifin yazdığı və tərcümə etdiyi kitablar*

- *"Qurani Kərim və Azərbaycan dilində mənaca tərcüməsi"*
- *"Allaha şükür"*
- *"Cənnətlə müjdələnənlər"*
- *"Elmin fəziləti"*
- *"Gündəlik dualar"*
- *"Hər bir müsəlmanın əqidəsi"*
- *"Hikmətli dəvət"*
- *"Hökmlərin əsası"*
- *"İxvanlara qarşı fitvalar"*
- *"Qadınlarla əlaqəli bəzi şəriət hökmləri"*
- *"Qadınlara münasibət"*
- *"Quranı öyrənmək üçün qızıl qaydalar"*
- *"Qurbanlığa aid məsələlər"*
- *"Qəriblər"*
- *"Peyğəmbər ﷺ belə həcc etmişdir"*
- *"Məscidin ədəbləri"*
- *"Müsafirin cib kitabı"*
- *"Müsəlmanın qalası"*
- *"Müstəcəb dualar"*
- *"Namazın təlimi"*
- *"On haqq"*
- *"Ramazan fitvaları"*
- *"Raşidi xəlifələr"*
- *"Səhih müsnəd"*
- *"Səhih əl-Buxari"*
- *"Şəriət risaləsi"*
- *"Üç sual"*
- *"Valideynlərə münasibət"*
- *"Vətənə münasibət"*
- *"Zina"*

# Mündəricat

Ön söz ........ 3
Giriş ........ 7
İmam Hüseynin ﷺ dünyaya gəlməsi ........ 20
İmam Hüseynin ﷺ fəzilətinə dair rəvayət edilmiş bəzi hədislər ........ 34
İmam Hüseynin ﷺ şəninə deyilən təriflər ........ 42
İmam Hüseynin ﷺ Cənnətlə müjdələnməsi ........ 46
Kərbəla faciəsi ........ 49
İmam Hüseynin ﷺ duası ........ 70
Əhli-beytdən imam Hüseynlə ﷺ birgə şəhid olanlar ........ 73
İmam Hüseynin ﷺ yaxınlarının Mədinəyə göndərilməsi ........ 74
O dövrdəki bəzi əmirlərin mövqeyi ........ 76
İmam Hüseynin ﷺ qətlinə bais olan zalımlar ........ 80
İmam Hüseyni ﷺ qətlə yetirənlərin cəzası ........ 86
Yezidə münasibət ........ 89
"Hüseyn ﷺ əmirə qarşı çıxmışdır" deyənlərə verilən cavab ........ 105
İmam Hüseyn ﷺ harada dəfn edilmişdir? ........ 110
Müsibət üz verdikdə nə etməli? ........ 113
Allah yolunda səbirli olanların başına gəlmiş bəzi ibrətamiz hekayələr ........ 133
İmam Hüseynin ﷺ zövcələri və övladları ........ 185
İmam Hüseynin ﷺ rəvayət etdiyi bəzi hədislər ........ 189
İmam Hüseynin ﷺ söylədiyi bəzi şeirlər ........ 196
İmam Hüseyn ﷺ haqqında deyilən bəzi şeirlər ........ 199
Son söz ........ 202
İstifadə olunmuş ədəbiyyat ........ 203